www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22 iyul 2016-cı il Cümə № 158 (6479) Qiymәti 60 qəpik

**Xəbər**

## Bir gündə 7 adam batdı: Xəzəri "əjdahaya" çevirən şok səbəblər

yazısı səh.15-də

**Gündəm**

### Türkiyə səfiri brifinq keçirdi, hər şeyi açıqladı



**İsmayıl Alper Coşkun:** "Çevriliş cəhdinin arxasında "Fətullahçı Terror Təşkilatı dayanır"; Diplomat Rusiya və İsraillə münasibətlərin də müsbət yöndə inkişaf etdirildiyini dedi

yazısı səh.4-də

### Bu gün Milli Mətbuat Günüdür

yazısı səh.3-də

### Özəlləşdirmədə dövlət nəyi satacaq, nəyi saxlayacaq?

yazısı səh.12-də

### Astroloqlardan ölkəmiz və Türkiyə ilə bağlı bədbin proqnozlar

yazısı səh.13-də

### Deputatlar mandatlarına olan təhlükədən danışdılar

yazısı səh.7-də

### Dövlət büdcəsinin kəsiri artır

yazısı səh.12-də

### Türkiyə ordusuna Bakıda yer ayrılmasına reaksiyalar

yazısı səh.6-da

### Qafqaz Universitetinin sabiq rektoru vidalaşdı

yazısı səh.3-də

### Dövlət qəzeti "Space"ni "vurdu" - zənci aparıcı işdən çıxarıldı

yazısı səh.10-da

### Vitse-prezidentlik müzakirələri başladı

yazısı səh.7-də

### Ölüm cəzası, yoxsa ömürlük həbs-tanınmışların cavabı

yazısı səh.10-da

### Rusiya SPİD-in episentri elan olundu: Azərbaycan da təhlükədə

yazısı səh.11-də

## Ərdoğan-Putin görüşü: saatlar Ankara vaxtına qurulur

# TÜRKİYƏ VƏ RUSİYA İNQİLABİ YAXINLAŞMA ƏRƏFƏSİNDƏ - BAKI DA UDUŞDA

"Kartlar" təzədən paylanır: Moskva-Ankara münasibətləri "Su-24" insidentinədək olan səviyyədən də yüksəyə qalxa, 15 iyul qiyamı regionun təzədən şəkillənməsinə təkan verə bilər; **rusiyalı hərbi ekspert:** "Türkiyə ABŞ-dan uzaqlaşacaq, NATO-dan çıxmasa belə, onun formal üzvünə çevriləcək..."




yazısı səh.8-də

## Vəkillər Kollegiyasında daha bir vəkil çıxarıldı, ittihamlar başladı - qalmaqal

Şəfiqə Nağıyevanın vəkillik fəaliyyəti dayandırıldı; "Ayıbdır, kişi bir qadınla mübarizə aparır, məni ləkələmək istəyir"

yazısı səh.4-də



*Bayram Səfərov:*

### "Ən yaxşı yolu budur ki, Sərkisyan alnının ortasından bir güllə vursun"

yazısı səh.9-da



### Prezident qəzetlərə 1 milyon manat yardım ayırdı

yazısı səh.2-də



### Rəsul Quliyevin qardaşının yasında iştirakı üçün müraciət hazırlanır

yazısı səh.5-də



# Jurnalistlər üçün yaşayış binasının tikintisinə 3 milyon manat ayrıldı

**Prezident İlham Əliyev mətbuat işçiləri üçün yaşayış binasının tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb. Modern.az xəbər verir ki, sənədə əsasən, Azərbaycan mətbuat işçilərinin mənzil şəraitinin yaxşılaşdırılması üçün inşa olunan yaşayış binasının tikintisinin davam etdirilməsi məqsədilə 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 3 milyon manat ayrılıb.**

Maliyyə Nazirliyinə bu sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.

# YAP: Konstitusiya referendumu bu il keçiriləcək

**Azərbaycanda Konstitusiya dəyişiklikləri ilə bağlı təklif olunan referendumun bu il keçirilməsi nəzərdə tutulub. APA-nın məlumatına görə, bunu Yeni Azərbaycan Partiyası icra katibinin müavini, deputat Siyavuş Novruzov partiyanın qərargahında KİV nümayəndələri ilə keçirilən görüşdə bildirib.**

S. Novruzov deyib ki, prezidentin təklifinə hazırda Konstitusiya Məhkəməsində baxılır və qanunda nəzərdə tutulan dövr ərzində rəy veriləcəyi təqdirdə, referendumun keçirilməsinə hazırlıq başlayacaq.

# Rusiya Ukraynaya əlavə hərbi texnika yeritdi

**Rusiya Donbasa yeni hərbi texnika göndərib. Axar.az xəbər verir ki, bu barədə informasiyanı Ukrayna Baş Kəşfiyyat İdarəsi yayıb. Yeni hərbi texnika Ukraynanın Krasnodon, Sverdlovsk, Makeyevka şəhərlərində yerləşdirilib.**

Rusiyadan Ukraynaya 23 yük avtomobili, 120 tonluq sursat, 122 millimetrlik özüyeriyən artilleriya qurğusu olan Qvozdika və 200 əsgər gətirilib.

# Dolların məzənnəsi 1,57 manatı ötdü

**Azərbaycan Mərkəzi Bankı (AMB) iyulun 22-nə olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb. AMB-dən verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi iyulun 22-nə 1,5724 səviyyəsində müəyyən olunub.**

Qeyd edək ki, iyulun 21-də dollar 1,5693 manata bərabər olub.

# Qara Qarayev prospektinin bir hissəsi nəqliyyatın hərəkəti üçün bağlanacaq

**İyul ayının 22-dən 23-nə keçən gecədən etibarən Qara Qarayev prospektinin Rüstəm Rüstəmov ("Neftçilər" metrosu) və Behruz Nuriyev ("Laçın" ticarət mərkəzi) küçələri arasında yerləşən hissəsi təmir işləri ilə əlaqədar olaraq qısa müddətlik nəqliyyat vasitələrinin hərəkəti üçün bağlanır.**

Bu barədə "Azəravtoyol" ASC-dən məlumat verilib.

Sürücülərdən alternativ yoldan istifadə etmələri tövsiyə olunur.


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərində də abunə qəbul olunur.


# Prezident qəzetlərə birdəfəlik yardım ayırdı

**Azərbaycan prezidenti İlham Əliyev ölkədə nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı ayrılması haqqında sərəncam imzalayıb.**

Sərəncamda deyilir:

"1. Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 1,0 (bir) milyon manat ayrılsın.



2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin".

# Türkiyə müxalifəti fövqəladə vəziyyət qərarına münasibət bildirdi

**Türkiyə müxalifəti dövlət çevrilişi cəhdindən sonra ölkədə üç ay müddətində fövqəladə vəziyyət elan olunması barədə qərarla bağlı mövqeyini açıqlayıb.**

"Report" Türkiyə KİV-inə istinadən xəbər verir ki, Cümhuriyyət Xalq Partiyasının (CHP) sədri Kamal Kılıçdaroğlu Türkiyə Böyük Millət Məclisində (TBMM) müzakirəyə çıxarılacaq sənədlə bağlı təşkilat daxilində məsləhətləşmələr aparıldığını və deputatlarının öz seçimində sərbəst olacağını bildirib: "Biz demokratiyanın tərəfdarıyıq. Demokratiya üçün də qrup şəklində qərar alnmaz".

Milliyyətçi Hərəkat Partiyasının (MHP) sədri Dövlət Bağçalı isə ölkədə fövqəladə vəziyyətin elan edilməsinin məqsədəuyğun və düzgün qərar olduğunu vurğulayıb.

Qeyd edək ki, Türkiyənin baş naziri Binəli Yıldırım CHP və MHP sədrləri ilə telefon danışığında Türkiyə parlamentində müzakirəyə çıxarılacaq ölkədə üç ay müddətində fövqəladə vəziyyət elan olunması barədə qərara dəstək verməlirini istəyib.

# Peskov "xəbərim yox" dedi

**Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın hazırlanan çevriliş barədə Rusiya tərəfindən xəbərdar olunması barədə onda heç bir məlumat yoxdur.**

Virtualaz.org xəbər verir ki, bu məlumatı "RİA Novosti" yayıb.

"Məndə belə məlumat yoxdur və agentliyin hansı mənbələrə istinad etdiyini bilmirəm", - dərc olunmuş məlumatın həqiqətə uyğun olub-olmaması barədə suala cavab verərkən Peskov deyib.

Xatırladaq ki. İranın "Fars" agentliyinin Ankaradakı diplomatik mənbələrə istinadən verdiyi xəbərə görə, Ərdoğanı hazırlanan silahlı çevrilişə bir neçə saat qalmış Rusiya tərəfi məlumatlandırıb.

# Müəllimlərin imtahanlarının vaxtı açıqlanıb

**İyulun 22-də respublikanın ümumi təhsil müəssisələrinə mərkəzləşdirilmiş qaydada keçirilən müəllimlərin işə qəbulu üzrə müsabiqənin test mərhələsinə başlanılacaq. Təhsil Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən xəbərə görə, avqustun 3-dək aparılacaq imtahanlar Azərbaycan Dövlət İqtisad Universitetinin 2-ci tədris binasında keçiriləcək. Namizədlərə ixtisaslarına uyğun olaraq ümumtəhsil məktəblərinin fənn proqramının məzmunu üzrə 40, metodika, təlim strategiyaları üzrə 10 və məntiq üzrə 10 sual olmaqla, ümumilikdə 60 sualı cavablandırmaq üçün 90 dəqiqə vaxt veriləcək. İmtahan bitdikdən sonra namizədlər topladığı balı öyrənə biləcəklər.**

Qeyd edək ki, vakant yerlərin seçimi test imtahanı nəticəsində zəruri keçid balını toplamış namizədlər tərəfindən aparılacaq. Müsabiqədə iştirak etmək üçün müraciət edənlərdən 31.779 nəfərinin elektron ərizəsi təsdiq edilib. Hazırda respublikanın ümumtəhsil müəssisələrində olan 3346 vakansiya müsabiqəyə çıxarılıb. Müsabiqədə iştirak üçün müraciət edənlər arasında ibtidai sinif, Azərbaycan dili və ədəbiyyat, ingilis dili müəllimi olmaq istəyən namizədlər üstünlük təşkil edir.

# Uşaq bağçasında intihar

**Bakıda uşaq bağçasında intihar hadisəsi baş verib. "Report"un məlumatına, Nizami rayonunun R.Rüstəmov küçəsi ev 8 ünvanında yerləşən uşaq bağçasında Bakı şəhər sakini 1962-ci il təvəllüdlü Faiq Zeynalov özünü asaraq intihar edib.**

Qeyd edək ki, bu uşaq bağçası uzun müddətdir istifadə olunmur.

Faktla bağlı araşdırma aparılır.

# İrəvanda 40 polis əməkdaşı yaralanıb

**Küçə döyüşləri nəticəsində dünən İrəvanda 40 polis əməkdaşı yaralanıb. Virtualaz.org-un xüsusi müxbiri xəbər verir ki, Ermənistanın müxalif "Təsis məclisi"nin bir qrup fəalı İrəvanda polis idarəsinin binasını zəbt edib və bütün siyasi məhbusların azad olunmasını tələb edir.**

Bir neçə gündür ki, Ermənistanda siyasi gərginlik hökm sürür. Ermənistan hakimiyyəti baş verənləri terrorçuluq halı kimi səciyyələndirir, halbuki demokratik ictimaiyyət "Təsis məclisi"nin hərəkətlərini dəstəkləyir və müxalifətin liderlərindən biri Jirayr Səfilyanın və siyasi motivlər üzrə həbs edilmiş digər məhbusların azad olunmasını tələb edir.

Erməni hüquq müdafiəçilərinin məlumatlarına əsasən, son günlər ərzində ölkədə 300-dən çox siyasi fəal həbs olunub.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**




# Qarabağa dair petisiyadan yazan jurnalistlər mükafatlandırıldılar

**Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) "Ədalətin bərqərar olunması və böyük fəlakətin qarşısının alınması namine" adlı petisiya layihəsi ilə bağlı müsabiqənin qalibləri mükafatlandırılıblar.**

Müsabiqənin yekunlarına həsr edilmiş mərasim 1905.az portalının redaksiyasında keçirildi.

Tədbiri giriş sözü ilə portalın direktoru, siyasi elmlər üzrə fəlsəfə doktoru, əməkdar jurnalist Fuad Babayev açdı. Media mənsublarını Milli Mətbuat Günü münasibətilə təbrik edən natiq sözü AVCİYA-nın vitse-prezidenti Elçin Salmanova verdi. E.Salmanov AVCİYA prezidenti, millət vəkili Elxan Süleymanovun müəllifliyi ilə Ağ Ev administrasiyasına ünvanlanmış petisiyanın uğurlarından danışdı, petisiyaya 330 000 nəfərdən çox insanın səs verdiyini bir daha xatırlatdı.

Daha sonra Qarabağa dair petisiyadan yazan jurnalistlər mükafatlandırıldılar.

2 nominasiyada ("Qəzet, jurnal və elektron saytlarda çap olunmuş məqalələr, müsahibələr" və "Televiziya və radioda getmiş veriliş, süjet və ya reportajlar") müsabiqəyə 6 aprel 2016-cı ildən 31 may 2016-cı il tarixədək dərc olunmuş, nümayiş etdirilmiş və ya səsləndirilmiş məqalə, müsahibə, süjet, reportajlar təqdim olunub.

Leyla Məhərrəmova azadinform.az saytında dərc edilmiş "Ağ Evə ünvanlanan petisiya nə vəd edir?" yazısına görə I yerə, Elşad Məmmədli "Yeni Müsavat" qəzetindəki silsilə yazılarına görə II yerə layiq görülüblər. III yerə 2 nəfər - publika.az saytında dərc edilmiş "Qarabağla bağlı petisiyanın nail olduğu hədəflər-TƏHLİL" yazısına görə Asif Nərimanlı, vətəninfo.az saytında dərc edilmiş "Siyasi fəaliyyətlərin ümidsiz olduğu nöqtədə başlayır müharibə" yazısına görə Rəsmiyyə Rzalı-Qarayeva layiq görülüb.

Ələsgər Vəliyev İTV-nin "Həftənin yekunu" proqramında yayımlanmış süjetinə görə I yeri tutub. Ülviyyə Zülfüqar "ATV xəbər" və "Həftə sonu" proqramlarında yayımlanmış süjetlərinə görə II yerə layiq görülüb. III yeri "Lider" kanalından Günel Səfərli və Region TV-dən Leyla Abbasova bölüşüblər.

Bundan başqa, "Ədalətin bərqərar olunması və böyük fəlakətin qarşısının alınması namine" adlı petisiya layihəsi ilə bağlı media mənsubları üçün keçirilmiş müsabiqədə iştirakına görə Əli Zülfüqaroğlu ("Baymedia" İnformasiya Agentliyi), Fuad Hüseynzadə ("Palitra" qəzeti), Bəturə Nəbiyeva (SPACE), Fəridə Aşralova (CBC) xüsusi diploma layiq görüldülər.

AVCİYA-nın fəaliyyətinin işıqlandırılmasında əvəzsiz yardımına görə APA-ya xüsusi diplom verildi.

YENİ MÜSAVAT
N 158 (6479) 22 iyul 2016

# Bu gün Milli Mətbuat Günüdür

## Dünyada jurnalistdən niyə qorxurlar?

**Bu gün Azərbaycanda Milli Mətbuat Günü qeyd olunur. Jurnalistika nə qədər şərəfli və məsuliyyətli peşə olsa da, bir o qədər də təhlükəlidir. Təsadüfi deyil ki, dünyada ekstrimal peşələr arasında jurnalistika ilk pillələrdədir.**



Elə bir neçə gün öncə məşhur jurnalist Pavel Şeremetin Kiyevdə avtomobilinin partladılması nəticəsində həlak olması da jurnalistlərin nə dərəcədə təhlükədə olduğunu və cəmiyyətdə jurnalisti arzulamayan yetərincə qüvvələrin olduğunu göstərdi.

Təəssüflər olsun ki, bu sahədə Azərbaycan təcrübəsi də ürəkaçan deyil. "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovun, publisist Rafiq Tağının, jurnalist Rasim Əliyevin qətlini, onlarla jurnalistin döyülməsini nəzərə alsaq, Azərbaycan da jurnalistlər üçün təhlükəsiz ölkə sayılmaz. Dünyanın hər yerində media əhlinə məxsus şəxslərin öldürülməsi ilə bağlı faktlar var. Bəs görəsən, cəmiyyətdə hansı qüvvələr jurnalistdən qorxur və bu qorxunun səbəbi nədir?

**Azərbaycan Jurnalistlər Birliyinin sədri Elçin Şıxlı "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, jurnalistika dördüncü hakimiyyətdir, ona görə də ondan hamı ehtiyat edir, qorxur:** "Jurnalistika başqalarının görmədiyi və ya görmək istəmədiyi problemləri qaldırır, araşdırır, bir çox hallarda qadağan olunmuş mövzulara toxunur, bununla da bir çox adamların səhvlərinin, cinayətlərinin üstünü açır. Ona görə də jurnalistləri bir peşə sahibi kimi istəməyənlər çoxdur. Çalışırlar ki, jurnalistlər susdurulsun, söz azadlığı olmasın, həqiqətlər bilinməsin. Tarix boyu belə olub".

**Bir sıra hallarda jurnalistlərlə bağlı cinayət işlərinin hüquq-mühafizə orqanları tərəfindən gec açılmasının səbəbini E.Şıxlı belə izah etdi: "Səbəb odur ki, adətən jurnalistlərin öldürülməsi siyasi xarakter daşıyır, buna görə də cinayətlər açılmır. Çünki bir çox hallarda o cinayətlərin arxasında hakimiyyət başçıları, nüfuzlu insanlar dayanır".**

**Media ekspert Zeynal Məmmədli isə qeyd etdi ki, jurnalistlərin qətlinin səbəbləri bütün dünyada eynidir:** "Kimlərsə informasiyanın gizli qalmasında maraqlıdır. Bu, siyasi hakimiyyətin özü də ola bilər, ayrı-ayrı qüvvələr də. Onlar məlumatların açıqlanmamasında maraqlıdırlar. Həmin məlumatlar açıqlananda onların istər siyasi hakimiyyətinin, istərsə də iqtisadi gücünün sonu gələ bilər. Bu mənada dünyanın hər yerində jurnalistlərin öldürülməsi ilə bağlı cinayətlər fərqli olsa da, səbəblər eynidir. Başqa bir səbəb odur ki, hər hansı nüfuzlu jurnalistin ölümü ilə, xaricdənmi, daxildənmi hansısa qüvvələr cəmiyyətdə çaxnaşma yaratmaq istəyir. Burada məqsəd aydındır. Ancaq Azərbaycan təcrübəsinə baxanda istər Elmarla bağlı, istər Rafiq Tağı ilə bağlı qətldə hər iki versiya ola bilər. Yəni bu, cəmiyyətdə qarışıqlıq yaratmaq istəyən qüvvələrin işi də ola bilər, hakimiyyətdəki hansısa qüvvələrin sirrinin açılacağından qorxaraq buna getməsi də mümkündür. Ən təəccüblüsü odur ki, hadisənin bir neçə il əvvəl baş verməsinə baxmayaraq, cinayət işi hələ açılmayıb. Səbəb isə odur ki, burada maraqlı qüvvələr var".

❑ **Nərgiz LİFTİYEVA**

# 10 milyonluq xalqın taleyinə hökm verən Konstitusiya Məhkəməsi

## Bu qurum hakimiyyət üçün niyə önəmlidir; KM-in rəhbərliyində kimlər var...

**Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Referendum Aktı layihəsinin rəy verilməsi üçün Konstitusiya Məhkəməsinə təqdim edilməsi haqqında sərəncamından sonra bu qurumun önəmi müzakirə mövzusudur. 10 milyonluq xalqın taleyinin de-yure həm də bu məhkəmədən asılı olduğu düşüncələrdə hakimdir.**



Bu qurum 14 iyul 1998-ci ildə yaradılıb. Konstitusiya Məhkəməsinin fəaliyyətinin hüquqi əsaslarını Azərbaycan Respublikasının 12 noyabr 1995-ci ildə qəbul edilmiş Konstitusiyası (24 avqust 2002-ci il ümumxalq referendumu nəticəsində dəyişikliklər edilib), Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, 23 dekabr 2003-cü ildə qəbul olunmuş "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu, digər qanunlar və məhkəmənin daxili nizamnaməsi təşkil edir. Konstitusiyasının 130-cu maddəsinin 1-ci hissəsinə müvafiq olaraq, Konstitusiya Məhkəməsi 9 hakimdən ibarətdir. Sədr Fərhad Abdullayev, müavini Sona Salmanovadır. Digər 7 hakim isə Südabə Həsənova, Mahir Muradov, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, İsa Nəcəfov, Kamran Şəfiyevdir.

130-cu maddəyə görə, hakimlər prezidentin təqdimatı əsasında Milli Məclis tərəfindən təyin olunur. Konstitusiya Məhkəməsi öz səlahiyyətlərinin icrasına 7 hakim təyin olunduqda başlaya bilər. Hakimlər 15 il müddətinə təyin olunurlar. Səlahiyyət müddəti başa çatdıqdan sonra Konstitusiya Məhkəməsinin hakimi təkrar eyni vəzifəyə təyin edilə bilməz. Məhkəmənin sədri və sədr müavini dövlət başçısı tərəfindən təyin edilir. Konstitusiya Məhkəməsinin qərarları qətidir, ləğv edilə, dəyişdirilə və rəsmi təfsir oluna bilməz.

18 ildir fəaliyyət göstərən Konstitusiya Məhkəməsinin indiyə qədər iki sədri olub. 1998-2003-cü illərdə Xanlar Hacıyev quruma rəhbərlik edib. Prezidentin sərəncamı ilə onu əvəz edən Fərhad Abdullayev bu günə qədər rəhbərdir. Mövcud olduğu illər ərzində iki dəfə ölkəmizdə referendum keçirilib; 2002-ci ilin 24 avqust və 2009-cu ilin 18 mart tarixlərində. Qarşıdan gələn referendum isə üçüncü olacaq.

Referendumdan əlavə, Azərbaycanda keçirilən bütün seçkiləri sonda Konstitusiya Məhkəməsi təsdiqləyir. 10 milyonluq xalqın taleyinin həm də 9 hakimin bir qərarından asılı olduğu sadaladığımız amillərdə özünü açıq şəkildə sübut edir. Bütün bunlara görə Konstitusiya Məhkəməsi Azərbaycan hökuməti üçün vacib qurumlardan biri hesab olunur.

❑ **Cavanşir ABBASLI**




# Qafqaz Universitetinin sabiq rektoru vidalaşdı

## Universitetin yeni rektoru Elmar Qasımov Ahmet Saniç haqqında xoş sözlər deyib və ona təşəkkür edib

**Azərbaycanın ən qabaqcıl universitetlərindən biri olan Qafqaz Universiteti Bakı Ali Neft Məktəbinin rektorluğunun idarəçiliyi altına keçib. Qeyd edək ki, iyulun 21-də Qafqaz Universitetində təhvil-təslim işləri həyata keçirilib və Qafqaz Universitetinin rektoru Ahmet Saniç universitetlə vidalaşıb.**

Universitetin yeni rektoru Elmar Qasımov isə sələfi Ahmet Saniç haqqında xoş sözlər deyib və ona Qafqaz Universiteti üçün etdiklərinə görə təşəkkür edib. E. Qasımov Qafqaz Universitetində təhsil sisteminin əvvəlki qaydada saxlanılacağını bildirib: "Bütün ixtisaslar, abituriyentlərin qəbulu olduğu kimi qalacaq. Qafqaz Universiteti əvvəl necə fəaliyyət göstəribsə, bu gündən sonra da elə fəaliyyət göstərəcək. Sadəcə olaraq, Qafqaz Universiteti Bakı Ali Neft Məktəbinin rektorluğunun idarəçiliyi altında fəaliyyətini davam etdirəcək. Qafqaz Universiteti Bakı Ali Neft Məktəbinin rektorluğunun idarəçiliyi altında daha da inkişaf edəcək".E. Qasımov əlavə edib ki, tədris Qafqaz Universitetinin kampusunda davam etdiriləcək.

Sabiq rektor Ahmed Saniç kollektiv qarşısında çıxış edərək qarşıdakı fəaliyyətlərində onlara müvəffəqiyyətlər arzulayıb. Ahmet Saniç vurğulayıb ki, Qafqaz Universiteti bundan sonrakı mərhələlərdə daha da inkişaf edəcək.

**E.Qasımov tələbələrə də çağırış edərək bu universiteti seçmələrini istəyib. Rektor Qafqaz Universitetinin adının dəyişiləcəyi ilə bağlı yayılan xəbərlərə də aydınlıq gətirib. O, bu xəbərlərin doğru olmadığını və Qafqaz Universitetinin adının dəyişilməyəcəyini qeyd edib. E.Qasımovun sözlərinə görə, sadəcə, ali məktəb Bakı Ali Neft Məktəbinin İdarəçiliyi altında fəaliyyət göstərəcək:** "Bu il də Qafqaz Universitetinə tələbə qəbulu əvvəlki qaydada aparılacaq. Fürsətdən istifadə edərək Azərbaycanın bütün savadlı abituriyentlərini Qafqaz Universitetində təhsil almağa dəvət edirəm. Tələbələrin təhsili də Qafqaz Universitetinin kampusunda davam etdiriləcək. Universitetinin tələbə və müəllim kontingenti olduğu kimi qalır, sadəcə, universitet Bakı Ali Neft Məktəbinin idarəçiliyinə verilib və rektor olaraq həmin ali məktəbə rəhbərlik edəcəm".

**"XXI əsr" Təhsil Mərkəzinin rəhbəri, təhsil eksperti Etibar Əliyev dedi ki, Qafqaz Universiteti Azərbaycan ali təhsil sistemində özünəməxsus yer tutan ali məktəblərdən biridir. Ancaq bu universiteti keyfiyyətli təhsil verən ayrıca götürülmüş ada kimi də səciyyələndirmək olmaz:** "Bakı Ali Neft Məktəbi, ADA Universiteti, İqtisad Universiteti artıq rəqabət mühiti formalaşdıra biliblər. Bura Azərbaycan Neft və Sənaye Universitetini də daxil etmək olar. Bakı Ali Neft Məktəbinin yaşı az olsa da, böyük təhsil uğurlarına imza atıb. Bu ali məktəbə ən yüksək bal toplayan abituriyentlər daxil olur. Hesab edirəm ki, Qafqaz Universitetinin idarəçiliyinin bu ali məktəbə verilməsi təhsilin keyfiyyətinə də müsbət təsir göstərəcək".

❑ **Günel MANAFLI**

# Türkiyə səfiri brifinq keçirdi, hər şeyi açıqladı

## İsmayıl Alper Coşqun: "Çevriliş cəhdinin arxasında "Fətullahçı Terror Təşkilatı dayanır"; Diplomat Rusiya və İsraillə münasibətlərin də müsbət yöndə inkişaf etdirildiyini dedi

**Türkiyənin Azərbaycandakı səfiri İsmayıl Alper Coşqun iyulun 21-də səfirliyində mətbuat konfransı keçirdi. Səfir 15 iyulda yaşanan üzüntülü olaylarla əlaqədar Azərbaycanda sərgilənən həssas münasibətə görə minnətdarlıq etdi. "Azərbaycan Türkiyəyə hər hadisədə olduğu kimi 15 iyul hadisəsində də dəstək verdi, onun yanında oldu.**



Buna görə Azərbaycan xalqına, prezident İlham Əliyevə təşəkkür edirəm" - deyən böyükelçi bildirdi ki, Azərbaycanın tutduğu mövqe Ankaranı tamamilə qane edib: "Hər mübarizəmizdə olduğu kimi, FETÖ (Fətullahçı Terror Təşkilatı) ilə mübarizəmizdə də tərəddüdsüz yanımızda duran tək dostumuz Azərbaycandır. Türkiyədəki hər hadisədə olduğu kimi, son hərbi çevriliş cəhdi zamanı da Azərbaycandakı hər qardaşımızın bizim hiss etdiyimiz duyğuları paylaşdığını bilirəm. Bütün azərbaycanlı qardaşlarımıza 15 iyul gecəsindən bəri göstərdikləri həmrəylik üçün minnətdarlığımı bildirirəm".

Baş verən dəhşətli hadisələr barədə danışan **İ.A.Coşqun** bildirdi ki, 15 iyul gecəsi Türkiyənin yaxın tarixində ən kritik gecələrdən biri olub. Səfir çevriliş cəhdinin Türkiyə Silahlı Qüvvələrinin komandanlıq sistemi daxilində baş vermədiyini vurğuladı. Onun sözlərinə görə, bu, ordu tərkibindəki kiçik qrupun təşəbbüsü olub və onlar qanuna müvafiq şəkildə cəzalandırılacaqlar. Türkiyənin terrorla mübarizədə böyük təcrübəyə malik olduğunu vurğulayan diplomat həmin terror qruplarından birinin də FETÖ olduğunu bildirdi: "15 iyul çevriliş cəhdi bu terror təşkilatının indiyə qədər bildiyimiz terror fəaliyyətlərinin zirvəsini təşkil edir. Hazırda onların təmizlənməsi davam etdirilir. Bu qruplaşmanın təkcə Türkiyə daxilində deyil, həm də ölkə xaricindəki strukturlarına qarşı mübarizəmizi davam etdiririk". **Səfir dövlət çevrilişinə cəhd edən terrorçu qüvvələrin Türkiyə xalqının sərt müqaviməti ilə üzləşdiyini bildirdi:** "Xalq meydanlara axışaraq mövqeyini nümayiş etdirdi, siyasi partiyalar da dövlətin yanında oldu. O gecə Fətullahçı Terror Təşkilatı Ana Yasanı yıxmağa yönəlik cəhdlər göstərdi. Çevriliş cəhdi edənlərə qəhrəman Türk xalqının hansı şəkildə təpki verdiyini, insanların ölümü bahasına demokratiya və konstitusiyaya necə sahib çıxdığını hamılıqla gördük. Siyasi partiyalarımızın, sadə vətəndaşlarımızın, mətbuatın və vətəndaş cəmiyyəti təşkilatlarının nümayiş etdirdiyi mövqenin şahidi olduq. Türkiyədə demokratiya qələbə qazandı". **Səfir dedi ki, Türkiyə bu hadisələrdən güclənmiş çıxacaq:** "Türkiyə seçilmiş hökumətini və prezidentini, konstitusiyasını, demokratiyanı qorumaq üçün ayağa qalxdı və daha böyük fəlakətlərin yaşanmasına imkan vermədi. Artıq hər şey geridə qalıb. Başda Azərbaycan kimi Türkiyəyə gerçək mənada səmimi münasibət bəsləyən Türkiyənin bütün dostlarına içlərinin rahat olmasını söyləmək istəyirəm".

Diplomat bildirdi ki, 15 iyul hadisələri Türkiyə Silahlı Qüvvələrinə aid deyil, bunlar silahlı qüvvələrin daxilində təxribatçı bir qrupun işidir.

**İ.A.Coşqun Türkiyə Milli Təhlükəsizlik Şurasının iyulun 20-də keçirilən iclasında ölkədə 3 ay müddətinə fövqəladə vəziyyət rejiminin tətbiqi ilə bağlı tövsiyə verməsinə də toxundu. Bildirdi ki, bunun əsasında hökumət müvafiq qərar layihəsi hazırlayaraq parlamentə göndərib:** "Türkiyədə fövqəladə vəziyyətin tətbiqi terroristlərin təmizlənməsini tezləşdirəcək. Elan edilən fövqəladə vəziyyət fərdi azadlıqların məhdudlaşdırılması deyil". Səfir qeyd etdi ki, həyata keçirilən tədbirlər yerli və xarici vətəndaşların azadlıqlarını məhdudlaşdırmayacaq, onların səyahətlərinə manea törətməyəcək.

**İ.A.Coşqunun sözlərinə görə, dünyanın bəzi yerlərində, Qərb dövlətlərində Türkiyədə baş verənlərlə bağlı dezinformasiyalar yayılıb:** "Türkiyə bütün 80 milyon vətəndaşı, qanuni dövlət qurumları ilə dimdik ayaqdadır. Heç kimin bununla bağlı tərəddüdü olmasın. Türk Silahlı Qüvvələri tərkibindəki FETÖ-çu qrupun təşəbbüsü ilə gerçəkləşən çevriliş cəhdinə vətəndaşlarımızın necə təpki verdiyini gördünüz. Bu olaylardan sonra Türkiyənin zəifləyə biləcəyini düşünən düşmənlərimiz varsa, onları bir daha düşünməyə dəvət edirəm".

**Səfir bildirdi ki, hüquq çərçivəsində ölkə daxilində FETÖ-ya qarşı mübarizə davam edəcək.** "Lakin ölkə xaricində də təşkilatlanmağa və yayılmağa çalışırlar. Ona görə də bu istiqamətdə mübarizəmizi davam etdirəcəyik. Türkiyə Azərbaycanla hər mövzunu açıqlıqla danışır. Biz bu təcrübəmizi Azərbaycanla uyğun kanallarla paylaşmağa davam edirik"-deyə, səfir gülənçilərə qarşı mübarizədə iki ölkənin bir yerdə olduğunu xatırlatdı. Həmçinin əlavə etdi ki, Türkiyədə 15 iyul hadisələrini törədənlər ölkə daxilindən təmizlənir. Amma dediyinə görə, onlar xarici dövlətlərdə işlərini davam etdirməyə çalışırlar: "Türkiyəni təhdid edənlərlə bağlı Azərbaycanla danışıqlar aparırıq, məlumat mübadiləsi edirik. Türkiyə ilə Azərbaycanın münasibətləri yüksək səviyyədədir. Bu proses bundan sonra da davam edəcək".

**Səfir FETÖ-nün (Fətullahçı Terror Təşkilatı) rəhbəri Fətullah Gülənin ABŞ-da yaşadığını, onun Türkiyəyə ekstradisiya edilməsi ilə bağlı işlər aparıldığını bildirdi:** "15 iyul hadisələrini törədənlərin kimliyi ortadadır. 15 iyul hadisələrinin arxasında terror təşkilatı dayanır, bu, birmənalıdır. Bu terror təşkilatının da başında Fətullah Gülən dayanır. Burada ABŞ-ın mövqeyini gözləyirik. Dünyada terrorla birgə mübarizə aparılırsa, bu istiqamətdə Türkiyəyə dəstək verilməlidir. Hazırda bununla bağlı gözləntilərimiz böyükdür".

**"Yeni Müsavat"ın əməkdaşı Türkiyədəki hərbi çevrilişin arxasında ABŞ-ın dayandığı barədə fikirlərə, həmçinin Rusiya və İsraillə barışığın ardınca Ankara-Vaşinqton münasibətlərində gərginliklərin yaranacağı halda NATO daxilindəki əməkdaşlığın taleyinin necə olacağı ilə bağlı səfirin münasibətini soruşdu. Səfir bunları bildirdi:** "15 iyul hadisələrinin arxasında Fətullahçı Terror Təşkilatı dayanır, bu, birmənalıdır. Bu terror təşkilatının da başında Fətullah Gülən dayanır. Türkiyə dövləti bununla bağlı dösyanı ABŞ-a təqdim edib və ABŞ-ın mövqeyini gözləyirik. Bunun arxasında digər çevrələr var, ya yoxdur, mən hazırda bu barədə konkret fikir bildirə bilmərəm. Amma şübhəsiz ki, Türkiyənin Fətullah Gülənlə bağlı etdiyi müraciətə alacağı cavab önəmli olacaq. Sizin sualın qəti cavabını vermək mənimçün çox çətindir. Amma əgər səmimiyyət testi, terrorla mücadilədə obyektiv yanaşma testi sərgilənəcəksə, bu, ABŞ-ın ortaya qoyacağı mövqe ilə aydınlaşacaq. Biz şübhəsiz ki, buna baxacağıq". **Diplomat Türkiyənin böyük, vətəndaşların ortaya qoyduğu demokratiya mücadiləsi ilə çox güclü bir dövlət olduğunu qeyd etdi:** "Yaşadığımız çox ağır hadisələrdir. Bir addım geriyə çəkilib həmin olaylara baxdıqda, üzücü bir mənzərə görürük. O üzücü tablo ilə yanaşı Türkiyə Cümhuriyyətinin xalqı, qurumları, partiyaları, mediası ilə sərgilədiyi digər güclü bir mənzərə də var. Bunları eyni anda hamımız birlikdə yaşadıq. Bu nöqtədən başlayaraq mübarizəmizi hüquqi müstəvidə davam etdirəcəyik. Sayın baş nazirimizin vəzifə başına gəldiyi andan dediyi kimi, dostlarımızın, dostluqlarımızın sayını artırma anlayışı və hədəfi ilə davam edəcəyik. Həmçinin Rusiya ilə aramızda yaşanan təyyarə olayından sonrakı sıxıntılı olayların az öncə aradan qaldırılması çox önəmli inkişafa səhnə oldu, bu, gerçəkdir. Eyni zamanda İsraillə bənzər əlaqələrin inkişafına yönəlik qarşılıqlı addımlar atıldı. Biz Türkiyə Respublikası olaraq xarici siyasətimizdə səmimi münasibətlərimizi davam etdirməyə qərarlıyıq. Eyni şey dostumuz, müttəfiqimiz ABŞ-a da aiddir. Amma xüsusilə də Amerikadan gözləntimiz budur ki, gerçək mənada yanımızda olduğunu göstərmək üçün o dosyeyə qarşılıq versin". **A.Coşqun dedi ki, Türkiyə NATO-nun ən önəmli üzvlərindən biridir:** "Bir sıra spekulyasiyalar, şərhlər oldu. Mən illərlə NATO-da da çalışmışam. Bu kimi fikirlər son dərəcədə əsassızdır. Əgər Türkiyə hər hansı bir dartışmalar, dəyərləndirmələr mövzusu olacaqsa, demokratiyanı canı bahasına müdafiə etmiş ölkə kimi örnək göstərilməyə haqq edən bir ölkədir. Müzakirələr olacaqsa, NATO daxilində də bir sıra müttəfiqimiz var, onlarla bir çox məsələlərlə bağlı danışılacaq çox şeylər var. Bu gün danışılacaq yeganə mövzu isə 15 iyuldan sonra Türkiyənin demokratiyaya böyük başarı ilə sahib çıxması bir gerçəklikdir".

❑ **Elşad PAŞASOY**
**Foto: müəllifindir**





# Vəkillər Kollegiyasından daha bir vəkil çıxarıldı, ittihamlar başladı - qalmaqal

## Şəfiqə Nağıyevanın vəkillik fəaliyyəti dayandırıldı; "Ayıbdır, kişi bir qadınla mübarizə aparır, məni ləkələmək istəyir"

**Bu barədə "Qafqazinfo"ya Vəkillər Kollegiyasının Rəyasət Heyətinin üzvü İradə Cavadova məlumat verib. O bildirib ki, Şəfiqə Nağıyevanın fəaliyyəti ilə bağlı ötən gün Kollegiyada iclas keçirilib: "Qərara alındı ki, onun fəaliyyəti 6 ay müddətinə dayandırılsın. Haqqında olan iş materiallarının araşdırılması üçün Baş Prokurorluğa müraciət edildi. Buna səbəb isə müdafiə etdiyi şəxsdən külli miqdarda pul almasıdır.**

Bundan əlavə, Şəfiqə Nağıyeva Rəyasət Heyətinə hörmətsizlik edir, iclaslarda iştirak etmir və digər qaydaları pozur. Ona görə də onun vəkillik fəaliyyəti dayandırılıb".

"Vəkillər Kollegiyasının sədri Azər Tağıyevi məhkəməyə verəcəyəm". Bunu aznews.az-a vəkil Şəfiqə Nağıyeva Vəkillər Kollegiyasının onunla bağlı çıxardığı qərara münasibət bildirərkən deyib. Onun sözlərinə görə, Vəkilər Kollegiyasının sədri Azər Tağıyev 1990-cı ildən bəri onu kollegiyadan çıxarmaq istəyir: "Amma çıxara bilmir. Əvvəllər bir dəfə də mənim fəaliyyətimi dayandırıb. Bu adam məni həzm edə bilmir. Ona görə ki, mən vətəndaşlara kömək edirəm. Dəfələrlə ora-bura yazıb ki, Şəfiqəni efirə qoymayın. Ayıbdır, kişi bir qadınla mübarizə aparır. Məni ləkələmək istəyir. Bir günahım varsa, qanunla tənzimlənsin, daha fəaliyyətim niyə dayandırılır? Kollegiyada vəkil deyilən kəs qalmayıb. Aslan İsmayılov, Namizəd Səfərov, bir sözlə, Azərbaycanın bütün tanınmış vəkillərini kollegiyadan uzaqlaşdırıb. Bu adamın gözü heç kimi götürmür. Biz haqsızlıqlara dözə bilmirik. İstəyirlər ki, hamı Azər Tağıyevin qarşısında baş əysin. Əslində isə Vəkillər Kollegiyasında cinayətkarlar, məsuliyyətə cəlb olunmuşlar da işləyir. İndi ad çəkmirəm, amma lazım olsa onların adını açıqlayacağam".

**Ş.Nağıyeva qeyd edib ki, bu yaxınlarda vəkillərdən biri həbsxanaya telefon keçirərkən yaxalanıb, amma A.Tağıyev həmin adamı müdafiə edib:** "Niyə müdafiə edib? Özü də həmin vəkil İntizam Komissiyasının sədridir".

**Ş.Nağıyeva müdafiə etdiyi şəxsdən külli miqdarda pul alması və Rəyasət Heyətinə hörmətsizlik etməsi ilə bağlı ittihamlara da cavab verib:** "Mən işə çıxmıram, xəstəyəm. İşdə olmaya-olmaya məni müzakirəyə çıxarıb haqqımda qərar verirlər. Və mən bunu mətbuatdan eşidirəm. Qanun deyir ki, mən xəstəxanada ola-ola heç kim məni işdən ata bilməz. Mən insanlara yaxşılıqdan savayı heç nə etmirəm. Əvəzində isə şantaj eşidirəm. Bunu yalandan, məni nüfuzdan salmaq üçün edirlər".

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 158 (6479) 22 iyul 2016



# "Türkiyədə ölüm hökmünün bərpa ediləcəyinə inanmıram"

## Qardaş ölkədə yaşayan azərbaycanlı jurnalist buradakı son durumu "Yeni Müsavat"a dəyərləndirdi; **Kənan Rövşənoğlu:** "Meydanlar hələ də doludur..."

**Türkiyədə baş verən proseslər, 15 iyul qiyamından sonra xalqın hələ də meydanlarda olması dünyanın diqqətini neçə gündür bu ölkəyə yönəldib. Qardaş ölkədə fövqəladə vəziyyət elan edilib, hadisələrin hansı istiqamətdə inkişaf edəcəyini isə indidən müəyyən etmək o qədər də çətin deyil. Hazırda Türkiyədə vəziyyətin necə olması ilə bağlı bu ölkədə təhsil alan "Yeni Müsavat" qəzetinin yazarı Kənan Rövşənoğlu ilə son durumu dəyərləndirdik.**

***- Kənan bəy, Türkiyədə durum necədir, fövqəladə vəziyyət nəyi dəyişəcək?***

- Hazırda vəziyyət sakitdir. Ancaq hökumət hələ də xalqın səfərbərliyini davam etdirir, axşamlar mərkəzi meydanlarda aksiyalar olur. Vəziyyət tam normala dönməyib. Hələ də narahatlıq var. Çoxlu sayda insanlar aksiyalara gedir, dəstək verir. Türkiyə cəmiyyəti hazırkı hökumətə münasibətindən asılı olmayaraq, hərbi çevrilişləri yaşadığı üçün istəmir. Üstəlik, çevrilişin xaricdən idarə olunması ona etirazları daha da böyüdür.

***- Sizcə, bu hadisələrdən sonra Türkiyədən Avropaya gedən siyasi mühacirlərin sayı artacaqmı?***

- İnanmıram. Təbii ki, hazırda böyük sayda işini itirənlər ordusu var. Son məlumata görə, 50 min nəfərdən çox insan dövlət və ictimai qurumlarda işdən azad edilib. Həbs olunanlar da çoxdur. Yəqin ki, müəyyən zamanda gedənlər olacaq. Ancaq Türkiyə böyük ölkədir, son 50 ildə bu ölkədən minlərlə insan fərqli zamanlarda ölkəni tərk edib.

***- Təhlükəsizliklə bağlı vəziyyət necədir? Küçədə gəzərkən insanlar təhlükə hiss edirmi, narahatlıq varmı?***

- O sahədə ciddi bir problem yoxdur. Bir neçə gündür ki, metro və bələdiyyə avtobusları pulsuz xidmət göstərir. Şəhərdə sakitlik və normal mühit var. Yalnız ara-sıra gecələr güllə və atəş səsləri gəlir. O da bəzən polis əməliyyatları, bəzən də həyəcanlı əhalinin açdığı atəşlər ola bilər. Türkiyədə belə şeylər yayğındır. Amma insanlar üçün xüsusi bir təhlükə və narahatlıq yoxdur, polislər küçələrdə növbə çəkirlər.

***- Bakıda bir çox ailələr Türkiyədə ali məktəbə qəbul olan övladlarını oraya göndərməkdən imtina etdi. İstirahətə gedənlərdən də çoxu imtina edir. Türkiyə haqqında artıq təhlükəli ölkə imici formalaşır...***

- Məncə, bu barədə qərar vermək tezdir. Təbii ki, Türkiyədə bugünlərdə qarışıqlıqdır, istirahətə gedənlərin imtina etməsini başa düşmək olar, amma təhsil üçün hələ dərslər payızda başlayır, o zamana qədər hər şey qaydasına düşər. Yalnız dediyim kimi, qısa müddətdə, bugünlərdə narahatlıq var. Qarşıdakı dövrdə qaydasına düşəcək.

***- Türkiyədə bu hadisələri birbaşa izləyirsiniz. Bu gedişat sizə nə deyir? Yaxın gələcək üçün proqnozlarınız necədir?***

- Türkiyə ağır bir sürəcdən keçdi. Modern bir ölkədə hərbi çevriliş cəhdi oldu, istənilən halda ölkəyə böyük zərbə dəydi. Eyni zamanda bu mərhələ hələ başa çatmayıb, ölkə qarşıda ağır bir yenilənmə dövrü keçəcək. Bu isə elə də asan deyil. Türkiyədə yenidən çevriliş olması ən azı yaxın dövrdə mümkün deyil. Xalq bir növ iradəsini ortaya qoyaraq bu məsələdə öz sözünü dedi. Amma istənilən halda bu hadisələr Türkiyə cəmiyyəti üçün ağır bir imtahan, çətinlik dövrüdür. Dövlət, siyasi qüvvələr və xalqın bu prosesdən birgə çıxmaq imkanı var.

***- Siyasi partiyalar Ərdoğanı dəstəkləyirmi?***

- Siyasi partiyalar Ərdoğanı deyil, Türkiyə dövlətini və demokratiyanı dəstəkləyir. Türkiyədə hər kəs, xüsusən də yaşlı insanlar bir neçə hərbi çevriliş görüb, onun ağrı-acılarını yaşayıb. Bir daha çevriliş olmasını istəmirlər. Ona görə də hər kəs ilk gündən etiraz etdi.

***- Bəs cəmiyyət necə?***

- Meydanlar doludur və təbii ki, hər kəs Türkiyə dövləti və onun prezidentinə dəstək verir.

***- Baş verənlərdən dolayı narahatlıq varmı?***

-İnsanlarda müəyyən qədər ümumi narahatlıq var. Türkiyə kapitalist ölkəsidir, bu cür vəziyyət ölkə iqtisadiyyatını zəifledir, türk lirəsi ABŞ-da dünənki dollar qərarından sonra yenidən dəyərini itirdi. Bu da əhalinin ümumi vəziyyətinə, iqtisadiyyata, ticarətə və turizmə ciddi təsir edir və ümumi narahatlıq yaradır.

***- Türkiyə dini qurumu olan Dəyanət Vəqfi öldürülən qiyamçıların dəfnində dini qaydaların yerinə yetirilməyəcəyini, onlara camaat namazının qılınmayacağını açıqladı. Bu qərar cəmiyyətdə necə qarşılandı?***

- Diyanət bir mənada dövlət qurumudur, rəsmi dini idarədir. Bu qərarın özü birmənalı qarşılanmayıb, daha çox son hadisələrin təsiri altında emosional verilmiş qərardır. Tarixdə də belə addımlar olub. Amma bu, o demək deyil ki, o adamlar müsəlman kimi dəfn olunmayacaqlar. Türkiyədə çoxlu sayda rəsmi qurumlara tabe olmayan müstəqil din adamları var, onlar bu işi görəcəklər.

***- Bir də qiyamçılar üçün ayrıca qəbiristanlıq açılacağını və onların məhz orada dəfn olunacağını bildiriblər...***

- Qəbiristanlıq haqda mən bu gün bildim. Bu, amansız bir cəzadır. Yenə qeyd edim ki, müəyyən mənada son hadisələrdən doğan qəzəb və qisas hissinin təsiri ilə atılan addımdır. Türkiyədə böyük qisim insanlar düşünür ki, o qiyamda iştirak edib xalqa, dinc insanlara güllə atanlar vətən xainidirlər, ən ağır cəzalara layiqdirlər.

Amma Türkiyə müsəlman ölkəsidir, hər nə qədər nifrət və qəzəb güclü olsa da, qanunların və dəyərlərin də öz hökmü var. Zamanla hər şey sakitləşəndən sonra yəqin ki, bu məsələlər də müəyyən mənada axarına düşəcək.

***- Kənan bəy, bəs İslam dinində bu, necə əks olunur? Dövlət əleyhinə çıxan şəxslərin öldükdən sonra bu şəkildə cəzalandırılması doğrudurmu?***

- Mən, açığı, İslam dinində müsəlmanın törətdiyi cinayətdən və ya sağlığında etdiyi hansısa əməl səbəbilə, öldükdən sonra cəsədlərinin cəzalandırılması təcrübəsinə rast gəlməmişəm. İnsan öldükdən sonra artıq Allahın hüzurunda olur. Onun cəsədi qisas obyekti ola bilməz. Burada yenə deyirəm, dindən daha çox son hadisələrdən doğan ümumxalq qəzəbi və nifrəti rol oynayır. Amma zamanla sakitləşmə olacağını düşünürəm.

***- İddialar var ki, artıq bundan sonra Türkiyədə demokratiya təhlükədədir. Dövlətçilik naminə müəyyən demokratik dəyərlər qurban veriləbilər. Belə bir tendensiya varmı?***

- Zənn etmirəm. Hazırda dövlətdə böyük bir gizli təşkilatlanma təmizlənir. Dövlət üçün çətin də olsa, lazımlı addımdır.

***- Bir də edam cəzasının verilməsi ilə bağlı qanun qəbul edilməsi gündəmdədir. Sizcə, Türkiyə cəmiyyəti buna gedəcəkmi?***

- Birincisi, qanun geriyə tətbiq olunmur. Bu hüquqən mümkün deyil. Çağırışlar olsa belə, bunun qanunla qəbul ediləcəyinə inanmıram.

❑ **Nərgiz LİFTİYEVA**

# Rəsul Quliyevin qardaşının yasında iştirakı üçün müraciət hazırlanır

## Ayaz Mütəllimov və Rüstəm İbrahimbəyovla bağlı qərar ona da şamil ediləcəkmi; "Hakimiyyətin humanist mövqedən çıxış edəcəyinə ümidlərimiz var"

**Amerikada mühacir həyatı yaşayan sabiq spiker Rəsul Quliyevin qardaşı Sabir Quliyevin vəfat etməsi barədə xəbər vermişdik. Mərhum vəfat etdiyi gün dəfn olunub. Ağır itkidən sonra eks-spikerin qardaşının yasında iştirak etməsi üçün ölkəyə qayıdışına icazə verilib-verilməyəcəyi məsələsi müzakirə olunur.**

Buna səbəb də indiyə qədər Azərbaycan praktikasında belə hadisələrin kifayət qədər olmasıdır. Uzun müddət Rusiyada yaşayan eks-prezident Ayaz Mütəllibovun oğlunun ölümü ilə ölkəyə qayıdışına icazə verilməsi, ardınca onun Azərbaycanda qalması, eləcə də, bu ilin martında vəfat edən xalq yazıçısı Maqsud İbrahimbəyovun Rusiyada yaşayan qardaşı, Milli Şuranın fəxri prezidenti Rüstəm İbrahimbəyovun bu hüquqdan yararlanması 20 ildir Azərbaycana gələ bilməyən R.Quliyevin qarşısındakı maneələri önləyir.

İyulun 21-də mərhumun 3-7 mərasimləri verilib. Onun 40 mərasimi avqustun sonlarında keçiriləcək. Sabiq spikerin qardaşının 40-da iştirak etməsi mümkündür.

Bu yaxınlarda İnterpolun axtarış sistemindən adının çıxarılması da onun Azərbaycana gələ biləcəyinə olan inamı artırıb.



Milli Məclisin keçmiş rəhbəri qardaşının vəfatından sonra yas mərasimində iştirakla bağlı müvafiq orqanlara indiyə qədər müraciət etməsə də, qarşıdakı günlərdə bunun olacağı istisna edilmir. **Bu barədə "Yeni Müsavat"a danışan Rəsul Quliyevin Azərbaycandakı hüququ nümayəndəsi, Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu bunları dedi:** "Hər bir Azərbaycan vətəndaşı kimi Rəsul Quliyevin də qardaşının yas mərasimində iştirak etməsi onun müstəsna hüququdur. Bu hüquqdan istifadəyə təbii ki, cəhd olunacaq. Bu istiqamətdə Rəsul bəylə məsləhətləşmələr gedir. O, zəruri qərarı verdikdən sonra müraciət ediləcək. Onun yas məclisində iştirakı maneəsiz təşkil olunmalıdır. Eyni zamanda yas mərasimində iştirakının siyasiləşdirilməsinin əleyhinəyik. Bu baş tutsa, bir Azərbaycan vətəndaşının yaxının yas mərasiminə gəlməsi və getməsi çərçivəsində olacaq. Artıq ağsaqqallar, ziyalılar, kifayət qədər tanınmış şəxslər dövlət başçısına müraciət ünvanlamağa hazır olduqlarını bildiriblər. Amma bu istiqamətdə Rəsul bəy yekun qərarı qəbul etməyib. Ona qarşı açılmış cinayət işi hələ də qalmaqdadır. Siyasi iradənin ortaya qoyulması çox vacibdir. Təcrübəyə əsaslanıb, hökumətin müraciətimizə müsbət cavab verəcəyinə inanırıq. Hakimiyyətin humanist mövqedən çıxış edəcəyinə ümidlərimiz var".

**Quliyevin nümayəndəsi onun qardaşının yasında iştirak etmək istədiyini qeyd etdi:** "Bunu çox istəyir. Müraciət olacağı halda qeyri-siyasi olacaq. Gəliş də bu tərzdə nəzərdə tutulur. Bunun proqramını müəyyən etməyə çalışırıq. Bəzi şeylərə yaxın günlərdə cavab vermək mümkün olacaq. Yekun qərarımız mütləqdir. Hansı müvafiq orqana, yaxud şəxsə müraciət edilməsinin məqsədəuyğunluğunu analiz edirik. Gələn həftənin ilk günləri qərar qəbul ediləcək. Həmin qərarla hər kəsi tanış edəcəyik. Rəsul bəyin qardaşının qırx mərasiminə qatılmasına çalışırıq. Çünki 21 iyulda artıq 3-7 mərasimi birlikdə oldu. Avqustun 27-si qırx mərasimi olacaq. Nəticəsi olacaq qərar qəbul etmək istəyirik. Belə humanist addımların ölkəmizdə daha çox olmasını istəyirəm. Rəsul bəyin qardaşının 40 mərasimində ölkə başçısının bu günə qədər atdığı humanist addımı davam etdirəcəyinə ümid edirik".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 158 (6479) 22 iyul 2016

**Prezident İlham Əliyev Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında "Qızıl Şərq" hərbi şəhərciyində yerləşən bina və tikililərin, Hacı Zeynalabdin qəsəbəsindəki aerodromda yerləşən bir terminal binasının Türkiyə Silahlı Qüvvələri şəxsi heyətinin istifadəsi üçün ayrılması haqqında protokolun təsdiq edilməsi barədə fərman imzalayıb.**

Dövlət başçısı bununla bağlı 2016-cı il iyunun 3-də Bakı şəhərində imzalanmış protokolu təsdiqləyib. Müdafiə Nazirliyinə bu fərmanda göstərilən protokolun müddəalarının həyata keçirilməsini təmin etmək, Xarici İşlər Nazirliyinə protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə hökumətinə bildiriş göndərmək tapşırılıb.

**Bu barədə yayılan xəbərin ardınca ölkəmizdə qardaş ölkənin hərbi bazasının yaradılması istiqamətində illərdən bəri gözlənilən addıma start verildiyi barədə sosial şəbəkədə versiyalar irəli sürülməyə başladı. Lakin Müdafiə Nazirliyi Azərbaycanda Türkiyənin hərbi bazasının yaradılması haqda məlumatı təkzib edib.** "Azərbaycan ərazisində hər hansı bir ölkənin hərbi bazasının yaradılması barədə mətbuatda yayılan məlumatların heç bir əsası yoxdur və bu, həqiqətə uyğun deyil". Bunu bəzi kütləvi informasiya vasitələrində guya Azərbaycan ərazisində Türkiyə Silahlı Qüvvələrinin hərbi bazasının yaradılması barədə yayılan məlumatlara aydınlıq gətirən Azərbaycan Respublikası müdafiə nazirinin müavini - **Hərbi Hava Qüvvələrinin komandanı, general-leytenant Ramiz Tahirov** deyib. R.Tahirov bildirib ki, Hacı Zeynalabdin Tağıyev qəsəbəsindəki aerodromdan hələ 1999-cu ildən beynəlxalq sülhməramlı missiyada iştirak edən hərbi qulluqçularımızın Kosovo, İraq və Əfqanıstana yola salınması üçün istifadə edilir: "Burada yerləşən bir terminalda təyyarələrə texniki xidmət göstərən personal və pilotlar üçün istirahət otaqları nəzərdə tutulub. Qeyd edim ki, Azərbaycan sülhməramlılarının Əfqanıstana aparılması və oradan gətirilməsi Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus nəqliyyat təyyarələri ilə həyata keçirilir. Təyyarə aerodroma enməzdən 1 saat əvvəl Türkiyə hərbi attaşeliyi aparatının nümayəndəsi tərəfindən buradakı 2 otaq açılır. Təyyarə aerodromda olarkən ona texniki qulluq göstərilməsi, yanacaqla təchiz olunması və digər prosedurlar icra edilən zaman pilotların qısamüddətli istirahəti bu otaqlarda təmin edilir. Təyyarə yola düşdükdən sonra isə otaqlar bağlanır, Azərbaycan tərəfinə təhvil verilir, mühafizəyə götürülür və Türkiyə hərbi attaşeliyi aparatının nümayəndələri ərazini tərk edirlər".



# Türkiyə ordusuna Bakıda yer ayrılmasına reaksiyalar

## Hərbi baza, yoxsa Ermənistana cavab?

**Üzeyir Cəfərov: "Məsələni dramatikləşdirmək dövlətimizin ziyanına işləyə bilər"**

Üzeyir Cəfərov **"Yeni Müsavat"a açıqlamasında bildirdi ki, əslinə qalsa, Türkiyə Silahlı Qüvvələrinin Azərbaycanda mövcudluğu ölkəmizdə lap çoxdan, ötən əsrin 90-cı illərindən var idi:** "Bu, əsla heç kim üçün nə hərbi, nə də dövlət sirri deyildi və mövcudluq bu gün də davam edir. Qardaş ölkənin zabit və gizirləri, müxtəlif növ qoşun birləşmələrinin mütəxəssisləri Azərbaycan Silahlı Qüvvələrinin (SQ) təlimatçı və müşavirlər qismində xidmətlərini davam edirlər. Ölkə başçısının imzaladığı fərman da, sadəcə, Türkiyə SQ-nin ölkəmizdə bundan sonrakı mərhələlərdə fəaliyyət göstərəcəyi infrastrukturların və hərbi aerodromun onlar tərəfindən istifadə edilməsi qaydalarını müəyyən edir".

**Hərbi ekspert mətbuat orqanlarında bu fərmanın guya ölkəmizdə Türkiyənin hərbi bazası yaradılması kimi təqdim edilməsinin əleyhinə olduğunu bildirdi:** "Belə addımlarımızla biz dövlətimizi bir qədər çətin duruma salmış oluruq. Bu məqamdan isə bizi istəməyən qüvvələr, xüsusən də Ermənistan yararlanacaq. Çünki Qarabağ düyününün açılması istiqamətində müsbət hər hansı bir fikir səsləndirilən kimi, mütləq mənada bədnam qonşularımız bizə qarşı çox güclü informasiya müharibəsinə başlayırlar. Ona görə də nə Tağıyev qəsəbəsində, nə də digər ərazilərimizdə Türkiyə SQ-nin hər hansı bölmələrinin yerləşməsindən söhbət getmir. Burada onların yaşadıqları "Qızıl Şərq" hərbi şəhərciyinin bina və tikililərinin istismarı və gələcək fəaliyyəti ilə bağlı məsələlərdən söhbət gedir. Həm də hərbi baza sözünü dilə gətirən dostlar unutmamalıdırlar ki, Hərbi Doktrinamız və Milli Təhlükəsizlik Konsepsiyamızda hərbi baza və xarici ölkələrin hərbi qulluqçularının Azərbaycan ərazisində yerləşməsinin qadağan edən müddəalar mövcuddur. Məsələni dramatikləşdirilmək dövlətimizin ziyanına işləyə bilər. Bunu unutmayaq".

Qeyd edək ki, bu ərəfədə Rusiya Silahlı Qüvvələrinin Baş qərargahının baş əməliyyat idarəsinin vəzifələrindən ibarət nümayəndə heyəti Ermənistana gəlib. Virtualaz.org "Nezavisimaya qazeta"ya istinadən xəbər verir ki, səfərdə məqsəd Ermənistan-Rusiya birgə qoşun qruplaşmasının yaradılmasına dair yekun müzakirələr aparmaq və müvafiq sənədi imzalamaya hazırlamaqdır. Bu haqda Ermənistan Müdafiə Nazirliyinin mətbuat xidməti bildirir. Birgə qoşun qruplaşmasının komandanının kim olacağı artıq məlumdur-bu, Ermənistan ordusunun Türkiyə və Naxçıvanla sərhədə cavabdeh olan 4-cü korpusunun keçmiş komandanı, general-mayor Andranik Markaryandır.

Ermənistanla Rusiyanın birgə qoşun qruplaşmasını yaratmaqda məqsədinin nə olduğu barədə isə müxtəlif təxminlər var. Cəmi bir ay əvvəl Rusiyanın Ermənistanın hava məkanına nəzarət etməsini qanuniləşdirən sənəd erməni parlamentində ratifikasiya olunmuşdu. Bunun ardınca işğalçı ölkə ilə daha bir hərbi əməkdaşlığa qərar verilməsi suallar doğurur. İstisna olunmur ki, qoşun qruplaşması Ermənistan ordusunun 4-cü korpusunun və Rusiyanın Gümrüdəki 102-ci hərbi bazasının əsasında formalaşdırılacaq. 102-ci bazanın sərəncamında 3 motoatıcı polk, özüyeriyən artilleriya polku və tank batalyonu, habelə "Qrad" və "Smerç" reaktiv yaylım atəşi sistemləri ilə təchiz edilmiş diviziyonlar, kəşfiyyat batalyonu, digər yardımçı hərbi bölmələrin olduğu bildirilir. Bundan əlavə, Ermənistanda Rusiyanın S-300B sistemləri ilə təchiz edilmiş ələhiddə zent-raket diviziyonları, habelə bir neçə eskadrilya döyüş vertolyotları və qırıcıları var. Rusiyanın Ermənistandakı birləşmələrinin canlı qüvvəsinin sayı 4 min nəfərdən çoxdur. Belə olan təqdirdə Azərbaycanın Türkiyə ilə hərbi əməkdaşlıq sahəsində yeni mərhələ ilə bağlı qərar verməsi tam məntiqli olardı. Əgər həmsədr ölkə işğalçı ilə birgə hərbi əməkdaşlığın növbəti mərhələsi barədə qərar verirsə, ərazisi işğalda olan ölkənin də müttəfiq ölkələrlə təhlükəsizlik tədbiri görməsi normal haldır.

Rusiya Quru Qoşunlarının Baş qərargahının keçmiş qərargah rəisinin müavini, Qarabağ müharibəsinin iştirakçısı olan general Norat Ter-Qriqoryants "Nezavisimaya qazeta"ya şərhində deyir ki, birgə qoşun qruplaşmasının yaradılması "yaxşı qərardır". Çünki bu qruplaşma NATO-nun Rusiya sərhədləri yaxınlığında silah silkələməsinə və Qarabağ münaqişəsinin yenidən alovlanmasına imkan verməyəcək. Qeyd edək ki, Rusiya NATO-nun Şərqi Avropa və Baltik ölkələrinə hərbi qüvvələr yerləşdirmək planlarına qarşı cavab tədbirləri görəcəyini bəyan edib. Belə cavab tədbirlərindən biri Rusiyanın NATO ilə sərhədlərdə 3 yeni diviziya formalaşdırmasıdır. Həmin diviziyaların ikisi Qərb istiqamətində, biri isə Cənub Hərbi Dairəsində təşkil olunacaq. Cənub Hərbi Dairəsinə o cümlədən Ermənistandakı Rusiya qoşunları daxildir. Bu baxımdan ehtimal edilir ki, Rusiyanın Ermənistanla birgə qoşun qruplaşması yaratması birinci növbədə NATO üzvü olan Türkiyə ilə sərhədlərdə hərbi iştirakı gücləndirmək məqsədi güdür. Ancaq NATO ilə artıq Türkiyənin də müəyyən problemləri orataya çıxıb. Bu mənada atılan addımlar daha çox Ermənistanın müdafiəsinə xidmət edir və bu da Azərbaycana təhlükədir.

**Politoloq Elxan Şahinoğlu vurğuladı ki, Sərkisyan ölkəsini tamamən Rusiyadan asılı vəziyyətə salıb və indi də Rusiya ilə birgə qoşun qruplaşmasının yaradılmasına start verib. Əslində söhbət iki bərabərhüquqlu ordunun birləşməsindən getmir. Ermənistan ordusu Kremldən idarə olunacaq. E.Şahinoğlu qeyd etdi ki, bu, Kremlin Azərbaycana da xoş olmayan mesajıdır:** "Azərbaycan rəsmiləri dəfələrlə vurğulayıblar ki, Ermənistana hücum etmək kimi planı yoxdur, əsas hədəf Dağlıq Qarabağ və ətraf rayonların azad olunmasına nail olmaqdır. Bu torpaqları isə Kreml Azərbaycan torpaqları sayır. Buna baxmayaraq, Kreml Ermənistana hərbi dəstəyini artırır".

**Siyasi təhlilçi qeyd etdi ki, əslində Ermənistan batır və Kreml bu ölkəni xilas edə bilməyəcək:** "Bu ölkədə vətəndaşların da sayı getdikcə azalır, 6 ayda daha 20 min nəfər ölkəni birdəfəlik tərk edib. Belə getsə, Kreml Ermənistan ordusunu Rusiya vətəndaşlarından formalaşdıracaq. Rusya həm Ermənistanın yedizdirilməsinə, həm də onun qorunmasına xeyli maliyyə vəsaiti xərcləməlidir".

**Ekspert: "Rusiyanın son addımı Azərbaycanı da adekvat addımlar atmağa məcbur edir"**

**Ekspertin sözlərinə görə, Rusiyanın son addımı Azərbaycanı da adekvat addımlar atmağa məcbur edir:** "Bu baxımdan prezident İlham Əliyevin fərmanı ilə Azərbaycan ərazisində Türkiyə hərbi hissələri üçün yer ayrılması doğru qərardır. Düşünürəm ki, Rusiya Ermənistana hərbi dəstəyini artırmaqda davam etsə, Türkiyənin də Azərbaycanda hərbi bazası mövzusu aktuallaşa bilər. Əlbəttə, Türkiyədə bəzi hərbçilərin çevriliş etmək planları Azərbaycan hakimiyyətini və cəmiyyətini bir az ehtiyatlandırıb. Ancaq son hadisə göstərdi ki, Türkiyə ordusu ümumilikdə qanunlara tabedir və bu ordu xarici tərəfdaşlarıyla strateji müttəfiqliyə də sadiqdir. Bunu Azərbaycan və Türkiyə ordularının iki ildən çoxdur intensiv keçirdiyi hərbi təlimlər də göstərir".

**Politoloq Arzu Nağıyev bu fikirdədir ki, Türkiyə -Azərbaycan hərbi əməkdaşlığı müvafiq protokollara və əldə edilən razılıqlara uyğun olaraq davam etdirilir:** "Azərbaycan bu gün hərbi sahədə bir sıra dövlətlərlə əməkdaşlıq edir, bunun əsas istiqaməti də NATO standartlarına uyğun hərbi strategiyamızın qurulmasıdır. Burada həm hərbi təlimlərdən, həm də digər formada əməkdaşlıqdan söhbət gedir. Türkiyə ordusu ilə bizim əsas əlaqələrimiz də məhz Hərbi Hava Qüvvələri ilə bağlıdır. Dəfələrlə birgə təlimlər keçirilib, uçuşlar olub. Bu il istər Naxçıvan istiqamətində, istərsə də Türkiyədə belə təlimlər keçirilib. Düşünürəm ki, daimi dislokasiya üçün istər hava limanına, istərsə də idarəetmə üçün müəyyən qurumlara və onların da yerləşməsinə ehtiyac var. Buna görə də belə bir qərarların verilməsi gözlənilən idi və düşünürəm ki, bu həm də Azərbaycanın müstəqil siyasət yeritməsinin bir nümunəsi kimi qiymətləndirilməlidir".

❑ **E.PAŞASOY**

**Konstitusiyaya dəyişikliklərlə bağlı referendum layihəsində deputatların mandatının ləğv edilməsi halları ilə bağlı da dəyişikliklər yer alır. Əgər bu təkliflər referendumla qəbul edilsə, Konstitusiyanın 89 maddəsində deputatlıqdan məhrumetmə hallarına ikisi də əlavə oluna bilər.**



# Deputatlar mandatlarına olan təhlükədən danışdılar

## Yeni referendum aktına görə, deputatlar etik qaydaları pozduqları üçün mandatdan məhrum edilə bilər

Belə ki, hazırkı qanunvericiliyə görə, Azərbaycan Respublikası Milli Məclisinin deputatı aşağıdakı hallarda mandatdan məhrum edilir:

1) seçkilər zamanı səslərin düzgün hesablanmadığı aşkar olunduqda;

2) Azərbaycan Respublikası vətəndaşlığından çıxdıqda və ya başqa dövlətin vətəndaşlığını qəbul etdikdə;

3) cinayət törətdikdə və məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda;

4) dövlət orqanlarında vəzifə tutduqda, din xadimi olduqda, sahibkarlıq, kommersiya və başqa ödənişli fəaliyyətlə məşğul olduqda (elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla);

5) özü imtina etdikdə.

Referendum aktında isə qeyd edilir ki, 89-cu maddənin I hissəsinin birinci bəndinin 5-ci yarımbəndinin sonuna aşağıdakı məzmunda 6-cı və 7-ci yarımbəndlər əlavə edilsin:

6) bu Konstitusiyanın 93-cü maddəsinin III hissəsinin tələbini pozduqda; (yəni səsvermə hüququnu şəxsən həyata keçirmədikdə )

7) deputat üçün qanunla müəyyən edilmiş etik davranış qaydalarını kobud surətdə pozduqda.

Milli Məclisin deputatları isə referendum aktının bu maddəsini birmənalı qiymətləndirməyiblər.

**Deputat Çingiz Qənizadə mətbuata açıqlamasında deyib ki, bu konstitusiya dəyişikliyindən sonra səhlənkar və laqeyd deputatların vəzifələrinə xitam veriləcək:** "Yeni dəyişiklik daha çox işə can yandırmaq, iclaslarda və qərarların qəbul edilməsində aktiv iştirak etmə kimi məsələni tənzimləyəcək. Bizim bəzi deputatlar iclas və səsverməyə laqeyd yanaşırlar. Artıq bundan sonra onlar daha məsuliyyətli olacaqlar. 40 min seçici səni seçibsə, sənin də borcun səsvermədə, iclaslarda, qanunların qəbulunda iştirak etmək, öz masanın arxasındakı düyməni basmaqdır. Amma bu hüququ başqasına tapşırıb iclasda olmursansa, demək, bu ciddi məsuliyyətsizlikdir".

Milli Məclisin üzvü Fazil Mustafa isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, etik qaydaların pozulması ifadəsini konkretləşdirməyə ehtiyac var: "Milli Məclisə vaxtı-vaxtında gəlməyən, müəyyən qədər intizamsız olan deputatlarla bağlı müəyyən tədbirlərin görülməsi vacibdir. Ancaq burada etik qaydaların pozulması məsələsi spekulyasiyaya yol açan məsələdir. Kim müəyyən edəcək ki, deputat etik qaydanı pozur? Deputat əgər bir seçicinin hüququnu qorumaq üçün parlamentdə çıxış edirsə, yaxud kiminləsə mübahisə aparırsa, problemin həll olunmasına çalışırsa, buna dərhal etik qaydanın pozulması adını qoymaq, deputatı mandatdan məhrum etmək yolverilməz bir haldır. Dünyada belə bir praktika yoxdur. Deputat dövlət məmuru deyil ki, məmura qoyulan etik davranış qaydaları haqqında tələbləri deputata da qoyasan. Bu qanun deputatın danışmaması deməkdir. Yəni artıq bundan sonra heç kim hansısa fikir ifadə etməyəcək. Çünki istənilən fikri çoxluğun rəyi ilə etik qaydanın pozulması kimi elan edə bilərlər ki, niyə mübahisə etmisən. Burada konkret yazmaq lazımdır ki, əgər deputat parlament iclasında açıq söyüş söyürsə, etik baxımdan qəbul olunmayan fiziki hərəkətlərə yol verirsə, bunu İntizam Komissiyası vasitəsilə həll etmək olar. Ancaq deputatın mübahisə etməsini, ittihamlara, tənqidlərə cavab verməsini etik qaydanı pozmaq kimi qələmə verib mandatını ləğv etmək qəbuledilməzdir".

**Fazil Mustafa onu da qeyd etdi ki, deputatların onsuz da məhdud olan hüquqlarını bir qədər də azaltmaq doğru deyil:** "Referendum layihəsində gələcəyimizlə bağlı müəyyən məsələlər var, dövlətin təhlükəsizliyi ilə bağlı, xaricdə baş verən hadisələrin Azərbaycan gətirilməməsi üçün atılan bir sıra zəruri addımlar var. Bunlar normal qarşılanmalıdır. Ancaq deputatla bağlı tələbi qəbul etmək mümkün deyil. Onsuz da deputatın hüququ azdır. Deputat faktiki olaraq qanunvericilik təşəbbüsü ilə çıxış edə bilmir, bu qadağan olunub. Qadağan olunmasının səbəbi odur ki, normativ hüquqi aktlar qəbul edilərkən, hansısa deputatın layihə irəli sürməsi üçün mütləq ekspert rəyi lazımdır. Ekspert rəyini almaq üçün isə 10-20 min manat lazımdır, həmin layihənin qəbul olunub-olunmayacağı isə bəlli deyil. Demək istədiyim odur ki, deputatın onsuz da hüququ yoxdur. Etik qaydaları pozmağa görə mandatdan məhrum edilməsi isə ümumiyyətlə doğru yanaşma deyil. Bunları da konkretləşdirmək lazımdır ki, deputat parlament iclasında kiməsə fiziki zorakılıq tətbiq edirsə, bu mandatdan məhrum edilə bilər. Etik qayda anlayışı çox genişdir və onun yorumu mənfi tendensiya yarada bilər. Ona görə də, açığı, mən bu məsələdə fərqli mövqedəyəm və bunun qəbul edilməsini o qədər də faydalı hesab etmirəm".

**Milli Məclisin deputatı Vahid Əhmədov da mandatın ləğv olunması məsələsinə həssas yanaşmağın doğru olduğunu bildirdi:** "Ümumiyyətlə, bir neçə ildir ki, bəzi millət vəkilləri Milli Məclisin iclaslarında iştirak etmirlər, səsvermə zamanı müəyyən qədər problem yaradırlar. Bütün bunlar hamısı nəzərə alınır. Millət vəkilinin iş yeri Milli Məclisdir. Ona görə də işində intizamlı olmalıdır. Vaxtında işə gəlməlidir, kimsə digərinin yerinə səs verməməlidir. Bunlar dünyada qəbul olunmuş məsələdir. Ancaq deputatın üzürlü səbəbləri də ola bilər, məzuniyyətdə də ola bilər. Lakin mən bu məsələyə görə mandatın ləğv olunmasına müsbət baxmıram. Ola bilər ki, deputatın başına hansısa hadisə gəlsin və o iki gün iclasda iştirak edə bilməsin, xəbər vermək imkanı da olmasın. Bu hər kəsin başına gələ bilər. Bunun üçün mandatın ləğv olunması düzgün deyil. Gözləyirik ki, Konstitusiya Məhkəməsi buna rəy versin, görək nə rəy verəcək. Ondan sonra müəyyən məsələləri müzakirə edəcəyik".

❑ **Nərgiz LİFTİYEVA**

# Vitse-prezidentlik müzakirələri başladı

## İqbal Ağazadə: "Onun adının əvvəlcədən bəlli olması əhəmiyyətsizdir"

## Qabil Hüseynli: "Azərbaycan Amerika yolunu getmək istəyir"

**Dövlət başçısı İlham Əliyevin konstitusiyada dəyişikliklərin edilməsi üçün referendum keçirilməsi ilə bağlı imzaladığı sərəncam geniş müzakirələrə səbəb olub. Əsas maraq doğuran məsələ gələcəkdə vitse-prezident postunun yaradılmasıdır.**





Belə ki, konstitusiyadakı dəyişikliklərlə vitse-prezident postu yaradılacaq və qurumun rəhbəri ölkənin ikinci şəxsi olacaq. Bu isə baş nazirlik postunun taleyinin necə olacağını aktuallaşdırıb. Çünki referendumla vitse-prezidentlik postu yaradılarsa, avtomatik baş nazirin səlahiyyətlərinin əksəriyyəti bu quruma veriləcək. Bütün bunlardan əlavə, referendum aktında bir yox, bir neçə vitse-prezidentlik postunun yaradılması maddələrinin olması da geniş müzakirələr yaradıb.

**BAXCP sədri, deputat Qüdrət Həsənquliyev** teleqraf.com-a müsahibəsində bu məsələlərə toxunub. Partiya sədri vitse-prezidentin adının əvvəlcədən açıqlanması təklifini verib: "Çoxlu sayda vitse-prezidentlərin olması idarəçilik xərclərini artıracaq. Yaxşı olardı ki, seçkilər zamanı prezident birinci vitse-prezidentin kim olacağını açıqlasın. Yəni bilinsin ki, məsələn, sabah prezident öz səlahiyyətlərini yerinə yetirmədiyi təqdirdə onu əvəz edəcək şəxs kimdir. Başqa sözlə, prezidentliyə namizədliyi qeydə alınan şəxs sabah hansı vitse-prezidentlə işləyəcəyini elan etməlidir. Yeri gəlmişkən, Amerikada belə bir təcrübə var. İkincisi, birinci vitse-prezident varsa, baş nazir institutu ləğv edilməlidir. Çünki əlavə idarəetmə xərclərinin olmaması, habelə operativ idarəetməni təmin etmək məqsədilə bu addıma gedilə bilər".

Ümid Partiyasının sədri İqbal Ağazadə hesab edir ki, əvvəlcədən vitse-prezidentin adının məlum olmasının mənası yoxdur: "İdarətmə institutunun tərkibində bu post yaradılır. Onun adının əvvəlcədən bəlli olması əhəmiyyətsizdir. Çünki o, səsverməyə getmir və prezident tərəfindən təyin olunur. İsim prezidentə nə zamandan bəllidir, bu onun səlahiyyətidir. Təbii ki, təklif qəbul olunarsa. Azərbaycanda vitse-prezidentin adının əvvəlcədən açıqlanması üçün böyük islahatlar aparılmalıdır, paralel institutlar, eləcə də, baş nazirlik institutunun fəaliyyəti dayandırılmalıdır. Vitse-prezident postu yaradılsa, onun konstitusion səlahiyyətləri müəyyən olunmalıdır. Bu institut lazımdır, ya yox? Bu gün bu məsələ əsas müzakirə olunmalıdır. Həzrətqulu vitse-prezident olsun, bunun bizə heç bir aidiyyəti yoxdur. Çünki kim olsa, prezident tərəfindən təyin olunacaq. Baş nazirlik institutu ləğv oluna bilməz. Çünki referendum aktına salınmayıb. Yenə də bu post fəaliyyət göstərəcək".

**Keçmiş dövlət müşaviri, politoloq Qabil Hüseynli bildirdi ki, vitse-prezidentlər olan ölkələrdə şəxslər əvvəlcədən prezidentlə birlikdə müəyyənləşirlər:** "Bir qayda olaraq partiya üzrə müəyyən edilir. Amma bitərəf də ola bilər. Seçkilərə də bərabər şəkildə gedilir. Xalq hər iki postun namizədinə birlikdə səs verir. Prezidentliyə namizəd qalib gəlirsə, vitse-prezidentliyə iddiaçı da qalib gəlmiş sayılır. Ölkə rəhbərinin vitse-prezidenti təyin etməsin onun statusuna müəyyən qədər xələl gətirir. Çünki seçilmiş vitse-prezident daha səlahiyyətli, ümumxalq mandatını almış şəxs hesab olunur. Bu da işinin səmərəli olmasına rəvac verir. Həmin şəxsin hökumət üzvlərinə təsir etmək imkanları güclü olur. Dünyada formalaşmış təcrübə var. Dünyanın heç bir yerində-Amerikadan başqa- baş nazirlik postu ləğv olunmur. Görünür, Azərbaycan Amerika yolunu getmək istəyir. Vitse-prezidentlik postu ilə bir növ baş nazirliyi əvəzləmək istəyir. Amma əksər ölkələrdə vitse-prezidentlik postu yoxdur. Amma baş nazir postu var. Bəzi ölkələrdə bu şəxs icra hakimiyyətlərinin başında durur. Prezidentdən də az qala səlahiyyətli şəxs sayılır. Elə ölkələr də var ki, əksər dövlət qurumları Baş Nazirliyin tərkibində olur. Bu baxımdan, ölkədaxili inkişafın sorumlusu bu postun rəhbəri sayıldığı üçün o, ciddi məsuliyyət daşıyır. Düşünürəm ki, Azərbaycan kimi kiçik bir ölkədə baş nazir postuna gərək yoxdur. Onsuz da Nazirlər Kabineti Prezident Aparatının bir hissəsi sayılır. Vitse-prezident yolunda atılan addımlar hesab edirəm ki, bir eksperimentdir. ABŞ təcrübəsinin ölkəmizdə özünü necə doğruldacağını gələcəkdə görəcəyik. Amma hər halda, normal ölkələrdə belə sistem tətbiq edilmir. Bir vitse-prezidentin olmasının yetərli olduğunu düşünürəm. Vitse-prezidentlərin olmasına gərək yoxdur. Baş nazirin müavinləri vitse-prezidentlər olacaqlarsa, bu, dünya praktikasında görünməmiş hadisə olacaq. Politoloq, siyasi təcrübəsi olan bir şəxs kimi deyə bilərəm ki, dünya praktikasında belə təcrübə olmayıb".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 158 (6479) 22 iyul 2015



# Orda iki "Qarabağ dərdi" var

Zamin HACI
zaminhaci@gmail.com

**NASA hərdən hansısa planetdə su ələmətləri tapdığını açıqlayanda elə bil mənə od vururlar. Çox amansız təşkilatdır. Amerikanın oyunlarıdır, nə deyəsən? İstəmirlər bizi. Uğurlarımızı gözləri götürmür.**

Bax, elə dünən də xəbər lentində gördüm, Yerdən neçə işıq ilisə uzaqdakı planetdə su tapıblar. Qardaş, sən onu orda axtarana qədər biz Binəqədi sakinlərinə su tapa bilməzsənmi? 3 gündən çoxdur suyumuz gəlmir, "Azərsu"nun 955 nömrəli müştəri xidmətinə zəng vuranda isə adamla məzələnirlər. Öncə azı yarım saatın "Azərbaycan dili üçün 1-ə, rus dili üçün 2-yə basın" cümləsinə gedir. Bu xarabada dövlət dili Azərbaycan dilidirsə, dövlətin su idarəsi nə üçün rus dilinə basmağı istəyir, məlum deyil. Əgər bütün dillərə hörmət üçündürsə, o zaman suaxili dili də olsun. İçində su da var, üstəlik. "1-i basmaqla" da iş düzəlmir, robot dayanmadan təkrar edir: "Seçim etməmisiniz, seçim edin". Rəhmətliyin uşağı, bunu bilirik, seçkilərin bizsiz keçirildiyini, MSK-da saxta rəqəmlər çıxarıldığından xəbərimiz vardır, daha bunu niyə başımıza vurursunuz? Seçim etməmişiksə, bizə su düşmür?

Bu seçki dövrünü birtəhər keçəndən sonra nəhayət, müştəri xidmətində nəsə cırıldayır, xırıldayır və bir səs gəlir: "Bakının filan-filan-filan rayonlarında qəza olub, sutkada 24 saat su verilən ərazilərdə gündəlik su təchizatında müəyyən problemlər olacaqdır, üzr istəyirik-filan-beşməkan". Səs yazısıdır, bu da dayanmadan təkrar edir. Misal üçün, mən bir neçə sulu söyüş səsləndirdim, müştəri xidməti heç bir reaksiya vermədən üzr istəməyə davam edirdi.

Aşkar məzələnməkdir. Bizdə onsuz sutkada 1 saat su gəlirdi. 24 saat su alanların probleminin bizə nə dəxli? 24 saat su alanlar kimdir ümumiyyətlə? O xoşbəxt insanlarla tanış olmaq istərdim. Başqa planetin sakinləridir onlar.

Yaxşısı budur baxaq görək başqa ölkələrdə nələr olur. İqtisadçı ekspert Rövşən Ağayevin Gürcüstan haqda yazdıqlarını oxuyanda adamı ağlamaq tutur: "Gürcüstanın son 5 illik iqtisadi göstəricilərində yetərincə dinamik inkişaf var. Məsələn, ixracın həcmi 50%-dən çox artıb, ÜDM-nin adambaşına həcmi 2.5 min dollardan 3.2 min dollara yüksəlib. Müqayisə üçün, Azərbaycanda 2010-2015-ci illərdə qeyri-neft ixracı 2.1 milyard dollardan 1.6 milyard dollara, ÜDM-nin adambaşına həcmi 5.5 min dollardan 3.5 min dollaradək azalıb. Son 6 ildə lari cəmi 25% dəyər itirib. Gürcüstan hökumətinin 2015-ci il üçün büdcə hesabatında yazılır ki, 2012-ci ildə ölkədə tibbi sığortası olan 1.6 milyon əhali vardı, hazırda bütün ölkə əhalisi - təxminən 4.4 milyon nəfər sığorta sistemi ilə əhatə olunurlar.

Ölkədə azad seçki sistemi əsasında formalaşan yerli və regional hakimiyyətlər, çoxpartiyalı parlament var. Bir sözlə, bizdən çox sürətlə uzaqlaşırlar - amma təkcə ona görə yox ki, onlar çox sürətlə hərəkət edirlər. Həm də o səbəbdən ki, biz çox sürətlə geri gedirik. Nəticə etibarı ilə aradakı fərq sürətlə böyüyəcək". Sitatın sonu.

Mən Gürcüstan məsələsinə niyə xüsusi diqqət ayırıram? Yeri gəlmişkən, yuxarıda bu inkişafa ağladığımı yazdım, düşünürəm düz eləmədim. Bəlkə sevinc göz yaşlarıdır yazaq, çünki Gürcüstanın tərəqqisi bizim üçün də xoşdur. Qonşuda bir normal Avropa dövləti olsun barı. Üstəlik, nə qədər azərbaycanlı yaşayır orda. İndi diqqət məsələsini yazım. Söhbət ondadır ki, Azərbaycanda niyə filan demokratik işlər görülmür, niyə islahat olmur sualı veriləndə yapistlərin guya mütərəqqi hissəsi *(dəyənək yox, müvəqqəti də olsa mikrofonla danışanlar, çünki arqument bitəndə onlar da həmisı dəyənəyə, zorakılığa əl atırlar)* belə cılız arqument irəli sürürlər: "Bizim Qarabağ dərdimiz var, müharibə şəraitində yaşayırıq, elə şeylər var, elə islahatlar var onları həyata keçirmək üçün gərək biz ərazi bütövlüyümüzü bərpa edək, 1 milyon qaçqın ev-eşiyinə qayıtsın" və sairə.

Bax, sizin üzərindən repressiya yapdığınız bu durumdan Gürcüstanda da var. Hətta onların "Qarabağ dərdi" düz 2 dənədir: Abxaziya və Cənubi Osetiya problemləri. Rusiya bu əraziləri müstəqil dövlət kimi tanıyaraq Gürcüstanın dövlət müstəqilliyini tapdalayıb, ərazi bütövlüyünü pozub. Qaçqın sayı da əhali nisbətində götürsək, Gürcüstanda daha çoxdur: 500 min nəfər. *(Bizim "1 milyon qaçqın" əfsanəsi yapistlərin uydurmasıdır. Bütün məcburi köçkün və qaçqınlarımız bir yerdə 750 min nəfərdən çox eləmirdi).*

İndi özünüz düşünün, Gürcüstan bu cür "Qarabağ dərdləri" ilə necə islahat aparıb? Saakaşvili hakimiyyətə gələnə qədər hansı kökdə idi?

Bəlkə daha dərinə getsək, Gürcüstanda reformatoru hakimiyyətə gətirən adam SSRİ-nin perestroyka lideri olmuşdu...

# Ərdoğan-Putin görüşü: saatlar Ankara vaxtına qurulur

**Rusiya və Türkiyə prezidentlərinin görüş tarixi bəlli oldu. Kremlin mətbuat katibi Dmitri Peskov prezidentlər Rəcəb Tayyib Ərdoğan və Vladimir Putinin avqustun birinci on günlüyündə Rusiya şəhərlərinin birində görüşəcəyini bildirib. Görüşdə əsas müzakirə mövzuları ikitərəfli münasibətlər, regional məsələlər, terrorla mübarizə olacaq.**




# Türkiyə və Rusiya inqilabi yaxınlaşma ərəfəsində - Bakı da uduşda

"Kartlar" təzədən paylanır: Moskva-Ankara münasibətləri "Su-24" insidentinədək olan səviyyədən də yüksəyə qalxa, 15 iyul qiyamı regionun təzədən şəkillənməsinə təkan verə bilər; **rusiyalı hərbi ekspert:** "Türkiyə ABŞ-dan uzaqlaşacaq, NATO-dan çıxmasa belə, onun formal üzvünə çevriləcək..."

Qarşıdakı görüşlə bağlı gözlənti iki mühüm özəlliyinə görə region və dünya üçün xüsusi önəm kəsb edir. Bunlardan biri odur ki, Ərdoğanla Putin ötən il noyabrın 24-də baş vermiş "Su 24" insidentindən, münasibətlər qaydaya düşdükdən sonra ilk dəfə bir araya gələcəklər.

İkincisi isə görüş 15 iyul dövlət çevrilişinə cəhd səbəbindən Türkiyə-ABŞ münasibətlərinin əhəmiyyətli şəkildə soyuduğu dönəmə təsadüf eləməsi ilə diqqətdə olacaq. Yerli və xarici siyasi şərhçilər qarşıdakı görüşün mümkün nəticələrinə ilk növbədə bu prizmadan yanaşmağa başlayıblar.

***

**Rusiyalı tanınmış hərbi ekspert, Moskvadakı Plexanov adına İqtisadiyyat Universitetinin Sosiologiya və Politologiya kafedrasının dosenti Aleksandr Perenciyev Ərdoğan-Putin görüşü və onun gözlənilən nəticələrini rusdilli vest.az saytına şərh edib. Onun fikrincə, Ərdoğan hazırda öz ölkəsi ətrafında tamamən başqa bir siyasi konfiqurasiya qurur.** "Bu, məhz həmin məqamdır ki, Ankara Moskva ilə ciddi yaxınlaşmaya gedə bilər" - politoloq güman edir.

**Ekspert deyib:** "İki ölkə arasında münasibətlər hətta Rusiya təyyarəsi vurulanadək olandan da yüksək səviyyəyə qalxa bilər. Baxmayaraq ki, bu, bizim üçün çox xoşagəlməz bir insident oldu, amma indi Türkiyə ilə münasibətlərimiz yüksəliş dövrünü yaşayır - məlum təyyarə insidenti bir növ münasibətlərin möhkəmləyinin sınağı oldu. Biz əlbəttə ki, sonsuza kimi türkləri günahlandıra bilərik ki, onlar bizim pilotumuzu vurublar və haqlı da olarıq. Ancaq əgər Türkiyə bizə kömək eləməyə və bir çox məsələlər üzrə müttəfiq olmağa hazırdısa, niyə də olmasın?"

**Analitikin sözlərinə görə, Türkiyənin mövqeyi istənilən halda Rusiyanın pozitivinə işləyir:** "Ona görə ki, bizim türkdilli Qazaxıstan, Qırğızıstan kimi türkdilli ölkələrin daxil olduğu KTMT adlı təşkilatımız var, postsovet məkanında Özbəkistan və Türkmənistanla əlaqələr qururuq, bizim ölkə daxilində çoxlu türkdilli xalqlar var. Sadalananların hamısı Türkiyə ilə münasibətlərin inkişafına yardımçı olacaq".

**Ekspert əminlik ifadə edib ki, Moskvanın Ankara ilə münasibətlərinin daha da yaxşılaşması Azərbaycana və bütövlükdə Dağlıq Qarabağ ətrafındakı situasiyaya da müsbət təsir edəcək.** «Söhbət əlbəttə ki, Qarabağa dair Bakını qane edən optimal həll variantının tapılmasından gedir. Üstəgəl, Türkiyədən Qərbə qarşı düzəndə istifadə eləmək olar" - Perenciyev hesab edir.

"Hazırda çox maraqlı bir layihə qurulmaqdadır - İran, Rusiya, Türkiyə. Üstəlik, İran Şanxay Əməkdaşlıq Təşkilatına üzv olmağa hazırlaşır *(indi müşahidəçi statusundadır-red.)* Gələcəkdə Türkiyənin də müşahidəçi statusda üzvlüyünə baxıla bilər. Aydındır ki, bütün bunlar Çinlə razılaşdırılmalıdır. Ancaq əgər belə bir şey baş versə, o zaman hamı görəcək ki, Türkiyə Qərbə qarşı getməsə də, başqa yolla gedəcək" - təhlilçi ardınca vurğulayıb.

**Rusiyalı hərbi analitikin qənaətincə, Moskva ilə Ankara arasında münasibətlərin yaxşılaşması tərəflər üçün böyük imkanlar aça bilər:** "Rusiya diplomatiyası bundan istifadə eləməyə çalışacaq. Əlbəttə ki, bizim münasibətlərdə problemlər olub və var. Ancaq düşünürəm ki, hamı onların üstündən adlamalıdır. Elə eləmək lazımdır ki, Türkiyə Rusiyanın müttəfiqi olmasa da, onun etibarlı tərəfdaşı olsun. Bu, çox yaxşı olardı. Əminəm ki, avqustun əvvəllərində aparılacaq danışıqlar məhz həmin tərəfdaş əlaqələrin qurulmasına yönələcək. Fikrimcə, Türkiyə Birləşmiş Ştatlardan uzaqlaşmağa başlayacaq. Türklər NATO-dan çıxmasalar da, Alyansın formal üzvü olacaqlar".

***

Qeyd edək ki, bir sıra digər ekspertlər də hesab edir ki, Türkiyədəki hərbi çevrilişdə "Amerika izi"nin üzə çıxması Ankara və Moskvanın daha da yaxınlaşması, hətta yeni hərbi müttəfiqlik yaratması üçün unikal imkan açıb və bu imkan Bakının da xeyrinə işləyə bilər. O sırada Rusiyalı tanınmış tarixçi-analitik, Oleq Kuznetsov bildirib ki, Türkiyə üçün indi əsas oriyentir Rusiya olacaq, ABŞ yox. Onun ehtimalına görə, regionda hətta Moskva-Ankara-Bakı təhlükəsizlik üçbucağı formalaşa bilər. Ekspertə görə, Türkiyədə baş tutmamış dövlət çevrilişi cəhdindən sonra hamı tarixi bir eranın astanasındadır.

Bunun nə dərəcədə real olduğunu isə yəqin ki, avqustda baş tutacaq Ərdoğan-Putin görüşündən sonra biləcəyik. Bu görüşün aparıcı siyasi fiquru sözsüz ki, Ərdoğan olacaq. Saatlar tədricən Ankara vaxtına qurulur...

❑ **Siyasət şöbəsi**



# NATO-nun baş katibi: "Türkiyə alyansın güclü üzvü olaraq qalacaq"

**Türkiyənin NATO-nun tərkibində qalıb-qalmaması məsələsi gündəmdə deyil". Bunu «Reuters» agentliyinə müsahibəsində NATO-nun baş katibi Yens Stoltenberq bəyan edib.**

"Türkiyə qüdrətli orduya, peşəkar silahlı qüvvələrə malikdir. Əminəm ki, Türkiyə NATO-nun sadiq və güclü tərəfdaşı olmaqda davam edəcək. Eyni zamanda güman edirəm ki, rəsmi Ankaranın çevrilişlə bağlı atdığı addımlar mütənasib və NATO dəyərlərinə cavab verəcək" deyə, Y.Stoltenberq vurğulayıb.

Onun sözlərinə görə, Türkiyənin Alyans tərkibində qalıb-qalmaması məsələsi gündəmdə deyil. "Türkiyə NATO-nun tərəfdaşı olmaqda davam edir. Bu çox vacibdir. Çünki bu ölkə İraq və Suriya kimi "qaynar nöqtələrin" sərhədində yerləşir",-deyə baş katib əlavə edib.

YENİ MÜSAVAT
N 158 (6479) 22 iyul 2016

# Qarabağın Azərbaycanlı İcmasının rəhbəri Sərkisyana çıxış yolu göstərdi

**Bayram Səfərov:** "Ən yaxşı yolu budur ki, öz alnının ortasından bir güllə vursun"; ölkəsinə nəzarəti itirən Ermənistan prezidentinin işğal altındakı Dağlıq Qarabağa davamlı səfərlər etməsinin səbəbləri barədə fərqli fikirlər var...

**Ötən həftədən başlayaraq işğalçı ölkənin paytaxtı İrəvanda polis postunun ələ keçirilməsi və yüksək rütbəli polislərin girov götürülməsi ilə bağlı yaranan gərginlik davam edir. İyulun 21-də Ermənistan hüquq-mühafizə orqanları silahlıların zəbt etdiyi polis şöbəsi yaxınlığında keçirilən etiraz aksiyasını dağıdıb.**

Virtualaz.org-un xüsusi müxbiri xəbər verir ki, səhər tezdən saat 04-ə yaxın - nümayişçilərin sayının azaldığı vaxt polis Xorenatsi küçəsini onlardan təmizləməyə başlayıb. Polis əvvəlcə nümayişçilərə dağılmaq üçün 15 dəqiqə vaxt verib, lakin bu tələbə əməl olunmadığından onları sıxışdırmağa başlayıb. Cəmi bir neçə dəqiqədən sonra küçə boşaldılıb. Onlarla adam, o cümlədən müxalif "Vətəndaş müqaviləsi" partiyasından deputat Nikola Paşinyan təzyiqlərə məruz qalıb. Tiqran Metsa prospektində və Nar-Dosa küçəsindəki nümayişçilər də təzyiqə məruz qalıblar.

Aksiya dağıdılarkən 30-dək etirazçı saxlanılıb. Ermənistan Səhiyyə Nazirliyinin mətbuat katibi Anait Aytayan bildirib ki, son məlumata görə, gecə İrəvanda polislə etirazçılar arasında baş verən toqquşmalar nəticəsində 28-i polis əməkdaşı olmaqla, 51 nəfər xəsarət alıb. Bundan əvvəl isə etiraz aksiyası iştirakçıları ilə polis arasında toqquşmalar olmuşdu. Polis mitinq iştirakçılarına qarşı səs və tüstü qumbaralarından istifadə etmişdi.

İyulun 17-də İrəvanda polis binasını ələ keçirən, Ermənistan polis rəisinin müavini Vardan Yeqizaryan və İrəvan polis rəisinin müavini Valeri Osipyan daxil beş nəfəri girov saxlayan bir qrup silahlı şəxslə danışıqlar isə nəticə vermir. Qeyd edək ki, bina ələ keçirildiyi zaman 1 polis əməkdaşı öldürülüb, 3-ü yaralanıb. Sonradan xüsusi təyinatlıların əməliyyatı nəticəsində iki girov azad olunub. Basqınçılar qanunsuz silah saxlamaqda ittiham edilərək həbs edilən "Şuşa" batalyonunun komandiri, keçmiş səhra komandiri, radikal müxalifətçi Jirayr Sefilyanın azad edilməsini tələb edir.

***

Qeyd edək ki, Ermənistanda və Dağlıq Qarabağ ermənilələri arasında vəziyyətdən narazılıq ən yüksək həddə çatıb. Modern.az Ermənistan KİV-nə istinadən xəbər verir ki, yerli telekanalın yaydığı görüntülərdə "Berdzor" kimi təqdim olunan Laçının acınacaqlı vəziyyətdə olması, 24 illik işğal dövründə əsaslı infrastrukturun yaradılmamasından danışılır. İşğal alıtndakı ərazilərə köçürülən erməni sakinlər istirahət məkanını olmaması, 1992-ci ilin mayında işğal zamanı yandırılan Laçın Mədəniyyət Evinin hələ də təmir olunmamasından və işsizlikdən gileyləniblər. Ağır durumda yaşamağa məhkum edilən sadə ermənilər şübhəsiz ki, normal həyata başlamaq üçün Azərbaycana qarşı təcavüzə son qoyulmasını istərdilər. Lakin Qarabağdakı cinayətlər üzərində hakimiyyəti qəsb etmiş Sərkisyan rejimi və Dağlıq Qarabağın separatçı rəhbərliyi bu mövqedə olanlara qarşı amansız olduğu üçün sağlam yanaşmaların ortaya qoyulması da mümkünsüzdür.

Təsadüfi deyil ki, bir müddət öncə S.Sərkisyan "Bütün dünya bir olsa, Dağlıq Qarabağ əhalisini Azərbaycanın tərkibində yaşamağa məcbur edə bilməz" - deyə, Qarabağ ermənilərinin əvəzindən ortaya mövqe qoymuşdu. Erməni prezidentin iddiasına görə, "Yalnız Qarabağ sakinləri onun yekun statusunu müəyyənləşdirməlidirlər - ayrıca dövlət olmaq, yaxud Ermənistan Respublikasına birləşmək".

Sözsüz ki, Azərbaycan dövlətinin mövqeyi qətidir və Sərkisyanın sayıqlamaları yalnız ermənilərin durumunu ağırlaşdırmağa, aprel müharibəsindən sonra intensivləşən danışıqlar prosesinə zərbə vurmaqla növbəti itkilərə rəvac verməyə rəvac verir. Prezident İlham Əliyev birmənalı şəkildə deyib ki, "Dağlıq Qarabağ heç vaxt müstəqillik əldə etməyəcək. Biz Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcəyik. Problem yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll oluna bilər".

Bugünlərdə S.Sərkisyanın növbəti dəfə Qarabağda görünməsi isə ortaya yeni suallar çıxarıb. Erməni prezident bu dəfə işğal altındakı Azərbaycan torpalarına Rusiyanın vasitəçiliyi ilə başlanan danışıqlarda S.Lavrovun dediyi kimi, "tərəflərin razılaşmaya heç zaman olmadığı qədər yaxın olduqları" ərəfədə gəlib. Üstəlik, Ermənistanda Qarabağ müharibəsi veteranlarının həbsi ətrafında baş verənlər S.Sərkisyanın ən azı Moskvanın iradəsi qarşısında geri çəkildiyi və Qarabağ separatçıları ilə güzəşt mövzusunda müzakirələr aparmaq niyyətində olduğu versiyasını irəli sürməyə imkan verir. Hətta iddialar var ki, Ermənistan prezidenti Dağlıq Qarabağın ətrafındakı bəzi ərazilərin qaytarılması ilə bağlı xalqa müraciət etməyə hazırlaşır. Belə bir iddia barədə Ermənistanın "Joxovurd" qəzeti də yazıb. Qəzet qeyd edir ki, Qarabağ münaqişəsinin nizama salınması ətrafında gizli və sürətli proseslər gedir. **"Ermənistan və Azərbaycan mediasında Vladimir Putinin münaqişənin həllini birbaşa nəzarətə götürməsi haqda məlumatlar yazırlar. Gözləntilərə görə, yaxın günlərdə aktiv danışıqlar başlanacaq. Məlumatlar var ki, Serj Sərkisyan Dağlıq Qarabağa da buna görə səfər edib və ərazilərin qaytarılması məsələsini müzakirə edir"** - erməni qəzeti belə yazıb.

Dağlıq Qarabağa səfəri zamanı Serj Sərkisyan separatçıların nümayəndələri ilə qapalı görüş keçirib. Görüş iştirakçılarının sözlərinə görə, ərazilərin Azərbaycana qaytarılmasına aid mövqeləri öyrənib. AzadlıqRadiosunun erməni redaksiyasının bu barədə yaydığı məlumata əsasən, görüşdə Dağlıq Qarabağ separatçılarının lideri Bako Saakyan iştirak edib. "Qarabağ hərəkatı"nın iştirakçısı Razmik Petrosyanın sözlərinə görə, Serj Sərkisyan bildirib ki, Ermənistan tərəfinə Qarabağa bitişik torpaqları qaytarmaq təklif olunmasa da, o, yenə də insanların buna münasibətini öyrənib. **"O, hər bir iştirakçının fikrini öyrənib, 90 % bildirdi ki, ərazilərin qaytarılmasına qarşıdır",** - Petrosyan deyib. Yaxın zamanlarda Sərkisyan Qarabağda daha bir görüş keçirəcək, lakin bu görüşün dəqiq tarixi məlum deyil.

Ancaq o da istisna deyil ki, S.Sərkisyan "xalqın etirazını", xüsusilə də "Qarabağ ermənilərinin güzəştsiz mövqeyini" əsas gətirərək növbəti danışıqlar masası ətrafında ortaya barışmaz mövqe qoysun. Yəni əvvəla, Sərkisyan "dünya bir olsa, Dağlıq Qarabağ əhalisini Azərbaycanın tərkibində yaşamağa məcbur edə bilməz" deməklə həm sadə ermənilərə "pas" verir, həm də beynəlxalq aləmə, xüsusilə də danışıqlara yeni dinamika verən Rusiyaya özünün güzəştlərə hazır olduğunu, ancaq Qarabağ ermənilərinin buna "yox" dediyini çatdırmaqla Kremlin qəzəbindən qorunmağa çalışır. Çünki fakt budur ki, aprel döyüşlərindən sonra atəşkəsə nail olmaqla danışıqlarda əsas rol oynayan Putinin növbəti təşəbbüsünün fiaskoya uğraması Rusiyanın "sülhpərvər" imicinə ciddi şəkildə zərbə olar və bunun qarşılığında Sərkisyanı sərt cəza gözləyir. O mənada erməni prezidentin Qarabağa gəlməsi, görüşlər keçirməsi, İrəvanda güzəştlərə qarşı olan Şuşa batalyonunun komandirinin həbsinə etiraz aksiyalarının keçirilməsi arasında əlaqələr olmamış deyil. Prezidentliyinin sonuncu il yarımını da status-kvonun saxlanması şəraitində başa vurmağa çalışan S.Sərkisyan çoxgedişli kombinasiyalar qurmaqla hakimiyyətinin ömrünü uzatmaq istəyir. Ancaq Ermənistanda baş verənlərin ardınca o, öz istəyinə nə dərəcədə nail olacaq, demək çətindir.

Hətta bu arada erməni siyasətçi Paruyr Ayrikyan Sərkisyanın istefa verəcəyini iddia edib. Onun sözlərinə görə, Sərkisyan artıq "Sasna Tsrer" qruplaşmasının tələblərini yerinə yetirməyə başlayıb. "Fikirləşirdim ki, o, uzun müddət dözəcək, amma proseslər faktiki olaraq onun istefa verdiyini göstərir". Lakin Sərkisyanın istefaya getməsi onun ədalət məhkəməsi qarşısına çıxarılmasını tezləşdirə bilər və bu mənada səslənən iddialar inandırıcı görünmür. Erməni xalqı Sərkisyandan təkcə Qarabağda öldürülən erməni gənclərin deyil, həm də 1 mart qətliamının cavabını istəyəcək. Belə olan halda erməni prezidentin çətin seçim qarşısında qaldığını deyə bilərik.

***

**Dağlıq Qarabağın Azərbaycanlı İcmasının rəhbəri Bayram Səfərov "Yeni Müsavat"a açıqlamasında bunları bildirdi:** "Bizim işğal altındakı torpaqlar azad olunmalıdır. Ermənistanın o torpaqlara heç bir aidiyyəti yoxdur. Dağlıq Qarabağda yaşayan ermənilər Azərbaycan qanunlarına hörmət etmək şərtilə, Azərbaycan Konstitusiyasını qəbul etməklə, xüsusilə də Azərbaycan xalqına hörmət etməklə bizimlə birgə yaşaya bilərlər. İstəmirlərsə, xudahafiz! Həkəridən keçsinlər, ordan piyada ağzıyuxarı dırmaşsınlar!"

**B.Səfərov ermənilərin yaydığı xəbərlərə də inanmadığını vurğuladı:** "Mən ermənilərə, yaxud beynəlxalq qurumlara o vaxt inanacağam ki, doğma Şuşamda olacağam. Bu gün mən yalnız Azərbaycan xalqına, ordusuna və Ali Baş Komandana inanıram". **İcma rəhbəri dedi ki, İrəvanda yaşananlar çoxdan baş verməli idi:** "Erməni xalqının da içində ağlı başında olanlar, dünyanın gedişinə fikir verənlər var. Bu qədər cinayət, ədalətsizlik, haqsızlıq ola bilməz. Onların nəyinə lazımdır ki, desinlər "Qarabağ bizimdir", amma torpaqdan istifadə etməsinlər, özləri də ac-susuz qalsın".



**B.Səfərov bildirdi ki, Sərkisyan asanlıqla istefaya getməz:** "Sərkisyanın ən yaxşı yolu budur ki, alnının ortasından bir güllə vursun. Özünə bu yolu seçsə, daha doğru olar. Yoxsa günahsız insanların ölümünə görə heç vaxt onu rahat buraxmayacaqlar. Bununla belə, özü istefaya getməz. Bilir ki, bu addımı atsa, onu nələr gözləyir. Ona görə də axıra qədər müqavimət göstərəcək. **Çünki əlləri çox qanlara bulaşıb". İcma rəhbərinə görə, Sərkisyan xoşluqla Qarabağı da vermək istəməz:** "Ancaq apreldə aldıqları cavabdan sonra ermənilər anlayıblar ki, daha bu xına o xınadan deyil".

**Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a bildirdi ki,Serj Sərkisyanın Dağlıq Qarabağa gəlişində təəccüblü heç nə yoxdur:** "O, işğal altındakı torpaqlara səfərlərini intensivləşdirib. Daxili və xarici siyasətdə çətinə düşən kimi Qarabağa qaçır. Yəqin bu, ondan irəli gəlir ki, Sərkisyan Ermənistan cəmiyyətindən çox, anadan olduğu və separatçılığa baş vurduğu məkandakı tərəfdarlarına daha çox inanır və bəd ayaqda onların dəstəyinə ümid edir. Çünki Sərkisyana Ermənistan cəmiyyətində inam getdikdə azalır və o, özü də bunu başa düşür. O, Ermənistan cəmiyyətinin dəstəyinə ümid etsəydi, çoxdan orduya və polisə girov götürülmüş polis işçilərini azad etmək əmrini verərdi. Sərkisyan bilir ki, silahlı müxalifətlə toqquşma nəticəsində xeyli soydaşının qanı töküləcək və bunun sonu onun üçün yaxşı olmayacaq. Ona görə də özünü təhlükədən sığortalamaq istəyir".

**E.Şahinoğlunun fikrincə, Sərkisyan ona da əmin deyil ki, böyük dövlətlər Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ondan nə tələb edə bilərlər:** "O, yaxşı anlayır ki, münaqişənin "mərhələli həll"inin alternativi yoxdur. Erməni prezident onun da fərqindədir ki, gec-tez Dağlıq Qarabağ ətrafındakı rayonlar boşaldılmalıdır. Buna baxmayaraq, o, sona qədər dirənəcək və ona görə Qarabağdakı separatçılara da eyni sualı verib: "Dağlıq Qarabağ ətrafındakı rayonları boşaldaq, yoxsa yox?" O, bu sualı gündəmə gətirməklə məsuliyyəti digər separatçılarla bölüşmək istəyir".

Qeyd edək ki, yazı çapa hazırlanana qədər Ermənistanda gərginlik davam edirdi. Qarşıdurmalar nəticəsində yaralananların və həbs edilənlərin sayı barədə də yeni xəbərlər gəlirdi. Görünən budur ki, Ermənistan hakimiyyəti ölkəyə nəzarəti itirmək üzrədir. Belə olan təqdirdə diqqətin daxildən yayındırılması üçün Qarabağda təxribatların törədilməsi də istisna deyil.



YENİ MÜSAVAT
N 158 (6479) 22 iyul 2016

**İyulun 18-də "Space" televiziyasında hava proqnozunu qaradərili Tendai Sherenin təqdim etməsi ictimaiyyət tərəfindən birmənalı qarşılanmayıb və sosial şəbəkələrdə müzakirələrə səbəb olub. Afrika qitəsində yerləşən Zimbabvenin Marondera şəhərində anadan olan Tendai Bakıda Xəzər Universitetində təhsil alır. "Space" telekanalında efirə çıxması ilə hər kəsi təəccübləndirən əcnəbi xanımın artıq işdən azad olunması barədə xəbərlər də yayılıb.**

# Dövlət qəzeti "Space"ni "vurdu" - zənci aparıcı işdən çıxarıldı

## Qulu Məhərrəmli: "Televiziya doğru addım ataraq o xanımı efirdən uzaqlaşdırıb"

İyulun 21-də "Azərbaycan" qəzeti "Space" televiziya kanalında hava proqnozunu qaradərili qadının aparması ilə bağlı məqalə dərc edib. Məqalə belə bitir: "Əgər "Space"çilər bununla həm də tamaşaçıları təəccübləndirmək istəyirdilərsə, rahat nəfəs ala bilərlər. Bu onlara müyəssər oldu!

Bizi də əməlli-başlı təəccübləndirdilər:

* zövqsüzlükləri ilə;

* Azərbaycan qadınının gözəlliyinə biganəlikləri və dönüklükləri ilə;

* ən nəhayət, Azərbaycan dilinə hörmətsizlikləri ilə!

O yazıq "Afrika gözəli"nin dili də söz tutmur axı!

Mübarəkdir! Çox uğurlu yaradıcılıq "tapıntısına" görə təbrik edirik!"

Xatırladaq ki, qaradərili birinin yerli telekanalda aparıcılıq etməsi Azərbaycan televiziya tarixində ilk deyil. İllər öncə Xose Bernardo adlı yeniyetmə ANS telekanalında öncə idman, sonralar isə hava haqda xəbərlər təqdim edib. O, hazırda fəaliyyətini ATV-də davam etdirir.

Qeyri-azərbaycanlı olmağına baxmayaraq təmiz azərbaycanca danışması ilə diqqət çəkən Yelena Sideronko ANS-in "Xəbərçi" proqramının aparıcılarından olub. Bəs daha öncə qaradərili Xose Bernardonun aparıcılığını qəbul edənlər indi niyə Tendai Sherenin ekran qarşısına çıxmasını tənqid edir? Əcnəbi şəxslərin yerli televiziyada aparıcılıq etməsi doğru deyilmi?

**"Yeni Müsavat" qəzetinin əməkdaşı sözügedən məsələ ilə bağlı media eksperti Qulu Məhərrəmli ilə əlaqə saxlayıb. O bildirib ki, "Space" televiziyası fərqlənmək üçün qaradərili xanımı efirə çıxarıb:** "Televiziyalar ciddi nüanslarla fərqlənməyəndə bu cür ekspermentlərə meylli olurlar. Düşünürəm ki, hava proqnozunu əcnəbi xanımın aparması bu ekspermentlərdən biridir. O vaxtlar ANS-də idman xəbərlərini qaradərili Xose Bernardo aparırdı və normal qarşılanırdı. Televiziyanın yazılmamış qanunları var. "Space" televiziyasının rəhbərliyi öncə xanımın aparıcılıq etməsinin necə qarşılanacağını düşünməli idi. Bu halların necə qarşılanacağı tamaşaçının duyumundan asılıdır. Qaradərili birinin aparıcılıq etməsi mənfi hal deyil. Lakin




hava proqnozu ciddilik tələb edir, qaradərili xanımın efirə çıxması fikirləri yayındırıb. Əyləncəli proqramı qaradərili şəxsin aparması daha tez qəbul olunar və verilişi daha maraqlı edər. Düşünürəm ki, "Space" televiziyası doğru addım ataraq o xanımı efirdən uzaqlaşdırıb. Televiziyaların bu cür eksperment aparmasına pis baxmıram, amma öncədən düşünmələrini tövsiyə edirəm".

**Q.Məhərrəmli əlavə edib ki, Tendai Sherenin aparıcılığının birmənalı qarşılanmamasına səbəb nitqində qüsurların olması ilə bağlı ola bilər:** "Televiziyada nitq elementi vacibdir. Tendai xanımın tənqidlərə məruz qalmasının səbəblərindən biri də nitqində qüsur olmasıdır. Ona görə də telekanal rəhbərləri əcnəbi vətəndaşları efirə buraxmamışdan öncə sınaq mərhələsindən keçirsinlər".

Tendai Sherenin "Space" televiziyasından uzaqlaşdırılması barədə yayılan xəbərləri dəqiqləşdirmək üçün telekanalın icraçı direktoru Kamil Şahverdiyevlə əlaqə saxlasaq da, o zənglərimizi cavabsız qoydu.

**Qeyd edək ki, publika.az saytına açıqlamasında Televiziya və Radio Şurasının (MTRŞ) şöbə müdiri Təvəkkül Dadaşov "Space" TV-nin efirinə çıxarılan əcnəbi aparıcının Azərbaycan dilinin qaydalarını pozması məsələsinə münasibət bildirib. T. Dadaşov deyib ki, səlis, aydın və mükəmməl nitqə malik aparıcıların seçilməsi və işə qəbul olunması televiziya və radio yayımçılarının səlahiyyətinə aid olduğundan aparıcıların efir məsuliyyəti də bilavasitə yayımçıların məsuliyyəti kimi dəyərləndirilməlidir:** "Teleradio aparıcıları tərəfindən sözlərin tələffüz formasının dəyişdirilməsi və ədəbi dilin normalarına etinasızlıq göstərilməsi halları yolverilməzdir. "Azərbaycan Respublikası ərazisində teleradio yayımı sahəsində Dövlət dilindən istifadənin təmin edilməsi ilə bağlı Xüsusi Qaydalar"ında da bu qaydalara əməl etmək tələb edilir. "Space" televiziyasının efirinə çıxarılan əcnəbi aparıcının nitqində müəyyən qüsurlar var. Artıq iyulun 20-dən sözügedən aparıcının başqası ilə əvəz edildiyi müşahidə olunub. Lakin həmin aparıcının nitqini təkmilləşdirərək efirə çıxmasında heç bir problem yoxdur. Kanalın qanunvericiliyin tələblərini pozmadan fərqli eksperimentlərdən istifadə etməsi normaldır".

❑ **Könül İBRAHİM**

# Ölüm cəzası, yoxsa ömürlük həbs - tanınmışların cavabı

**Türkiyədə baş verən hərbi çevriliş cəhdindən sonra baş verən proseslərin fonunda gündəmə gələn əsas məsələlərdən biri ölüm cəzasının bərpa olunması oldu.**

Türkiyədə edam cəzaları 2002-ci ildə qismən (ağır cinayətlər istisna olmaqla), 2006-cı ildə isə tamamilə ləğv olunub. Azərbaycan da üzərinə götürdüyü öhdəliyi yerinə yetirərək 1998-ci il, fevralın 10-da edam cəzasını ləğv edib. Qeyd etdiyimiz vaxta qədər ölüm hökmünə məhkum edilmiş lakin cəzaları icra olunmamış 128 nəfər edam cəzasından azad edildi.

Bəs Türkiyədə ölüm hökmü bərpa edilə bilərmi və cəmiyyətin buna reaksiyası necə olar?

**Daxili Qoşunların sabiq komandanı Fəhmin Hacıyev** Türkiyədə edam cəzasının təmin edilməsi ilə bağlı səsləndirilən təklifləri musavat.com-a şərh edib.

**F.Hacıyev deyir ki, dövlət vətəndaşından törətdiyi cinayətə görə qisas ala bilməz:** "Əvvəla onu demək istəyirəm ki, 15 -16 iyul tarixlərində qardaş Türkiyədə bir qrup macəraçı hərbçinin hərbi çevrilişə cəhd etməsi Türkiyənin, türk əsgərinin, türk millətinin nüfuzuna ciddi zərbə vurdu. Əgər qiyam uğurla yatırılmasaydı, Türkiyə və ümumilikdə region uzunmüddətli xaosa sürüklənə bi-



**Fəhmin Hacıyev:** "Ömürlük cəzada məhkumun bəzən bəraət almaq imkanları olur"



**Əvəz Zeynallı:** "Ömürlük həbsin məntiqi fəlsəfəsi bundan ibarətdir ki, insan yaşayır"



**İqbal Ağazadə:** "Çıxmayan canda ümid olar deyirlər"

lərdi. Bu, ağır dövləti cinayəti törətmiş şəxslər barəsində ədalətli mühakiməni təmin etməklə, dövlətin humanizm prinsiplərini də nəzərə almaqla, törədilmiş cinayətlə verilən cəzanın mütənasibliyi təmin olunmalıdır. Çünki dövlət vətəndaşından törətdiyi cinayətə görə qisas ala bilməz. Dövlətə belə bir hüquq da verilməyib".

**Belə bir qərarın əhalinin böyük hissəsi tərəfindən narazılıqla qarşılanacağını deyən F.Hacıyev edam cəzasının bərpa ediləcəyinə inanmadığını söyləyir:** "Türkiyədə ölüm hökmünün yenidən tətbiqinə icazə verən qanun qəbul edilərsə, bu, dövlətin qisasçılıq mövqeyini ortaya qoymuş olar. Bu isə Türkiyənin beynəlxalq nüfuzuna ciddi ziyan vurar. Türkiyədə vətəndaşların geniş kütləsinin narazılığına da səbəb ola bilər. Hətta bu cür mürtəce qanun qəbul olunsa, beynəlxalq hüquq normaları, türk dövlətinin qanunları yeni qanunun tətbiqinə imkan vermir. Çünki qanunun ağırlaşdırıcı halda geriyə qüvvəsi yoxdur. Əslində belə bir qanunun qəbul olunacağına inanmıram.

Otuz ildən çox bir müddətdə Türkiyədə on minlərlə insanın ölümünə səbəb olan terrorbaşı Abdulla Öcalanı edam etməyənlərin bir dövləti idarə edənləri, həyatlarının çox hissəsini türk dövlətinə xidmətə həsr etmiş generalları edam edəcəyinə özündə mənəvi güc tapacağına inanmıram".

### Ölüm, yoxsa ömürlük həbs?

**Sabiq komandan deyir ki, ömürlük həbs cəzasının üstünlükləri edam cəzasından daha çoxdur:** "Ömürlük cəzada məhkumun cəzasını yüngülləşdirmək, hətta bəzən bəraət almaq imkanları olur. Siyasi motivli cinayətlərə görə isə ən ağır cəzaların verilməsi məntiqsizdir. Peşəkar cinayətkarın törətdiyi cinayətlə siyasi mötivli törədilmiş cinayətlərin səbəb və nəticələri fərqlidir. Siyasi motivli cinayəti törədənlərin sosial statusları da fərqli olur".

**Məhkumluq həyatı yaşamış "Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı ölüm hökmünə qarşı olanlardandır. Ə.Zeynallı deyir ki, ömürlük həbs cəzası almış insanlar son bir ümid olaraq nə zamansa həbsdən çıxacaqlarına inanırlar. Həbsdə olduğu müddətdə ömürlük həbs cəzası almış məhkumlarla bağlı xatirəsini bölüşən Ə.Zeynallı bunları danışır:** "Həbsdə olanda nənəsini və babasını öldürən şəxslə birlikdə məhkəməyə gəlmişdik. O, mənə həyatını danışdı və ağladı. Onun etdiklərindən peşman olduğunu, belə bir həyat yaşamaq istəmədiyini gördüm. Ömürlük cəza odur ki, insan yaşayır. Özü ölmədiyi kimi ümidi də ölmür. Dövr dəyişə, amnistiya verilə, əfv ola bilər deyə ümid edir. Həbsxanada olarkən ömürlük həbs cəzası alan başqa bir şəxslə söhbət etmişdim. O, 25 il idi ki, həbsxanada idi. Mənə anasının ona toy edəcəyi günü gözlədiyini, gəlinlik aldığını, toya hazırlaşdığını elə həvəslə danışırdı ki. Məni də toyuna çağıracağını həvəslə söyləyirdi. Görürsünüzmü, insan ömürlük həbs cəzası alıb, amma ümidlidir, yaşayır, yaşamaq istəyir. Bütün hallarda ömürlük həbs də yaşamaqdır. Oranın da öz qaydaları var. İnsanlar ən azından ailələrini görür, hətta bəziləri orada ailə həyatı belə qururlar. Mən hesab edirəm ki, nə zamansa ömürlük həbs cəzası almış insanlarla bağlı prezident tərəfindən də müəyyən addımlar atılacaq. Azərbaycanda və ya Türkiyədə edam cəzasını bərpa etmək ölkəni orta əsrlərə geri qaytarmaqdır. Edam qərarı sivil ölkələr üçün xas olan bir addım deyil. Edam cəzasının bərpa olunduğu bir günü görmək istəmərəm. Bizim üzümüzə durub həbs ediblər. Kiminsə də üzünə durub, onun da ölümünə fərman verə bilərlər. Qətiyyən ölüm hökmünə qarşıyam".

**Ümid Partiyasının sədri İqbal Ağazadə də edam cəzasının bərpasına qarşıdır. Türkiyədə baş verən hadisələrin fonunda gündəmə gələn edam cəzasının qüvvəyə minməsi məsələsini qəbuledilməz hesab edən İ.Ağazadə günahkar və məhbus belə olsa, insanın yaşamaq haqqının əlindən alınmasına qarşı olduğunu deyir:** "Edam cəzasının qüvvəyə minməsi geriyə qayıdışdır. Edam cəzalarının olduğu ölkələrdə belə çalışılır ki, insanın yaşamaq kimi doğal haqqını əlindən ala biləcək cəza mexanizmi olmasın, aradan qaldırılsın. Bəzi inkişaf etmiş, Avropa ölkələrində də bu cəza var. Lakin onlarda məhkəmə və prokurorluq sistemi o qədər müstəqildir ki, qərarlar da doğru və dürüst verilir.

Çıxmayan canda ümid olar deyirlər. İnsan ölməyibsə, amnistiya, əfv gözləyir. Cəzasının bitə biləcəyini, yeni yanaşmanın ola biləcəyini gözləyir. Bu ümidlərlə həbsdə olduğu halda bir ömrünü başa vuran insanlar da var. Ömürlük həbsin məntiqi fəlsəfəsi bundan ibarətdir ki, insan yaşayır. Edam cəzası isə insandan doğal haqqı olan yaşamaq haqqını əlindən alır.

Türkiyə kimi bir ölkədə hakimlər, prokurorlar tutulursa, bu tipli məsələlər ortaya çıxırsa, edam cəzasının bərpa olunması nəticə etibari ilə rəqiblərə qarşı addımlar və qeyri-qanuni hüquqi nəticələrin əldə olunmasına gətirib çıxaracaq. Mən Türkiyənin belə bir vəziyyətə gəlib düşməsini istəmərəm. Türkiyə bu son olaylarda olduqca böyük itkilərə məruz qaldı. Ən başlıcası Türkiyə müasir dünya şablonunu itirdi".

❑ **İ.MURADOV**

**BMT Rusiyanı SPİD xəstəliyinin episentri elan edib. Bu ölkədə SPİD-ə yoluxanların sayı yüksək həddə çatıb. Nəzərə alsaq ki, Azərbaycanın 2 milyona yaxın vətəndaşı Rusiyada yaşayır, bu xəbərin ölkəmiz üçün də nə qədər təhlükəli olduğu aydınlaşar. Ötən ay nikah öncəsi müayinənin statistikasına diqqət etsək, Azərbaycanda da bu xəstəliyin daşıyıcılarının kifayət qədər olduğunu görərik. Belə ki, iyun ayı ərzində ailə qurmaq istəyən 12 min 959 nəfərin icbari tibbi müayinəsi həyata keçirilib və onlardan 12 nəfərdə SPİD xəstəliyi, 49 nəfərdə isə sifilis aşkarlanıb. Bu hələ qeydə alınan və müayinədən keçənlərin statistikasıdır. Rusiyada yaşayan, gediş-gəliş edən xeyli vətəndaşlarımız var ki, onların bu xəstəliyin daşıyıcısı olub-olmadığı sual doğurur.**




# Rusiya SPİD-in episentri elan olundu: Azərbaycan təhlükədə



**Əhməd Qəşəmoğlu:** "Rusiyaya gedən adama sərhəddə bildiriş verilə bilər"



**Adil Qeybulla:** "Sərhəddə yoxlamalar problemin həlli deyil"

Maraqlıdır, Rusiyada geniş vüsət alan SPİD-in ölkəmizə ayaq açmasının qismən qarşısını almaq üçün nə etməliyik?

**Sosioloq Əhməd Qəşəmoğlu bu xəstəliyin Azərbaycanda geniş yayılmasının qarşısını almaq üçün 3 məsələni qeyd etdi:** "Rusiyada bu xəstəliyin sürətlə yayıldığından xəbərim var. Hələ 10 il bundan əvvəl orada bu xəstəliyə yoluxanların sayı bütün Azərbaycanda olanlardan 4-5 dəfə çox idi. İndi də sürətlə artır. Rusiyada bu xəstəliyin tüğyan etməsinin səbəbini bir cümlə ilə deyə bilərəm ki, orada insanlar sərbəst həyat tərzinə, necə gəldi yaşamağa meyllidirlər və özünü qorumaq mədəniyyəti də onlarda inkişaf etməyib. Bizdə bu xəstəliyin Azərbaycana gəlməsinin qarşısını almaq üçün ilk öncə televiziyalarda bu barədə geniş marifləndirmə aparılmalıdır. Rusiyaya gedən insan əri başdan bilməlidir ki, orda bu cür təhlükə var. Yəni ora gedən bilməlidir ki, artıq hara gedir. Məsələn, məni bir dəfə bir elmi konfransda iştirak etmək üçün Cənubi Afrikaya çağırdılar. Özüm təsadüfən oxudum ki, orada insanların əksəriyyəti SPİD daşıyıcısıdır, getməyə qorxdum ki, birdən dişim ağrıyar, iynə vurular, sonra da... Qəza nəticəsində də SPİD-ə yoluxmaq mümkündür. Ona görə də birincisi, əhali bilməlidir ki, ora təhlükəli zonadır. İkincisi isə diaspora işləməlidir. Biz diaspora təşkilatları ilə əlaqə yaratmalıyıq ki, orada bu məsələləri bütün şəbəkəsi üzrə nəzarət altına alsın, bir həyəcan təbili olsun. Digər tərəfdən isə sərhədi keçənlərə biz bu barədə bir səhifəlik bildiriş verə bilərik. Məsələn, Rusiyaya gedən adama sərhəddə bir səhifəlik xəbərdarlıq üçün bildiriş verilə bilər. O adam bu bildirişi təyyarədə oxuya-oxuya gedəcək. Həmin bildirişdə bu xəstəliyin təhlükəsi və özünü qorumaq haqqında da məlumat ola bilər. Dünyanın heç yerində belə bir praktika yoxdur ki, insanları SPİD-dən yoxlasınlar. Amma biz bu maarifləndirmə işini edə bilərik".

Maraqlıdır, Rusiyadan Azərbaycana keçid sərhədində tibbi müayinə üçün müəssisə fəaliyyət göstərə bilərmi?

**Tibb elmləri doktoru, professor Adil Qeybulla bu xəstəliyin 3 aydan sonra özünü büruzə verməyə başladığını dedi:** "Əslində Azərbaycanda 2 milyona yaxın insan miqrasiya durumundadır. Yəni Rusiya, Türkiyə, İran və sairə ölkələrdə yaşayırlar. Rusiyada SPİD xəstəliyinin yayılması xeyli artıb. Bu xəstəliyin sərhəddə yoxlanılması məsələnin həlli deyil. Bu xəstəliyə yoluxduqdan yalnız 3 ay sonra onu tapmaq olur. Yalnız bu müddət sonra gərək müasir yoxlamalar tətbiq olunsun ki, virusun qanda olub-olmaması müəyyən edilsin. Eksterim üsullarla isə bunu yalnız 3 aydan sonra yoxlamaq olur və bu xəstəliyə yoluxma dəqiqləşə bilir. Ola bilər ki, bu insan 1-2 aydır ki, yoluxub, onu sərhəddən keçəndə tapa bilməsinlər. Bu o demək deyil ki, bu xəstəliyə yoluxmayıb. Ona görə də sərhəddə yoxlamalar nəzarət üzrə məsələnin həlli deyil. Nəzarət maarifləndirmədən keçir. Hesab edirəm ki, bizim televiziya ekranlarında boş-boş verilişlərdən, mənasız şoulardansa, əhalinin sağlamlığı ilə bağlı maarifləndirici proqramlar olmalıdır. Mənasız reklamlardansa, tibb müəssisələri yaxşı olar ki, insanların sağlamlığına yönəlmiş maarifləndirici praktik proqramlar təşkil etsin. Bu cür maarifləndirmə, insanların bu xəstəlikdən necə qorunması, nələrə riayət etməsi, xəstəlik necə yoluxur, bunun təhlükəsi nədən ibarətdir kimi sualların cavabı tez-tez təqdim olunsa, insanlar məlumatlı olarlar və məlumatlı şəxs artıq tədbirli olur. Amma məlumatsız olan gənclər kor-koranə sərbəst həyat yaşayırlar ki, bu da onların bu xəstəliyə yoluxmasına gətirib çıxarır. Yəni administrativ tədbirlərlə bu xəstəliyin qarşısını almaq imkanları yoxdur".

**A.Qeybulla bu xəstəliyin insanın immun sistemini dağıtdığını və adi soyuqdəymə olarsa, insanın ölə biləcəyini dedi:** "SPİD yoluxduqdan 3 ay sonra qanda aşkarlanır. Bu xəstəlik tədricən immun sistemini dağıdır və bəzən adi bir soyuqdəymədən insan dünyasını dəyişə bilər. Çünki immun sistemi tamamilə sıradan çıxmış olur. Xəstəlik əgər müalicə olunmazsa, 5-10 ilə insanın immun sistemini tam sıradan çıxarır. Amma hazırda çox müasir dərmanlar istehsal olunub. Bu dərmanlarla xəstə uzun müddət yaşaya bilər".

❑ **Günel MANAFLI**

## Aztəminatlı ailələr hətta biznes də qura biləcək


Səlim Müslümov

**Aztəminatlı ailələr üçün şərait yaradılacaq, onlar işləyib pul qazana biləcəklər.**

Virtualaz.org saytı xəbər verir ki, bunu əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov nazirlikdə keçirilən kollegiya iclasında deyib.

Aktiv sosial müdafiə tədbirlərinin təşkili sahəsində qarşıda duran vəzifələrə həsr olunan iclasda aztəminatlı ailələrin sosial vəziyyətinin yaxşılaşdırılması üçün görülən işlər barədə məlumat verilib.

S.Müslümov bildirib ki, dövlət başçısının "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" 7 aprel 2016-cı il tarixli sərəncamı aztəminatlı ailələrin aktiv əmək bazarı tədbirlərinə cəlb olunmasına əsaslı təminat yaradıb. "Sərəncamın icrası ilə əlaqədar tədbirlərin həyata keçirilməsi məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "İşaxtaran vətəndaşların özünüməşğulluq fəaliyyətinin təşkili Qaydaları" hazırlanaraq nazirliyin kollegiyasının müvafiq qərarı ilə təsdiq edilib. Bu qaydalar müvafiq sahədə işlərin daha səmərəli icrasına təminat verir", - deyə nazir məlumat verib.

**S.Müslümov aztəminatlı ailələr üçün aktiv sosial müdafiə tədbirlərinin təşkili ilə əlaqədar "Məşğulluq haqqında" Qanuna əlavə və dəyişikliklər layihəsinin də hazırlandığını diqqətə çatdırıb:** "Aztəminatlı ailələrin özünüməşğulluğunun təşkili, onların dövlətin dəstəyi ilə öz kiçik ailə təsərrüfatlarını formalaşdıraraq inkişaf etdirə bilmələri üçün daha əlverişli şərait yaradılması üçün bütün müvafiq işlər görüləcək".

Bu tədbirlər vasitəsilə həmin aztəminatlı ailələrin nəinki yoxsulluq səviyyəsindən çıxarılmasının, uğurlu biznes fəaliyyəti qurmalarının da stimullaşdırılacağını bildirib. Tədbirdə həmçinin növbəti həftə ərzində məşğulluq orqanlarının iştirakı ilə qeyd olunan məsələlərlə bağlı ümumrespublika müşavirəsinin keçirilməsi qərara alınıb.

## Magistraturaya qəbul olunan 1622 nəfərə əsgərlikdən möhlət hüququ verildi



**Bu il Azərbaycanda ilk dəfə olaraq magistraturaya qəbul olaraq hərbi xidmətdən möhlət hüququ veriləcək gənclərin sayı açıqlanıb.**

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasından bildirilib ki, bu il ali təhsil müəssisələrinin magistratura səviyyəsinə 4640 nəfər qəbul olub. Bildirilib ki, onlardan 1622-si oğlan, 3018-i qız abituriyentlərdir.

Qeyd edək ki, prezident İlham Əliyev "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilməsi barədə" Qanunun qüvvəyə minməsi barədə sərəncam imzalayıb. Qüvvəyə minən yeni qanuna əsasən bundan sonra Azərbaycanda əyani təhsil alma formasında magistraturada, doktoranturada, xarici ölkələrin təhsil müəssisələrində əyani təhsilalma formasında ali təhsil pilləsinin magistratura və doktorantura səviyyələrində də təhsil alanlara müvafiq təhsilini bitirənədək hərbi xidmətə çağırışdan möhlət veriləcək.

Xatırladaq ki, ali təhsil müəssisələrinin magistratura səviyyəsinə qəbul olunan bakalavrların qəbul olunduqları ali təhsil müəssisələrində qeydiyyatı 28 iyun - 11 iyul tarixlərində aparılıb. Magistraturaya qəbul olunan 5359 bakalavrdan (o cümlədən ADA Universitetinə və M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialına qəbul olunan) 4640 nəfəri ali təhsil müəssisələrində qeydiyyatdan keçib. Boş qalan plan yerlərinə ixtisaslaşma seçimi isə 8-14 avqust tarixlərində aparılacaq.

# I yarım ildə dövlət büdcəsinin kəsiri gəlirlərin 11%-i qədər olub




**Maliyyə Nazirliyi I yarımildə dövlət büdcəsinin icrası barədə hesabat açıqlayıb. Dövlət büdcəsinin gəlirləri (6 mlrd 133,8 mln manat) 78,9%, xərcləri (6 mlrd 821,5 mln manat) 88,8% icra edilib. Kəsir 687,7 mln manat olub.**

İcmal büdcədə 1 mlrd. 36,6 mln manat (gəlirlər 9 mlrd 262,7 mln, xərclər 8 mlrd 226,1 mln manat) profisit olub.

Gəlirlərin 1,76 mlrd. manatı və ya 28,7% ARDNF-dən transfertlərdir. Vergilər Nazirliyi 3 mlrd. 190,1 mln manat, Gömrük Komitəsi 995,4 mln manat təmin edib.

Xərclərin 43,4%-i sosial sahənin payına düşür (2 mlrd. 958,5 mln. manat).

Tikinti və yenidənqurma işlərinə 103,1 mln manat, energetika, su-qaz təchizatı, nəqliyyat s. infrastruktur layihələrinə 532 mln. manat, Naxçıvan MR-də infrastruktur layihələrinə 19,1 mln. manat yönəldilib.

# Xarici ticarət dövriyyəsinin saldosu mənfidir

**Ötən ilin I yarısında Azərbaycanın xarici ticarət dövriyyəsinin müsbət saldosu $1 mlrd. 532 mln 883,28 min olub. Bu il saldo mənfidir (- $225 mln 770,33 min) deyə, Gömrük Komitəsi bildirir.**

İyulun 1-i üçün xarici ticarət dövriyyəsi $7 mlrd 868 mln 693,64 min (mənfi 28,05%) olub. İxracat ($3 mlrd. 821 mln 461,66 min) 38,7%, idxal ($4 mlrd. 47 mln 231,98 min) 13,98% azalıb.

İxracatın 84,4%-i neft və qazın payına düşür. Meyvə-tərəvəzin payı 4,36%-dir.

İdxalda maşın, mexanizm, elektrik aparatları, avadanlıq 23,02%, ərzaq 14,79%, qara metal və məmulatı 14,27%, nəqliyyat vasitələri və ehtiyat hissələri 12,54%, digərləri 24,64% paya malikdir.

İxracatda İtaliya (19,91%), Fransa (9,02%), Almaniya (8,69%), Tayvan (7,88%) və İsrailin (6,19%) payı yüksəkdir. İdxalda RF və türkiyə öndədir - 18,35 və 13,02%. Çin 6,37%, Britaniya 6,27%, ABŞ 6,06% paya malikdir.

# DSK mənzillərin ucuzlaşdığını qeydə alıb




**2016-cı ilin II rübündə Azərbaycanda mənzillər ilin əvvəlinə nisbətən 0,9 faiz ucuzlaşıb, deyə Dövlət Statistika Komitəsi bildirir.**

DSK-nın müşahidəsinə görə, bu dövrdə ilkin bazarda artım (+0,4%), təkrar mənzil bazarında 0,9 faiz ucuzlaşma olub. Daşınmaz Əmlakın Dövlət Reyestrinin məlumatına görə, təkrar bazarda aktivlik, bir qayda olaraq, ilkin bazardakından iki dəfə yüksək olur. Mənzil bazarında aktivlik azalsa da, II rübdə ilkin bazarda ötən ilin eyni dövrünə nisbətən 3,2% artım olub. Amma mənzil bazarının iki seqmenti üzrə ümumi qiymət dinamikası mənfidir (-4,9%). Bu tendensiya əsasən idxal mənşəli tikinti materiallarının qiymət artımı fonunda baş verir.

❑ Contact.az

# Özəlləşdirmədə dövlət nəyi satacaq, nəyi saxlayacaq?

## Ekspertlər bildirirlər ki, Azərbaycanın ciddi özəlləşdirmə proqramına ehtiyacı var, amma bu siyasətin necə həyata keçiriləcəyi dəqiq deyil

**Ölkədə özəlləşdirmənin yeni dalğasının başlanacağı gözlənilir. İlin əvvəlindən anonsu verilən özəlləşdirmə ilə bağlı detallar məlum olmasa da, ekspertlər dövlətin əlavə yükdən azad olmasının vacibliyini önə çəkirlər. İki gün əvvəl dövlət başçısı İlham Əliyev dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi və idarə edilməsinin səmərəliliyinin artırılması ilə bağlı fərman da imzalayıb. Fərmanda göstərilir ki, Nazirlər Kabineti dövlət mülkiyyətində saxlanılacaq müəssisələrin siyahısını müəyyən etməlidir.**

Sənəddə qeyd olunur ki, fərmanın məqsədi ölkədəki iqtisadi fəallığı gücləndirmək, özəl təşəbbüslərə dəstək vermək, iqtisadiyyatın şaxələndirilməsini təmin etmək, sağlam rəqabət mühiti formalaşdırmaqdır. Fərman Nazirlər Kabineti və Əmlak Məsələləri Dövlət Komitəsinin üzərinə vəzifələr qoyur. Sənədə görə, Nazirlər Kabineti dövlət mülkiyyətində saxlanılacaq müəssisələrin siyahısını müəyyən etməlidir. Nazirlər Kabineti özəlləşdirmə prosesində Bakı və digər şəhərlərin baş planlarını nəzərə almalıdır. Özəlləşdirilən müəssisələrin yerləşdiyi torpaq sahələrinin sərhədlərinin yenidən müəyyən edilməsi ilə bağlı təkliflər hazırlanaraq ölkə başçısına təqdim olunmalıdır.

Fərmanda nəzərdə tutulur ki, bu proses zamanı regionda rəqabət qabiliyyətli potensialı olan və sosial-iqtisadi inkişafa əhəmiyyətli töhfə verə biləcək fəaliyyəti dayanmış müəssisələrin özəlləşdirilməsinə üstünlük verilməlidir. Eyni zamanda özəlləşdirmənin şəffaflığı təmin edilməlidir. Fərman Özəlləşdirməyə Nəzarət üzrə Dövlət Komissiyasının üzərinə aşkarlığın təmin edilməsindən ötrü məqsədyönlü tədbirlər görmək vəzifəsi qoyur. Fərmanda torpaqlardan səmərəli istifadə, sahələrin zəbt olunması məsələsinə də diqqət ayrılıb.

**Natiq Cəfərli məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, əslində Azərbaycan hökumətinin yanvar ayında belə bir özəlləşdirmə proqramının olacağı ilə bağlı ilkin açıqlaması olmuşdu:** "Bu özəlləşdirmə proqramının qəbul olunmasında əsas məqsəd təbii ki, Azərbaycanda son vaxtlar büdcədə yaranan problemlər, dövlət xərclərinin azaldılmasına yönəlik hər hansı addımların atılması özündə ehtiva edirdi. Çünki hökumət özəlləşdirmə vasitəsilə dövlət büdcəsində yaranmış bəzi problemlərin həllinə çalışırdı. Həm də büdcədən ayrılan vəsaitin yükünü azaltmağa çalışırdı. Amma görünən odur ki, bu, tək fərmanlarla olan şey deyil. Yəni ölkədə ciddi investisiya mühiti yaratmadan və xarici investorlar üçün münbit şəraitin yaranmasına səbəb olmadan belə addımların atılması effekt vermir. Ona görə də ard-arda fərmanların verilməsi ilə xarici investorlara güvən verilməsi prosesi gedir. Amma mənə elə gəlir ki, tək fərmanlarla bu olmayacaq. Ölkədə ciddi şəkildə məhkəmə sistemində islahatlar olmasa, məhkəmə sistemi üçün mülkiyyət toxunulmazlığının müqəddəsliyi haqqında xarici investorlarda və daxili investorlarda bir fikir formalaşmasa, verilən fərmanlar ciddi effekt verməyəcək. Amma əslində tutulan yol doğru yoldur. Azərbaycanın ciddi özəlləşdirmə proqramına ehtiyacı var. Büdcənin yükü azaldılmalıdır. Özəlləşdirməyə çıxarılan müəssisələrin effektiv çalışması üçün özəlləşdirmənin özü bir şərtdir. Bundan sonra, xüsusi mülkiyyətə keçdikdən sonra daha effektiv çalışma ehtimalı çox yüksəkdir. Çünki müəssisələr dövlətin olanda dövlətdən dotasiyalar hesabına, vergilərin verilməməsi hesabına, xidmətin keyfiyyətsizliyi hesabına ayaqda dura bilirdi. İndi isə özəlləşdirmədən sonra bu, mümkün olmayacaq. Amma bunun həyata keçirilməsinə ciddi effekt verməsi üçün ölkədə ümumi iqtisadi mühit və investorlar üçün cəlbedicilik xeyli dərəcədə artmalıdır. Bunsuz nə xarici, nə daxili investorlar üçün bəlli bir məsələ olmayacaq".

Qeyd olunur ki, hakimiyyətin üzləşdiyi böhrandan çıxmaq üçün xarici borclanmaya və iri müəssisələri özəlləşdirməyə gedəcəyi proqnozlaşdırılan addım idi. Artıq iri dövlət müəssisələrinin özəlləşdirilməsi ilə bağlı ilkin addım atılıb. Bu istiqamətdə qərar qəbul olunub. Hələlik bu siyahıya hansı müəssisələrin adının salınacağı bəlli deyil. Amma Beynəlxalq Bankın, "Azərenerji"nin, Dövlət Dəmir Yollarının dirçəldilməsi bu siyahıda bu təşkilatların ola biləcəyini deməyə əsas verir. Bu arada su və enerjinin qiymətinin artırılması da təsadüfi qiymətləndirilmir.

**Ekspert Qadir İbrahimli azadliq.info-ya bildirib ki, hökumət özəlləşdirməyə münasibətdə müəyyən konseptual dəyişikliklər etmək istəyir. Onun sözlərinə görə, bu özəlləşdirmə dövlətin xərcinin azaldılmasına xidmət etməlidir:** "Yeni maliyyə problemi olan, sıxıntı çəkən iri müəssisələri özəlləşdirmək nəzərdə tutulur ki, növbəti mərhələdə dövlətin xərci az olsun. Eyni zamanda həmin müəssisəyə başqa investorları cəlb edib, vəziyyətdən çıxmaq mümkün olsun. Bu, ümumi yanaşmadır. Amma bu siyasətin necə həyata keçiriləcəyi hələ bəlli deyil. Yəni həqiqətən də effektiv özəlləşdirmə mühiti yaradılacaqmı, şəffaf müsabiqələr keçiriləcək, real investorlar cəlb olunacaqmı? Yoxsa özəlləşdirmə adı altında iri müəssisələr hansısa məmurun yaxınlarının adına rəsmiləşdiriləcək? Bu suallar açıq qalıb. Amma hökumətdə ümumi yanaşma budur ki, dövlətdən dotasiya alan, xərc tələb edən müəssisələr özəlləşdirilsin".

Bəzi iqtisadçıların fikrincə, özəlləşdirmə prosesinin sürətləndirilməsi ölkə iqtisadiyyatında özəl sektorun rolunun artmasına yardımçı olacaq. Bu günə qədər özəlləşdirmə ilə bağlı 2 böyük proqram həyata keçirilib. Proqramların həyata keçirilməsi sayəsində ümumi daxili məhsul (ÜDM) istehsalında özəl sektorun payı 80 faizi ötüb. Özəlləşdirilmənin davamlı aparılması, xüsusi mülkiyyətə verilən sahələrin dairəsinin genişləndirilməsi, yeni sahibkarlıq subyektlərinin yaradılması özəl sektorun iqtisadiyyatda rolunu artıracaq. Lakin bütün tədbirlərə baxmayaraq hələ də iqtisadiyyatın bir sıra sahələrində ÜDM-in formalaşdırılmasında dövlətin iştirakı yüksəkdir. Bu hal xüsusilə xidmət sektorunda belədir. İstehsal sferasında isə dövlət rolunu tədricən minimuma endirməkdədir. Yalnız sənaye sahəsində dövlətin iştirak payı 10 faizin üzərindədir. Bildirilir ki, bazar iqtisadi münasibətləri keçid edən ölkələrdə iqtisadiyyatda dövlət müəssisələrinin payının yüksək olması çox təsadüf olunan haldır. İnkişaf etməkdə olan və keçid dövrünü yaşayan iqtisadiyyatların bir çoxunda ÜDM-in əhəmiyyətli hissəsi hələ də dövlət müəssisələrinin hesabına yaradılır.




Ekspertlərin fikrincə, neftin qiymətinin kəskin azalması bu ildən özəlləşdirmə mövzusunu Azərbaycanda yenidən gündəmə gətirib. Bu il yanvarın 18-də prezident İlham Əliyev "geniş özəlləşdirmə proqramının hazırlanması" tapşırığını verib. Mayın 19-da isə prezident "Dövlət əmlakının özəlləşdirilməsi prosesinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman imzalayıb. Dövlət əmlakının özəlləşdirilməsi haqda birinci qanun 1995-ci ildə qəbul edilib. 2000-ci il avqustun 10-da isə prezident "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"nın təsdiqi haqda fərman imzalayıb. 1996-2015-ci illərdə Azərbaycanda 47 minədək (Naxçıvan Muxtar Respublikası nəzərə alınmadan) kiçik dövlət müəssisəsi və obyektin özəlləşdirildiyi bildirilir.

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 158 (6479) 22 iyul 2016

# Astroloqlardan ölkəmiz və Türkiyə ilə bağlı bədbin proqnozlar

**Astroloqlar proqnozlarında 2016-cı ilin Azərbaycanda və dünyada terror, sui-qəsd və qarışıq bir il olacağını bildirmişdi. Bu il Meymun ili olduğundan və meymunda oynamağı sevdiyi üçün siyasi arenada da müxtəlif oyunların dönəcəyi bildirilirdi.**

Bir neçə astroloqun bu istiqamətdə verdiyi proqnozları xatırlayaq. Məsələn, astroloq Səbuhi Rəhimli Meymun ilinin ən dəhşətli terror və sensasiyalı sui-qəsdlərlə yadda qalacağını, az qala hər ölkədə terror olacağını bildirmişdi. Digər astroloq Firudin Qurbansoy isə qlobal hadisələrlə zəngin bir il olacağını bildirmişdi. Doğrudan da bu cür oldu. Bu yayı son 10 ilin ən "soyuq" yayı adlandırmaq olar. Türkiyədə baş verən terror hadisələri, hərbi çevrilişə cəhd, Azərbaycanda da qarşıda gözlənilən referendum dəyişiklikləri siyasi hərarətin artıracağına işarədir.

Bəs astroloqlar indi nə düşünür, bizi və Türkiyəni nə gözləyir?

**Astroloq Səbuhi Rəhimli Türkiyədə vəziyyətin sentyabra qədər stabilləşməyəcəyini dedi:** "Böyük güclərin 11 sentyabr hadisələri ilə başlatdığı "dünya düzənini dəyişmək" layihəsi Əfqanıstanda start götürdü, 2003-cü ildə koalisiya qüvvələrinin İraqa hücumu ilə ciddi müstəviyə keçdi. Sonradan Şimali Afrika ölkələrində, o cümlədən Suriyada özünü daha qabarıq şəkildə göstərdi. Qlobal müharibələr kiçik müharibələri öz tərkibinə qatdı, məhəlli münaqişələr dondurulmuş hala gətirildi. 2015-ci ilin sonlarında artıq siyasi hədəflərin üfüqləri bəlli olduğu üçün metodlar fərqli tərzdə cərəyan etdi. İlin əvvəlində də dediyim kimi, artıq İŞİD və "Boko-Haram" kimi silahlı təşkilatlar öz missiyasını bitirmiş oldu - İŞİD öz məğlubiyyət silsiləsini yaşayır, "Boko-Haram"ın isə az qala səsi çıxmır. Şərqin alovunun Qərbə keçdiyini də görürük. Fransada, Almaniyada, Belçika və digər ölkələrdə baş verən terrorlar, Böyük Britaniyanın AB-dən çıxması vəziyyətin mürəkkəbliyini ortaya qoyur. Bütün bu proseslərdə dünyanın diqqət mərkəzində olan Türkiyənin neytral qalması mümkünsüz idi. Üstəlik, bəzi qüvvələrin regiona təsir imkanlarını gündəndən artıran Türkiyədə həssas sabitliyi pozmaq cəhdi məlum hadisələrə səbəb olmalı idi. Ardıcıl terrorlar, Rusiya ilə hərbi, siyasi, iqtisadi qalmaqal, ən nəhayət, qiyam-çevriliş olayları qardaş ölkədə bəzilərinin hədəfə aparan planları idi. Türkiyə ilə bağlı yalnız onu deyə bilərəm ki, yaxın iki ayda, ən yaxşı halda sentyabra qədər vəziyyət sabitləşməyəcək. Gözlənilməz olaylar da hər an mümkündür. Gələn həftədən müəmmalı çox hadisələrə aydınlıq gələcək, insanlar şokdan çıxmağa başlayacaq, qarşılıqlı ittihamlar artacaq. Avqustun ortalarına qədər vəziyyətin nəzarətdən çıxma ehtimalı da mümkündür. Azərbaycana gəlincə, "Yeni Müsavat"a verdiyim illik proqnozlarımda da vurğuladığım kimi, terror təhlükəsi var. Düzdür, bunu daha çox yaz ayları üçün göstərmişdim, lakin hər bir ölkədə təxribatçı qüvvələrin fəallaşdığı bir zamanda, üstəlik, müharibə vəziyyətində olmağımız bu problemin hər zaman aktiv müstəvidə olmasına dəlalət edir".



**Səbuhi Rəhimli:**
"Yaxın iki ayda, ən yaxşı halda sentyabra qədər vəziyyət sabitləşməyəcək"



**Firudin Qurbansoy:**
"Azərbaycanın yaşadığı, gördüyü hadisələr yaxşı heç nə vəd etmir"

**S.Rəhimli son günlərin siyasi qərarlarının ictimaiyyətin narazılığını artıracağını dedi:** "Sosial problemlərin maksimum səviyyəyə qalxdığı ölkəmizdə bir tərəfdən də kommunal xərclərin qaldırılması haqqında qərarların verilməsi, əhalinin borclardan əziyyət çəkməsi, hətta ardıcıl intiharlar təbii ki, ölkəmizdə də gərginlik yaratmaqdadır. Son günlərin siyasi qərarları ictimaiyyətin hər an artan narazılığına yol açmaqdadır. Amma siyasi müxalifətin son qərarlara ehtiyatlı, bir az da cəsarətsiz görünən yanaşmaları güclü etirazların, böyüyən qarşıdurmaların yaranacağına az ehtimal verir. Açıq deyim ki, dünyanın qarışdığı indiki zaman kəsimində müxalif liderlərin lazımi müqavimət göstərəcəyinə inanmıram. Çünki həmişəki kimi, dünyanın demokratik institutları onları müdafiə etməyəcək. Narazı kütləyə təsir etmək imkanına isə iqtidar imkan verməyəcək. Hər halda, bunlar mənim qənaətimdir, doğrusunu zaman göstərəcək".

**Digər astroloq Firudin Qurbansoy isə baş verən hadisələrin heç birini ciddi hesab etmədiyini dedi:** "Bu il Meymun ilidir. Meymun da oynamağı xoşlayır. Baş verən bütün hadisələrin əslində hamısı səhnədir. Heç birində həqiqət yoxdur. Bir var kütlə üçün, bir də var həqiqət. Bunların da heç biri həqiqət deyil. Həqiqət çox təəssüflər olsun ki, acı nəticələrdir. Amma mahiyyət, baş verən hadisələrin kökü heç də təqdim olunan kimi deyil. Bunun dərinliyinə varmaq 10-15 ilə mümkün olacaq. Amma ilk baxışdan görünən odur ki, çox pis şəkildə oynanılan ssenaridir. Sənətşünaslar, teatrşünaslar hansısa filmə baxıb bilirlər bu yaxşı, yoxsa pis filmdir. İndi baş verən hadisələr elə pis bir filmdir ki, elə baxanda görürsən ki, bu, çox istedadsız rejissorun, operatorun, aktyorların işidir. Mən bu baş verənlərin heç birini ciddi hesab etmirəm. Çünki bilirəm ki, hamısı bir oyundur və türk xalqı çox böyük müsibətlərlə üzləşəcək. Türkiyə tarix boyu qazandıqlarının böyük bir hissəsini itirəcək".

**Azərbaycanla bağlı baş verə biləcək hadisələrə gəlincə isə astroloq bahalığın, ölkəmizin yaşadığı hadisələrin yaxşı şeylər vəd etmədiyini dedi:** "Azərbaycanın yaşadığı, gördüyü hadisələr, bahalıq yaxşı şeylər vəd etmir. Elektrikin qiyməti artıb, bu, dəfələrlə artacaq və insanlar öyrəşəcək. Heç eşitmisiniz ki, bu son 30 ildə nəyinsə qiymətini aşağı salsınlar? Hər şeyin qiyməti axı niyə artmalıdır? Bizim camaatımız insan deyil? Kasıb lap kasıblaşır, bədbəxt lap bədbəxt olur. Azərbaycanın əhalisi 9 milyondur, lap olsun 15 milyon. Axı bu böyük rəqəm deyil. Bu heç bir şəhərin əhalisi deyil. İstanbulun əhalisi Azərbaycanın əhalisinin sayından böyükdür. Olmaz axı belə, bu bədbəxt xalqı bir az xoşbəxt etməyə dəyər".

❑ **Günel MANAFLI**

# Darbə günündə təzəbəyə zərbə



**Samir SARI**

**Bəxtə, taleyə baxın, adam ömründə bir dəfə toy eləsin, o da gəlsin, türkün sözü, darbə girişimi günlərinə, fövqəladə vəziyyət (OHAL - Olağanüstü hal) rejiminə düşsün, polis məmuru olan bəyi görəv başına çağırsınlar, gəlin də toyun ortasında tək qalsın, bəy-gəlin rəqsini öz qardaşıyla oynasın.**

Bu hadisə Türkiyədə olub və qəzetlərin manşetlərinə düşüb, telekanalların xəbər bülletenlərində yer alıb.

Hələ məcburiyyətdən öz toyuna skayp vasitəsilə qatılan bəyin sözlərini utanmaz-utanmaz efirə verirlər, o da deyir, eybi yox, ayın 26-da ikinci toyda (güman ki, qız toyunda, ya da oğlan toyunda) mütləq iştirak edəcək.

Təbii ki, bu işin baş verməməsi üçün gərək ölkədə yeni darbə girişimi olmasın. Olsa, bəy yenə hansısa kazarmada, qışlada yatacaq.

Hərçənd bu qədər pəstəha çıxarıb bunu bütün Türkiyəyə, eləcə də dünyaya göstərənəcən, müstəsna hal kimi o polis bəyə icazə vermək olardı ki, getsin öz toyunda iştirak eləsin, təzə gəlini toyda tək qoymasın.

Yox, yox, olmaz. Fövqəladə vəziyyətdir, hamı işinin başında olmalıdır, dövlətçilik əldən gedir, vəsf zamanı deyil, afət, öncə vatan.

İndi birdən işdir, oldu, qəfildən bir gözlənilməz olay baş verdi, təzəbəy olmağa hazırlaşan polis məmurunun ayağından, çiynindən *(daha pis ehtimalları kənara qoyuram)* güllə dəydi, onda bütün dünya bu hadisədən danışmayacaqmı? Vallahi, hər kəs o məmurun rəisinin dədəsini dalına şələyəcək ki, toy günündə bəyi gəlindən ayırmaqla böyük bir mərdiməzarlıq edib. Müqəddəs Valentin sevən gəncləri qovuşdurmaq üçün canını fəda etsin, sən gəl özləri qovuşmaqda olan gəncləri ayır ki, bəs ölkədə yönətimə əl qoya bilərlər. Yönətim yeridirmi, arkadaş, adam zor-bəla evlənməyin yöndəmini öyrənmişdi, çağırdın apardın kazarmaya.

Əlbəttə, deyilə bilər ki, bundan daha pis variantlar da var, məsələn, o qədər adam həyatını itirib, minlərlə subay (öz türkcəmizdə) əsgər - ərlər və subaylar (Anadolu türkcəsində) tutulub və onlara 10-15 il iş verəcəklər, yaxın müddətdə kimisə alıb ər ola bilməyəcəklər, olsalar da türmə hücrəsində olacaqlar. Amma Allah kəssin türmədə toy eləyib evlənməyi. Camaat toy edən kimi ən azı bir həftəlik bal ayına gedir, türmədə balanda yeyə-yeyə bal ayı keçirmək-mi olar?

Bax, bu saat qardaş ölkədə vəziyyət o dərəcədə mürəkkəbdir. Heç demə, prezident hərbi çevriliş cəhdini öz yeznəsindən öyrənibmiş. Yeznə də ayıq-sayıq adam olmasaydı, əndişələnib qaynına hansı vasitəyləsə, türkün sözü, ulaşmasaydı, ondan sonra qiyamçı hərbçilərin səs-səsə verib ulaşmasını görərdiniz. Darbəçilər AKP hökumətinə elə bir toy tutardılar ki, toyunda gəlini tək qoymuş polisin toyu muştuluq olardı.

Hərbi qiyam, fövqəladə vəziyyət rejimi görməyənlər bilməz, adamı evinin bir addımlığında saxlayıb deyirlər, bu küçədə gəzməkdə məqsədin nədir. Deyirsən, evim burdadır, evimə gedirəm. Tüfəngin qundağıyla çiynindən bir zərbə tutuzdururlar, tirlənirsən asfalta, götürüb tullayırlar maşına, FV rejimində dövlət məmuruna müqavimət adıyla aparıb basırlar qarnizonun haupvaxtına.

1988-ci ildə ölkəmizdə elan edilmiş FV rejimi və komendant saatı zamanında rayondan Bakıya toya gəlirdim. Qaradağda rus hərbçilər avtobusumuzun qabağını kəsdilər, salona daxil olub, başladılar bizi bir-bir yoxlamağa. "Pasport, 16 aç" deyirdilər, yəni pasportunuzun 16-cı səhifəni göstərin. Hamı açıb göstərirdi. Növbə mənə çatanda dilim dinc durmadı, dedim: "Eto, naverno prostaya formalnost, da?" Elə bunu demişdim, məni dartıb saldılar aşağı ki, getməliyik komendaturaya. Sanki FV rejimini pozmuşam. Avtobus əhli töküldü aşağı. Ağsaqqallar, qarasaqqallar. Bir tələbə qız gəlib yapışdı qolumdan, dedi, qoymaram qardaşımı aparasınız. Bir neçə orta yaşlı adam da hərbçilərə yalvar-yapış elədilər, zor-bəla məni rus "voyenni"lərin əlindən qurtardılar. Yoxsa dirəşmişdilər ki, net, on (yəni mən) oskorbil voyennıx...

Dediyim odur ki, FV rejimi sizə zarafat gəlməsin, adamı bir ehtiyatsız hərəkətinə görə güllələyə, bir sözünə görə həbs edə bilərlər.

Söhbət hardan gəldi, hara çıxdı. Gün o gün olsun ki, qurtarsın dava, məmur da qayıdıb girsin gərdəyə... (Qafiyə düz gəlmədi, amma cəhənnəmə gəlsin, əsas məsələ odur ki, salamatçılıq olsun).

YENİ MÜSAVAT
N 158 (6479) 22 iyul 2016




**Cümə söhbətləri**

# Ühüd: tarixi məkan və vücudi dərslər

**Bismilləhir-Rahmənir-Rahim! Yaşadığımız Şəvval ayının ən əlamətdar tarixləri ilk müsəlmanların öz əqidələrini müdafiə etmək üçün apardığı mübarizə ilə də bağlıdır. Belə ki, İslamın gətirdiyi bərabərlik, ədalət, insanlara məhəbbət, hüquqların müqəddəsliyi kimi ideallara qarşı birləşən, İslamı beşikdəcə boğmaq üçün səfərbər olan müşrik əyanları, ardıcıl olaraq müsəlmanlara qarşı hərbi yürüşlər təşkil edirdilər. Bunların tarixini öyrənmək, təhlil etmək, bu müdafiənin dərslərini tədqiq etmək - Həzrət Peyğəmbərimizin (s) gətirdiyi mübarək təlimi daha da gözəl anlamağa yardım edir.**

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



## Nə üçün Ühüd bu qədər önəmli?

Bu müharibələr sırasında ən əlamətdarlarından biri - Ühüd döyüşüdür. Gənc İslam camiəsi məhz bu döyüşdə böyük imtahanlara məruz qalmış, Həzrət Peyğəmbərimizin (s) "Seyidüş-şühəda» ("Şəhidlər ağası") adlandırdığı Həzrət Həmzə və digər qəhrəmanlar məhz bu döyüşdə öz həyatlarını İlahi ideallar uğrunda qurban vermişlər. Hətta Allahın Rəsulu (s) da bu döyüşdə yaralanmışdır. Bu döyüşün ibrətləri o dərəcədə böyükdür ki, Müqəddəs Quranımızda bu dərsləri unutmamaq barədə müraciətlər edilir.

Qurani-Kərimin "Ali-İmran» surəsinin 121-ci ayəsində Peyğəmbərimizə (s) müraciətlə bildirilir: "Və (yada sal) o zamanı ki, möminləri döyüş üçün düşərgələrdə yerləşdirdiyin halda (Ühüd döyüşündə) sübh çağı öz əhlindən (ailəndən) ayrıldın. Allah həmişə eşidən və biləndir».

Təfsirçilərin açıqlanmasında bildirilir ki, burada müşriklərin hücumuna qarşı hazırlıq görən müsəlmanların yerləşməsini və tənzimlənməsini Peyğəmbərimiz (s) tərəfindən idarə edilməsindən söhbət gedir.

Nə üçün bu qədər diqqət? Nə üçün bütün zaman və məkanlarda yaşayan müsəlmanlar üçün burada böyük örnəklər var?

Əslində Ühüd döyüşü bir çox müstəvilərdə örnək verir: burada sonsuz qəhrəmanlıq, yenilməzlik və şücaət, bəzilərinin xəyanəti ilə yanaşıdır; bir qisim insanın Allaha ixlaslı bəndəçiliyi digər qismin qorxaqlıq və inamsızlığı ilə yanaşıdır; bir qismin sistemli və şüurlu durumu digərlərin kortəbii və reflektor davranışı ilə yanaşıdır. Bunların hamısını təhlil etmək, tarixi məqamlardan çox, imanın dərinliklərinə çatmağın yollarını qavramağa yardım edir.

## Nələrdən dərs verir Ühüd?!

Ühüd döyüşü - uğurdan sonra başgicəlləndirici duruma düşməməyi öyrədir, qələbədən sonra ayıqlığa çağırır, çətinliklərə sinə gərməyi, üzülməməyi, ruhdan düşməməyi, ən başlıcası - məğlubiyyətdən sonra ayağa qalxmağı öyrədir. Ühüd - qat-qat güclü düşmənə baş əyməməyin, yıxılandan sonra durmağın əvəzolunmaz dərsləridir. Ühüd öyrədir ki, məğlubiyyət insanın cisminə hakim kəsilib, onu süstləşdirməməlidir. Məğlubiyyətin mütləqiyyətini qəlbdən çıxarıb, iradəni uğura tuşlamağın yolunu öyrədir Ühüd.

Bu döyüşü kifayət qədər yaxşı anlamaq üçün, bir qədər əvvələ qayıtmaq gərəkdir. Peyğəmbərimizin (s) Məkkədən Mədinəyə hicrəti dövrünü xatırlayaq. Məkkədə qalmaq müsəlmanlar üçün artıq həyati təhlükəyə çevrilmişdi. Onlara qarşı hər müstəvidə - iqtisadi, psixoloji, fiziki baxımdan təzyiqlər edilir, onları hətta öldürürdülər. Bütün bu ağlasığmaz təqiblərə baxmayaraq, müsəlmanların sayı gündən-günə artırdı.

Müsəlmanların artması, yüzillər boyu insanları çatıb-talamağa, özgələrinin hesabına varidat toplayıb, eyş-işrət məclislərinə israf etməyə öyrəşmiş, açıq quldurluqdan belə çəkinməyən Məkkə əyanlarını ciddi təşvişə salmışdır. Onlar bir çox vasitələrə - ələ almağa, qorxutmağa, blokadaya almağa və s. - əl atdıqdan sonra, artıq birləşərək, Həzrət Peyğəmbər (s) başda olmaqla müsəlmanları fiziki məhv etməyə qərar verirlər. Belə olan halda, Allahın Elçisi (s) müsəlmanların Mədinəyə hicrət etməsini buyurur. Mədinəyə köçən müsəlmanları "mühacirlər», Mədinədə yaşayan, Peyğəmbərimizi (s) dəvət edən müsəlmanları isə "ənsar" adlandırmışlar.

Mədinəyə köçən müsəlmanlar burada ilk İslam Konstitusiyasını - "Mədinə müqaviləsi» adlanan birgəyaşayış müqaviləsini tərtib edirlər, müxtəlif dinlərin və etnik qrupların dinc yanaşı yaşamaq konsepsiyasını hazırlayırlar. İslam camiəsi günü-gündən güclənir, ətraf məntəqələrdə yaşayan, əyanların özbaşınalıqlarından, qanunsuzluq və ədalətsizlikdən cana doymuş insanlar dəstə-dəstə Allah dininə pənah gətirirdilər. Bu durum, Məkkə əyanlarını son dərəcə narahat etmişdir. Onlar güclü qoşun toplayaraq, Mədinəyə yürüş etmək, müsəlmanların axırına çıxmaq qərarına gəlirlər.

## Bədr - keyfiyyətin kəmiyyət üzərində təntənəsi

Peyğəmbərimizin (s) şəxsən iştirak etdiyi müharibələri tarixçilər "qəzvə" adlandırırlar. İslam tarixində ilk belə böyük qəzvə "Bədr qəzvəsi" adlanır. Min nəfərə yaxın yaxşı silahlanmış, süvari birləşmələrindən ibarət müşrik ordusunun qarşısına cəmi 313 nəfər zəif silahlanmış müsəlman çıxmışdır. Lakin iman, keyfiyyət, nəzm, yüksək ruhiyyə hesabına müsəlmanlar müşrikləri məğlubiyyətə uğradırlar. Çoxlu təlafat vermiş, 70 nəfəri əsir düşmüş müşriklər geri qaçmağa məcbur olurlar.

Bədrdə məğlubiyyət müşrikləri ciddi böhrana salmışdır. Bütün əyan evlərində güclü sarsıntı hökm sürürdü. Bu ərəfədə lənətlik Əbu Sufyan *(Yezid lənətliyin babası, Müaviyənin (lən) atası - bu lənətliklər nəsillikcə İslama qarşı bacardıqları düşmənçilikləri etmişdilər)* müşriklərin arasında geniş iş aparmağa başlayır. İntiqam ruhiyyəsini aşılamağa başlayır. Gecə-gündüz müşriklərə müsəlmanların qanına qəltan edilməsi hesabına məğlubiyyətin acısını unutdurmaq fikri yeridilir.

Mədinəyə qarşı yürüşə ciddi hazırlıq aparılır. İlk növbədə, bu hazırlıq psixoloji zəmində aparılır. Evdə, küçədə, meydanda - hər bir yerdə ancaq intiqamdan, qisasdan söhbət gedir. Müşriklər arasında qisas ruhiyyəsini gücləndirmək üçün ağlasığmaz işlər görülür. Təbii ki, bu işin önündə lənətlik Əbu Sufyan gedir.

## Ühüd döyüşü - məşvərətin canlı təzahürüdür

Beləcə bir neçə ay keçir. Hicrətin 3-cü ilinin Şəvval ayında, müşriklərin intiqam almaq, müsəlmanları qanlarına qəltan edərək, birdəfəlik bu "problemi" aradan aparmaq istəyi kulminasiyaya çatır. Müsəlmanların qanına susamış müşriklər o zamanın Ərəbistanı üçün görünməmiş bir hərbi qüvvə ilə - 3000 atlı, 2000 piyada, tam silahla təchiz olunmuş vəziyyətdə Mədinəyə tərəf hərəkətə başladılar. Müşriklər bütləri də özləri ilə götürürlər, hətta qadınları da özləri ilə götürürlər. Ö zamanın hərbi ənənələrinə görə bu, "ölüm-dirim" döyüşünün siqnalı idi.

Peyğəmbərimizin (s) əmisi Abbas ibn Əbdülmüttəlib məktub vasitəsilə müsəlmanları müşriklərin yürüşündən xəbərdar edir. Bu andan Peyğəmbərimizin (s) məsələyə yanaşma metodikası ilə tanış olmaq son dərəcə böyük əhəmiyyət kəsb edir.

İlk öncə Rəsulullah (s) alınan məlumatı yoxlayır. Xüsusi heyət yola düşür və böyük səylə tapşırığı yerinə yetirir. Müəyyən edilir ki, Məkkə ilə Mədinə arasında yolda böyük sayda silahlı dəstə hərəkət edir.

Bundan sonra Peyğəmbərimizin (s) atacığı addım, müsəlmanlar arasında məşvərət ənənəsinin canlı təzahürüdür. Mədinədə olan inanclı insanların nümayəndələri məşvərətə toplanır. Bu zaman Peyğəmbərimiz (s) məsləhət üçün bir məsələni çıxarır: müşriklərin hücumuna qarşı müvafiq müdafiəni təşkil etmək. Burada mütləq bir haşiyə çıxmaq gərəkdir ki, məşvərət ənənəsinin mahiyyəti, müəyyən məqamlarda insanların birgə məsləhətləşib qərar çıxarması məqsədi güdməkdən ibarətdir. Lakin İlahi hökmlər məsələsində, vacib əməllərin, halal-haramların müəyyən edilməsində Peyğəmbərimiz (s) heç zaman məşvərət keçirməzdi - bunlar Allah Təala tərəfindən müəyyən edildiyindən, heç bir məşvərətə ehtiyac yox idi. Belə anlanılır ki, məşvərət yalnız seçim nəzərdə tutan məsələlərə aiddir. Yəni o işlərdə ki, İlahi buyuruq var, amma bu işin icrası üçün bir neçə yol var - məşvərət mövzusu ola bilir. Bu ənənənin çox böyük əhəmiyyəti vardır: məsləhətləşmək, düzgün qərar qəbul etməkdən tutmuş, vəhdətə, məsuliyyətin bölünməsinə qədər çox önəmli cəhətlər topluma aşılanır.

## Müharibənin gedişatı

Məşvərətdə 2 əsas nəzər formalaşır: **1)** Mədinədə qalmaq və burada müdafiəni təşkil etmək; bu nəzərin tərəfdarları israr edirdilər ki, şəhər müdafiə üçün çox uyğundur və müdafiə üçün zəruri imkanlara malikdir. Eyni zamanda onlar israr edirdilər ki, şəhəri tərk etmək və açıq yerdə böyük sayda qoşunun qarşısına çıxmaq böyük təhlükə vəd edir.

**2)** Digər nəzərin tərəfdarları israr edirdi ki, Mədinədən kənara çıxmaq, düşmənin üzərinə getmək və onunla açıq yerdə qarşılaşmaq daha düzgündür. Bu ikinci nəzərin ərsəyə gəlməsində Bədr ab-havasının böyük rolu var idi.

Nəticədə 2-ci rəyin tərəfdarları böyük əksəriyyət təşkil edir və məhz bu rəyə üstünlük verilir. Hərçənd ki, Peyğəmbərimiz (s) birinci rəyə daha çox üstünlük verirdi, amma ümumun rəyinə hörmət əlaməti olaraq, öz fikrində israr etmədi.

Döyüşə hazırlıq başlanır və müsəlmanlar cəmi 1000 nəfərlə böyük sayda müşriklərin qarşısına çıxırlar. Peyğəmbərimiz (s) 3 bayraq tədarük edir: bunlardan biri mühacirlərə, ikisi ənsara verilir. Yolda 1000 nəfərdən 300 nəfəri geri qayıdır. Bunlar zəif əqidəli insanlar idilər ki, bir nəfər münafiqin fitnəsi ilə yoldan çıxdılar.

Rəsulullah (s) müdafiənin qurulmasına şəxsən rəhbərlik edir və ilk öncə Abdullah ibn Cübeyr adlı səhabəsini 50 nəfər mahir oxçu ilə birlikdə xüsusi tapşırıqla qoşunun arxasındakı təpənin üzərinə göndərir. Ona tapşırılır ki, müsəlman qoşununun arxa tərəfdən təhlükəsizliyini təmin etməlidirlər və o dərəcədə ciddi surətdə tapşırılır ki, hətta İslam qoşunu müşrikləri Məkkəyədək də qovacağı təqdirdə belə, bu oxçu dəstəsi yerindən tərpənməməli idi. Əgər düşmən müsəlman qoşununu Mədinəyədək qovsa da, oxçular yenə də yerindən tərpənməməli idi. Yəni, ən mühüm mövqeni həvalə etdikləri bu dəstəyə birmənalı olaraq tapşırılır ki, heç bir halda yerlərindən tərpənməsinlər. Və Abdullahın başçılığı ilə 50 nəfər oxçu həmin mühüm mövqeni tutur.

Döyüşün əvvəli müsəlmanların böyük üstünlüyü ilə gedir. Həzrət Əlinin (ə) müşriklərin 10 nəfər ən güclü döyüşçüsünü təkbətək döyüşdə məğlub etməsi, müşrik ordusunun dərin sarsıntısına səbəb olur. Nəhayət, düşmən ordusu silah-sursatı, var-dövlətini atıb, qaçmağa üz tutur.

## Ühüdün mühüm dərsləri

Bundan sonra bəzilərinin ciddi səhvləri başlayır. Vaxtından tez qələbə əhvalı insanları bürüyür, bu arada bəzilərində qənimət əldə etmək həvəsi oyanır. Beləliklə, bir qisim döyüşçülər qənimət toplamaq niyyətilə cəng meydanına üz tuturlar. Ən faciəlisi odur ki, ən mühüm mövqedə duran oxçuların 10 nəfərindən savayı, hamısı mövqelərini tərk edir.

Düşmənin göndərdiyi nümayəndələr bu səhnəni müşahidə edir, vəziyyətdən xəbərdar olan müşrik qoşunu geri qayıdır, arxadan hücum edərək, 10 nəfər qalan oxçunu şəhid edirlər. Sonra müsəlman qoşunu mühasirəyə alınır və döyüş başlanır. Müsəlman qoşunu çoxlu şəhid verir, o cümlədən, Həzrət Peyğəmbərin (s) sonradan lSeyidüş-şühəda» adlandırdığı Həzrət Həmzə şəhid edilir. İş o yerə çatır ki, müşriklərin Peyğəmbərin (s) şəhid olması barəsində yaydığı şayiənin nəticəsində bir qisim insan hətta fərarilik edir.

Yalnız Həzrət Əli (ə) başda olmaqla, azsaylı müsəlmanların misilsiz qəhrəmanlığı sayəsində, düşmən çəkilib gedir.

Ühüd qəzvəsinin nəticələrini təhlil etdikdə, burada 2 əsas məqam diqqəti cəlb edir: əvvəla, burada böyük itki baş verir - həm canlı qüvvə baxımından, həm də mənəvi sarsıntı baxımından; ikincisi, bu döyüş ümumilikdə İslam ümməti üçün böyük ibrət olur.

İslami mənbələrdə Ühüd məğlubiyyətinin bir neçə əsas səbəbi göstərilir:

**1)** səhv yanaşma - bəziləri düşünürdülər ki, qələbə üçün yalnız imanın olması kafidir və qələbənin mühüm şərtlərini unutmuşdular;

**2)** əmrə tabe olmamaq, sistemliliyi pozmaq. Buraya, ilk növbədə, oxçuların əməli aiddir;

**3)** dünyapərəstlik meyilləri, qənimət həvəsi;

**4)** Bədr qələbəsindən başgicəllənmə, öncəki nailiyyətlərdən ifrat arxayınçılıq əhval-ruhiyyəsi.

Ühüddə mühüm məsələlərdən biri də müsəlmanların 3 qrupunun təzahür edilməsi oldu: birinci qrupa fədakar insanlar aiddir ki, onlar sonadək vuruşdu, bəziləri şəhid oldu, bir qismi isə yaralandı. İkinci qrupa qəlblərində şəkk-şübhə olan, vəsvəsəli insanlar aiddir ki, imanlarının zəifliyindən sonadək dözməyərək, fərarilik etdilər. Üçüncü qrupa üzdə müsəlmanlar, mahiyyətcə münafiqlər aiddir - bunlar əsasən döyüşün əvvəlində ayrılıb gedən 300 nəfər idi.

**Allah Təala bütün iman əhlini bu dərsləri anlayıb, ibrət götürənlərdən qərar versin, inşəallah!**

**Allahım, bizə həqiqi bəndəçiliyin feyzindən bəhrələnmək tofiqatını əta et!**

**Allahım, cəmi insanların haqq yola hidayət olması üçün inayətini nazil et!**

**Allahım, Həzrət Peyğəmbərin (s) və Əhli-Beytin (ə) mübarək yolunun davamçısı olmaq şərəfini bizlərə və bütün ümmətə nəsib et!**

**Allahım, işğal olunmuş torpaqların azad olunmasını tezləşdir!**

**Allahım, 12-ci İmam Həzrət Mehdi Sahib-əz-Zamanın (ə.f.) tezliklə zühur etməsini nəsib et! Amin!**

YENİ MÜSAVAT
N 158 (6479) 22 iyul 2016

# Bir gündə 7 adam batdı: Xəzəri "əjdahaya" çevirən şok səbəblər

## Dənizi hasarlayan məmurlara görə vətəndaşlar daha təhlükəli ərazilərdə suya baş vurmalı olur; Ümumdünya Səhiyyə Təşkilatı batanları niyə kasıb hesab edir?

**Azərbaycanda bir gündə 7 nəfər dənizdə batıb. Çimərlik mövsümü başlayandan bu günə qədər isə suda boğulanların sayı 20-ni ötüb.**



### Azərbaycanlılar suda niyə boğulur?

Niyə Xəzər dənizi sahilində yaşayan xalqın nümayəndələri suda batırlar? Müxtəlif ekspertlərin rəylərinə görə, suda boğulma hallarının çox hissəsi spirtli içkinin təsiri altında suya girməyə görə baş verir. Çimərlik üçün nəzərdə tutulmayan ərazilərdə boğulma halları da çoxluq təşkil edir.

### Bəs əhalimiz üzgüçülük vərdişlərinə yiyələnə bilirmi?

Bu sualın cavabı dənizdə batanların sayında özünü göstərir. Azərbaycan əhalisinin böyük əksəriyyəti üzgüçülük vərdişlərinə sahib deyil! Əhalinin maddi durumu ilboyu fəaliyyətdə olan üzgüçülük hovuzlarına gedib üzgüçülük dərsləri almağa imkan vermir.

### Boğulmaların bir səbəbi də Xəzərin hasarlanmasıdır

Azərbaycanda Xəzər sahili boyu daha təmiz, təhlükəsiz ərazilərin məmurlar tərəfindən hasara alınması da sıravi vətəndaşları daha təhlükəli ərazilərdə istirahət etmək, üzmək məcburiyyətində qoyur. Dənizi hasarlayan məmur dəbdəbəli imarətində hovuzda təhlükəsiz şəraitdə üzdüyü bir vaxtda sərinləməyə can atan vətəndaş daha təhlükəli ərazilərdə suya baş vurmalı olur. Nəticədə də acınacaqlı statistik rəqəmlər alınır.

### Bəs suda boğulma zamanı nə etmək lazımdır?

**Üzgüçülük instruktoru Azər Əhmədov** deyir ki, çimərliklərdə, su hövzələrində boğulma halları zamanı ilk dəqiqələrdə zərərçəkmişlərin 90 faizini, 6-7 dəqiqə sonra isə təxminən 3 faizini xilas etmək mümkün olur. Suda boğulma zamanı ölüm tənəffüs yollarının su ilə tutulması, havanın ağciyərlərə daxil ola bilməməsi və nəticədə orqanizmdə oksigen çatışmazlığı nəticəsində yaranır. Boğulmuş şəxsin dərisi göyərmiş olur, ağzından və burnundan köpüklü maye gəlir.

Onun sözlərinə görə, suda boğulanın qeyri-iradi, təlaşlı hərəkətlərindən xilas olmaq üçün aktiv üsullardan biri də onu suya batırmaqdır. Belə bir şəraitdə o, suyun üzərinə qalxmaq üçün yardım göstərən şəxsi buraxmağa məcbur olur. Bundan sonra yardım göstərən şəxs suya baş vurmalı, boğulan şəxsi tapıb onun əlindən, saçlarından yapışıb təkan verməklə onunla birlikdə suyun üzərinə qalxmalıdır. Bu zaman yardım göstərən şəxs sərbəst qalan əli və ayaqları ilə intensiv hərəkət edib üzməlidir.

Boğulan şəxsə sahilə çıxarıldıqdan sonra onun vəziyyətindən asılı olaraq ilk yardım göstərilir. Zərərçəkmiş özünə gəlibsə, onu sərt yerdə uzatmaq və isti içkilər vermək lazımdır. Zərərçəkmişin huşu özündə deyilsə, ona süni nəfəs verilməlidir. Daha sonra onu üzü üstə tutmaq lazımdır ki, ciyərlərinə dolmuş su çıxsın. Yardım göstərən ayağını dizdən bükərək zərərçəkmişin qarnı üstə budunun üzərinə qoyub əli ilə onun kürəkləri arasındakı sahəyə güclü şəkildə təzyiq etməklə tənəffüs yollarından suyu xaric etməlidir. Bu əməliyyat süni tənəffüsün verilməsinin gecikdirilməməsi üçün 10-15 saniyədən çox çəkməməlidir. Əgər ilk yardım gecikdirilməyibsə, suda boğulma zamanı ağciyərlərdə ödəm yarandığına görə ağır boğulma halları 1 həftəyə sağalır. Boğulmuş şəxs xəstəxanaya xərəkdə üzü üstə aparılmalı və nəzarətdə olmalıdır.

### Batanların 90 faizi kasıblardır!

Ötən il Ümumdünya Səhiyyə Təşkilatı suda boğulma halları ilə bağlı çox maraqlı bir hesabat yaymışdı. Həmin hesabatın müəllifi Devid Meddinq apardığı araşdırmaların sonucu olaraq çox maraqlı bir nəticəyə gəlmişdi. Məlum olmuşdu ki, hər il dünya üzrə suda boğulan 372 min nəfərin 90 faizi aşağı və orta gəlirli ölkələrin vətəndaşlarıdır. Hesabatdan belə aydın olur ki, varlıların su hovuzlarına çatımlılığı, oralarda isə xilasedicilərin olması suda boğulma riskini son dərəcə azaldır.

**"İnkişaf etmiş ölkələrdə su ilə əlaqə üzmək, istirahət, sərinləmək üçündür. Lakin aşağı gəlirli ölkələrdə insanlar üçün su ailələrini dolandırmaları üçündür"** deyə, hesabatın müəllifi Devid Meddinqin qeyd edir.

### Dövlət Sularda Xilasetmə Xidməti nə deyir?

**Dövlət Sularda Xilasetmə Xidmətinin Xilasetmə və dalğıc işləri üzrə şöbəsinin müdiri Elsevər Həsənov "Yeni Müsavat"a deyib ki, hər il çimərlik mövsümünün əvvəlindən sonuna qədər əhalini qeyri-çimərliklərdə üzməmək, qadağanedici şarlardan uzaq getməmək barədə xəbərdar edirlər. Suda boğulmalara əsas səbəb üzə bilməmək, küləkli hava şəraitində üzməyə cəhd etmə, qeyri-çimərlik ərazilərdə, qayalıq, müxtəlif dəmir-beton, konstruksiya olan ərazilərdə çimməkdir:** "Qeyri-çimərlik ərazilər, yəni çimmək qadağan olunan ərazilərdə Dövlət Sularda Xilasetmə Xidmətinin məntəqələri fəaliyyət göstərmir. Bakı-Abşeron yarımadasında, Sumqayıt şəhərində Dövlət Sularda Xilasetmə Xidmətinin 25 struktur bölməsi fəaliyyət göstərir. Respublika üzrə ümumilikdə 45 xilasetmə məntəqəsi var".

**E.Həsənov vətəndaşlara məsləhət görür ki, üzmək üçün qoyulmuş xəbərdarlıq şarlarını keçməsinlər, məlumatlandırıcı, xəbərdaredici nişanların tələblərinə əməl etsinlər, sərxoş vəziyyətdə suya girməsinlər. Xüsusilə küləkli havada suya girməsinlər. Ümumiyyətlə, Dövlət Sularda Xilasetmə Xidmətinin müəyyən qaydaları var ki, o qaydalara riayət edildiyi halda təhlükəsiz şəkildə istirahət etmək mümkündür:** «Biz əhalini xilasetmə məntəqələri olan ərazidə istirahət etməyə, çimməyə dəvət edirik. Bu ərazilərdə vətəndaşların həyatı üçün təhlükə yoxdur. Qeyri-çimərlik ərazilərinə, silsilə qayalıq olan yerlərə üz tutmasınlar. Həmin ərazilərdə suda boğulmaq riski böyükdür. Çünki sualtı axınlar güclüdür, tez-tez burulğanlar əmələ gəlir. O, ərazilərdə xilasedicilər də yoxdur. Hadisə olanda da hadisə yeri, hadisə zamanı boğulanların sayı haqda məlumatlar da xilasedicilərə gec çatır və suda boğulanları xilas etmək çox vaxt mümkün olmur. Xilasetmə məntəqələrində 24 saat növbətçilik aparılır. Ancaq səhər 9-dan axşam 8-ə qədər vətəndaşlar daha təhlükəsizlik şəkildə istirahət edə bilərlər. 8-də xilasetmə texnika və vasitələri sudan çıxarılır və vətəndaşlara səsgücləndiricilər vasitəsilə xəbərdarlıq edilir ki, artıq qaranlıq düşdüyünə görə sudan çıxsınlar. Günün qaranlıq saatlarında suda boğulmalar baş verir, bəzən çimərliyə gələn şəxslər yanlarında gətirdikləri azyaşlı uşaqları unudurlar. İfrat dərəcədə istirahətə kökləndikləri üçün uşaqlar yaddan çıxır. Sonra xilasedici bilmir uşağı suda axtarsın, yoxsa sahildə. Valideyn özü də bilmir ki, uşağı dənizdə nəzarətsiz qoyub, yoxsa sahildə. Əsas problemlərdən biri də azyaşlı uşaqların nəzarətsiz buraxılmasıdır. Suda batmaq təhlükəsi ilə üz-üzə qalanlar əsasən gənclər və yeniyetmələrdir. Əsasən yeniyetmə və gənclər xilasedicilərin haqlı tələblərinə əhəmiyyət vermirlər. Bu da əksər vaxt onların həyatlarını itirməsi ilə nəticələnir". Dövlət Sularda Xilasetmə Xidmətinin üzərinə düşən vəzifələrdən biri də çimərliklərdə təhlükəsizlik tədbirlərini həyata keçirməkdən ibarətdir. Belə ki, çimərlik mövsümü başlamazdan əvvəl çimmək üçün ayrılmış sahələrdə sualtı təmizləmə işləri aparılır. Təhlükəsiz ərazi məhdudlaşdırıcı şarlar vasitəsi ilə çəpərə alınır. İşarələnmiş təhlükəsiz ərazidə suyun sahildən uzaqlaşma dərinliyi böyüklər üçün 1,75 metr, uşaqlar üçün isə 0,70 metrdir.

**E.Həsənov onu da bildirib ki, könüllü şəkildə xilasetmə işlərində iştirak etmək istəyən şəxsləri xilasetmə işlərinə cəlb edirlər:** "Belə istəyi olan şəxslər, Xəzər sahilində yaşayan, dənizə bağlı şəxslər müraciət edəndə müəyyən yoxlamalardan keçirib, təmənnasız olaraq üzgüçülüyün sirlərini öyrədib xilasetmə işlərinin incəliklərini izah edib işə cəlb edirik".

**E.Həsənov deyib ki, mövsüm başlayandan bu günə qədər 74 nəfər suda boğulan şəxsi xilas ediblər.**

❑ **E.MƏMMƏDƏLİYEV**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Elan**

**Qəbələ rayonunun Vəndam kəndində gözəl bir meyvə bağı satılır. 60 sot sahəsi var, 86 ağac, qoz, şabalıd, qızıl əhmədi alması, fındıq, hamısı bar verir. Bağ dağ ətəyindədir, kvadratdır, qazı, işığı, suyu var. Çox gözəl bağdır. Xeyir iş səbəbindən çox münasib qiymətə satılır.**
**Əlaqə telefonu: (070) 335-90-15.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
Son səhifə
N 157 (6479) 22 iyul 2016



## Cücələrin cinsiyyətini müəyyənləşdirir, pula pul demir

Türkiyənin ağ ət və yumurta istehsalı mərkəzlərindən Balıkəsirin Bandırma bölgəsində 29 yaşındakı Okan Kavlakın peşəsi olduqca qəribədir. Yumurtadan çıxandan sonrakı 1 saatda cücələrin cinsiyyətini müəyyənləşdirən seksor adlandırılan peşəni icra edən Kavlak özü barədə bunları danışır: "Biz dünyada çox az kişiyik. Bir saat ərzində maksimum 800 ilə 1200 cücənin cinsiyyətini müəyyən edirik. Aylıq məvacibimiz isə orta hesabla 15 min lirədir".

Əsas peşəsi bank işçisi olan O.Kavlak hesab edir ki, hazırkı sektoru daha gəlirlidir. Onun sözlərinə görə, bu işi Türkiyədə 17-18, dünyada isə ən çox 200 nəfər icra edir. Cənubi Koreyada geniş yayılan bu peşənin təhsilini Hollandiyada alan O.Kavlak bildirib ki, bu sahənin mütəxəssisi olmaq şərtdir: "Cücənin cinsiyyətini dünyaya gəldiyi bir saat ərzində bilməsəniz, bir də pipiyi çıxıb xoruz olduğu məlum olana qədər, "böyüyəcək də, yumurtlayacaq" deyə gözləyərsiniz. Orta hesabla bir cücənin cinsiyyətinin özlüyündən bəlli olması üçün 45 günlük olması lazımdır. Bu müddət ərzində pipiyi çıxdığı üçün onsuz da cinsiyyəti bəlli olur. Keçən bu zamandakı baxım xərcləri isə istehsalçı üçün ciddi maddi itki deməkdir.

# İnsan ölür, amma şüuru qalır

Elm adamları ölümdən sonra da şüurun davam etdiyini kəşf ediblər. Bu qənaətə İngiltərə, Amerika və Avstraliya həkimləri 15 xəstəxanada apardıqları araşdırmadan sonra gəliblər. İnfarkt keçirən, kliniki olaraq ölən və yenidən geri qayıdan 2 min insan üzərində edilən tədqiqatdan sonra məlum olub ki, həmin insanların 40 %-nin beyni dayansa belə, şüuru itmir. İnfarkt keçirən 57 yaşlı bir ingilisin ürəyi 3 dəqiqəlik dayansa da, "o dünyadan" geri qayıtdıqdan sonra ətrafındakı həkimlərə nə gördüyünü danışmağa başlayıb. Bəzi xəstələr kinolarda təsəvvür edilən kimi, ağ parlaq işıq gördüyünü, bəziləri isə bir əlin onların boğazından bərk yapışaraq boğmağa çalışdığını söyləyiblər.



Bir qrup xəstələr isə qorxu, təəccüb və rahatlıq dolu bir hiss yaşadığını deyib. Qeyd edək ki, edilən araşdırmalardan sonra Amerikanın tanınmış alimlərindən Sam Parnia insan öldükdən sonra şüurunun itmədiyini söyləyib.

# Kompüter oyunları yaddaşı gücləndirmir

Kompüter oyunlarının insan beyninə müsbət təsir etməsi ilə bağlı iddia öz təsdiqini tapmayıb. Berlin və Stanfordlu alimlər kompüter oyunları hazırlayan firmaların reklamlarında tez-tez istifadə etdikləri və müştərilərə təsir edən "mütəxəssislər tərəfindən hazırlanıb" cümləsinin həqiqəti əks etdirmədiyi nəticəsini əldə edib. Müxtəlif ölkələrdən 70-dən artıq nevropatoloq və psixoloq aydınlaşdırıb ki, beyin gimnastikası təmin edən kompüter oyunları yaşlılıqla bağlı zehni qabiliyyət fazizini aşağı salmır, amma heç yuxarı da qaldırmır. Oyunlar insan yaddaşını əsla gücləndirmir. Max Planck İnstitutundan Ulman Lindenberger fiziki olaraq aktiv olan, sosial həyata qatılan və zehni olaraq da oyaq qalan insanların zehni baxımdan daha sağlam yaşlanma şansının olduğunu dedi. Beyin və davranışları irəliləyən yaşlarda idmana, gimnastikaya öyrəşdirməyin mümkünlüyü də elmi araşdırmaların nəticələri sırasındadır.





## Məktəblilərə özlərini konservlə qorumaq tapşırıldı

Amerikanın Alabama ştatındakı Valley şəhərindəki məktəbin rəhbərliyi uşaqlardan konserv bankası gətirməyi xahiş edib. Onun bildirdiyinə görə, bu, hücumçulardan qorunmaq üçün lazımdır. Konserv qutusunun çəkisi təxminən 200 qram olmalıdır. Təxmin edilir ki, bu qutular sinif otağında saxlanılacaq və məktəbə hücum olarsa, bundan silah kimi istifadə ediləcək. Məktəbin direktoru Priscilla Holli hesab edir ki, bu cür silah məktəblilərə özünümüdafiə hissi aşılayacaq. Bundan başqa, mümkün olan hücuma qarşı müəllimlər şagirdlərə barrikada qurmağı da öyrədəcək. Bu zaman onlar sinfə cinayətkar daxil olarsa, özlərini qoruya biləcəklər. Konserv qutuları lazım gəlməsə, ilin sonunda onları məktəbin yeməkxanasına təhvil verəcəklər. Məlumatda qeyd edilir ki, valideynlərin böyük qismi məktəb rəhbərliyinin bu addımını dəstəkləyir.

## Qoroskop




QOÇ - Yaxşı olar ki, heç bir ciddi işə baş qoşmayasınız. Əks təqdirdə, uğursuz cəhdlərlə rastlaşacaqsınız. Bununla yanaşı, sizə qarşı qərəz nümayiş etdirənlərə kəskin cavab verməyi də təxirə salın.

BUĞA - Hiss olunur ki, maddi durumunuz qənaətbəxş deyil. Bu isə əksər sahələrdə passivliyinizə zəmin yaradır. Buna baxmayaraq, nahardan sonra ikitərəfli əməkdaşlıq üçün şanslarınız olacaq.

ƏKİZLƏR - Ulduzların düzümü səhhətinizlə bağlı bəzi problemlərlə rastlaşacağınızdan xəbər verir. Bu səbəbdən də orqanizminizə zidd işlərdən yayınmalısınız. İşgüzar əlaqələrə başlayın.

XƏRÇƏNG - İşgüzar sövdələşmələr aparmaq istəyirsinizsə, bürcünüzün bu son təqvimindən yararlanın. Əmin olun ki, hər şey ürəyinizcə olacaq. Sadəcə, qərarlarınızda reallığa əsaslanın.

ŞİR - İyulun bu gününü uğurlu keçirəcəksiniz. Şəxsi işlərinizdə dönüş yaratmaq üçün saat 15-dən sonra şanslarınız olacaq. Büdcənizi artırmaq istəyirsinizsə, əzmkarlığınızı artırın.

QIZ - Bütün enerjinizi fəaliyyət prinsipinə istiqamətləndirin. Çünki gələcək perspektivləriniz iyulun bu təqvimindən birbaşa asılı olacaq. Pul sövdələşmələrində ötkəm olun.

TƏRƏZİ - Saat 13-ə qədər ev şəraitində olmağınız vacibdir. Riskli iş görmək, səfərə çıxmaq yolverilməzdir. Əks təqdirdə əsəbi məqamlar yaşayacaqsınız. Axşamsa qonaqlıq gözlənilir.

ƏQRƏB - Təxminən saat 15-ə qədər ümumi ovqatınız xoş olacaq. Ünsiyyətdə olduqlarınız sizi anlayacaq. Sonrakı müddətdə isə ciddi və böyük mübahisələr gözlənilir. Yaxşı olar ki, səfərə çıxasınız.

OXATAN - Ümumi gərginliyinizə baxmayaraq çıxış yolu tapmağa davam etməlisiniz. Hər şeyi dəqiqliklə ölçüb-biçməli, ağıllı məsləhətlərə qulaq asmalısınız. Uzaq səfərlərə çıxmağa dəyər.

OĞLAQ - Yeni əlaqələr yaratmaq üçün ideal ərəfədir. Çox güman ki, bir neçə yeniliyin şahidi olacaqsınız. Sevindirici təkliflər də labüddür. Nahardan sonra səfərə çıxmağa dəyər.

SUTÖKƏN - İstifadə etdiyimiz bütün astroloji mənbələr bu təqvimi bütünlüklə səfər və qonaqlıqlara həsr edəcəyinizi göstərir. Yeni müsahiblərinizə qarşı bir qədər mülayim davranın.

BALIQLAR - Ay bürcünüzdə olduğu üçün o qədər də uğurlu gün deyil. Bir tərəfdən ətrafınızda lazımi adamların olmaması, digər tərəfdənsə əsəbi situasiyalar ovqatınızı korlaya bilər. Təmkindən qidalanın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Avstraliya məktəblərində əl çalmaq qadağan olundu



Avstraliyanın Sidney şəhərində ibtidai məktəb şagirdlərinə əl çalmaq qadağan edilib. Bu barədə news.com.au saytı xəbər yayıb. Oğlanlara və qızlara bildirilib ki, onlar sevinclərini səssiz şəkildə bildirsinlər. Amma bununla paralel üzlərində sevinc ifadəsi göstərsinlər. Bu təklifin müəllifləri dərs zamanı səs-küy yaratmamaq üçün belə etdiklərini deyiblər. Müəllimlər də hiss ediblər ki, bu cür səssiz sevinc nümayişi daha effektlidir. Nəşr yazıb ki, Avstraliya məktəbləri siyasi korrektura yolunu seçiblər və artıq bütün fəaliyyətlərində bu nüansa əhəmiyyət verirlər. Belə ki, orta məktəblərdə qucaqlaşmaq, bayram mahnıları oxumaq, Avstraliya gününü qeyd etmək, "qara" sözünü tələffüz etmək qadağan edilib. Bəzi məktəblərdə "ledi" və "qadın" sözlərindən istifadə də qadağandır.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 4.750